Maia Bliadze
Manana Sexniaşvili

# COĞRAFİYA 11

## MÜƏLLİM KİTABI



სულაკაურის
გამომცემლობა

Gürcüstan Təhsil və Elm Nazirliyi tərəfindən
2023-cü ildə qrif verilmişdir.

COĞRAFIYA 11
Müəllim kitabı
Müəlliflər: **Maia Bliadze, Manana Sexniaşvili**

Redaktor **Manana Nijaradze**
Dizayner **İya Maxatadze**
Texniki dizayner **Tinatin Berberaşvili**

Birinci nəşr, 2023
© Sulakauri nəşriyyatı, 2023
Bütün hüquqlar qorunur

"Sulakauri nəşriyyatı" MMC
Ünvan: Davit Ağmaşenebeli 150, Tbilisi 0112
Tel: 291 09 54, 291 11 65
El-poçt: info@sulakauri.ge

ISBN 978-9941-37-485-2

Geography 11
Teacher's Book

© Sulakauri Publishing, 2023
All rights reserved.

Tbilisi, Georgia
www.sulakauri.ge

# MƏZMUN


1. Giriş....................................................................................................................5

2. Orta pillənin standartı.....................................................................................8

3. Dərsliyin Milli Tədris Planı ilə uyğunluğu ......................................................11

4. Müəllimlər üçün metodiki tövsiyələr...............................................................12

5. Xüsusi təhsilə ehtiyacı olan şagirdin dərs prosesinə cəlb olunması ..................18

6. Tematik matrislər ...........................................................................................23

7. Əlavə oxu materialı..........................................................................................74

8. Qiymətləndirmə ..............................................................................................88

9. Əlavə ədəbiyyat və faydalı internet resursları ..................................................104

# 1. GİRİŞ

XI sinfin coğrafiya dərsliyinin əsas təlim funksiyası şagirdlər arasında biliyin əldə edilməsi və istifadəsi bacarığının formalaşdırılmasıdır.

Dərslik üç vahiddən ibarətdir: Şagird kitabı, Müəllim kitabı və Şagird dəftəri.

Coğrafiyanın təlim-tədris məqsədlərindən irəli gələrək, XI sinfin dərsliyinin məqsədi ondan ibarətdir ki, şagird:

- Coğrafi təbəqənin bütövlüyünü qavraya bilsin və coğrafi təbəqənin qanunauyğunluqlarını müəyyən etmək üçün onun geosferlərinin (litosfer, atmosfer, hidrosfer, biosfer, noosfer, yerin daxili quruluşu) əlaqəsini təhlil edə bilsin;
- İnkişafın ümumi məkan qanunauyğunluqlarını müəyyən etmək üçün təbii şəraitin əhalinin təsərrüfat fəaliyyətinə və həyat tərzinə təsirini təhlil edə bilsin;
- Əhalinin təbii və sosial sistemlərə təsirini müəyyən etmək üçün əhalinin əsas xüsusiyyətlərini və dinamikasını təhlil edə bilsin;
- Gələcək nəsillərin maraqlarını nəzərə alaraq, resurslardan rasional istifadə edə və idarə edə bilsin.

Eləcə də dərslik şagirdə yardım edəcək:

- ümumi coğrafi qanunauyğunluqları, sosial və təbii sistemlər arasında səbəb-nəticə əlaqəsini bilməyi;
- müxtəlif – yerli, regional və qlobal səviyyələrdə təbii, sosial və mədəni strukturlarda öz yerini düzgün müəyyənləşdirməyi.

XI sinif Coğrafiya dərsliyinə 2 mövzu daxildir:

1. Qlobal iqlim dəyişikliyi;
2. Qlobal siyasi çağırışlar və dəyişikliklər.

Dərsliyin məzmunu – mövzu daxilində təqdim olunan məsələlər Milli Tədris Planı ilə nəzərdə tutulan əldə edilə bilən nəticələrə tam uyğundur.

Dərsliyin mətninə, dərs hissəsinə müxtəlif kartoqrafik material (tematik xəritələr), eləcə də sxemlər, cədvəllər, diaqramlar, infoqrafiklər, illüstrasiyalar (fotoşəkillər, aerofotoşəkillər) əlavə edilir. Dərslikdə təqdim edilən məsələlərin hamısına haşiyələr əlavə olunur və burada da, məsələnin məzmunundan irəli gələrək, “müdafiəçi” rubrikası verilir, hər bir məsələ isə “Bu maraqlıdır” rubrikası ilə başa çatır.

Müzakirə olunan hər bir məsələ tapşırıqlarla müşayiət olunur ki, onların əksəriyyəti şagirdlərdən analitik, tənqidi, yaradıcılıqla düşünməyi və öz mövqelərini ifadə etməyi tələb edir.

Tapşırıqlar blokunda “Gürcüstan və dünya” ayrıca ayrılır. Burada verilən tapşırıqlar, məsələdən irəli gələrək, Gürcüstanla bağlıdır və şagirdə dünyada baş verən müxtəlif ictimai proseslərdə öz ölkəsinin yerini və mövqeyini görmək və müəyyən etmək imkanını verir.

Dərslikdə tapşırıqlardan əlavə rubrikalar – hadisənin analizi, kompleks tapşırıq, Şagird dəftərində isə hər bir mövzu ilə bağlı coğrafi araşdırmalar yer alır. Buradaca izah edirik ki, müəllim rubrikalarda verilən materialdan – “Hadisələrin analizi” və “Coğrafi araşdırmalardan” – həm kompleks tapşırıqların üzərində iş mərhələsində istifadə edə bilər, həm də müəllimin istəyi olduğu halda, onları kompleks tapşırıqlara çevirmək tamamilə mümkündür.

XI sinif Coğrafiya dərsliyində təqdim olunan tapşırıqlar və rubrikalar konstruktivist tədris prinsiplərinə əsaslanır və uzunmüddətli məqsədlərə, anlayışların üzərində işə və əsas təsəvvürlərin formalaşmasına yönəlib.

Onlar şagirdlərə müxtəlif növ resurslar üzərində işləmək və məlumat tapmaq, məlumatı təşkil etmək, onun üzərində işləmək və analiz etmək, maraqlanmaq, coğrafi suallar vermək və onlara özləri cavab tapmaq, bilikləri real həyat kontekstində ötürmək bacarığını inkişaf etdirməyə kömək edəcək. Verilən kompleks tapşırıqlar və onların üzərində işin mərhələlərlə həyata keçirilməsi

təlim-tədris prosesinin dinamik idarə olunmasına dəstək verəcək, materialın səthi öyrənilməsinə deyil, keyfiyyətli biliklərin əldə edilməsinə yönəldiləcək.

XI sinif Coğrafiya dərsliyi metodiki köməkçi vəsait – Müəllim kitabı ilə müşayiət olunur. Kitabı aşağıdakı məlumatlar əhatə edir:

- mövzuları və qiymətləndirmə meyarlarını birləşdirən cədvəllər;
- məsələlərə əsasən kompleks tapşırıqların nümunələrinin ətraflı təsvir edildiyi tematik matrislər və onların həyata keçirilmə mərhələləri;
- Standartın nəticələrinin əldə edilməsi ilə kitabın məzmunu arasında əlaqə xəritəsi;
- müəyyənləşdirici və inkişafetdirici qiymətləndirmənin, o cümlədən SOLO taksonomiyasının nümunələri və müvafiq qiymətləndirmə rubrikaları;
- əlavə dərs vəsaitləri.

Müəllim kitabı müəllimlərə dərslərdə kompleks tapşırıqların yerinə yetirilməsi mərhələlərini səmərəli planlaşdırmağa və maraqlı keçirməyə kömək edəcəkdir.

Eləcə də Müəllim kitabında differensial tədris yanaşmasının həyata keçirilməsi üçün lazımi fəaliyyətlər verilir, müxtəlif növ tövsiyələr daxil edilib.

Ümid edirik ki, qarşıdakı dərsliyin köməkliyi ilə şagird gələcək praktiki fəaliyyətində ona lazım olan məsələlər haqqında bilik əldə edəcək. Eləcə də dərslik şagirdlər arasında öz ölkələrinə və bütövlükdə dünyaya olan maraqlarının oyadılmasına və coğrafi təfəkkürün formalaşmasına, eləcə də vətəndaş təfəkkürünün formalaşmasına dəstək verəcəkdir, Müəllim kitabı isə coğrafiya müəllimlərinə kompleks tapşırıq əsasında tədrisi uğurla həyata keçirməyə kömək edəcək.

XI sinif şagirdinin “Coğrafiya” kitabı 2 mövzu və 16 məsələdən ibarətdir. Dərslikdə və Şagird dəftərində rubrikalar təqdim edilir:

**Yadınıza salın**

1. Hansı fəlakətli küləkləri tanıyırsınız və onlar harada yayılıb?
2. Quraqlıq və dolu əhaliyə hansı ziyanı vurur?
3. Gürcüstanda ən selli çay hansıdır?

**1. Yadınıza salın** – öyrənilən materialdan suallar və ötən biliyin aktivləşdirilməsi

**Risk**

Hadisənin baş vermə ehtimalının və onun mənfi nəticələrinin kombinasiyası.

**2. Lüğət** – yeni terminlərin, tanış olmayan sözlərin izahatı

**Tapşırıqlar**

1. Sizcə, təbii hadisə ilə təbii fəlakət eynidir, yoxsa yox? Fikrinizi sübut etmək üçün arqumentlər gətirin.

**3. Tapşırıqlar** – onların əksər hissəsi dərsdə yerinə yetirilir, digər hissəsi isə şagirdlərə ev tapşırığı şəklində verilir.

**Bu maraqlıdır**

- Yaşıl iqtisadiyyat termini ilk dəfə 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Stokholmda keçirilən Konfransında səslənmiş, 1980-ci ildə isə Təbiətin Mühafizəsi üzrə Beynəlxalq İttifaq (IUCN – International Union for Conservation of Nature), Ümumdünya Vəhşi Təbiət Fondu (WWF) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP United Nations Development Programme) kimi beynəlxalq təşkilatlar tərəfindən birgə həyata keçirilən Ümumdünya Təbiətin Mühafizə Strategiyasının (“Davamlı İnkişaf üçün Sərvətlərin Mühafizəsi”) hesabatında istifadə edilmişdi.

**4. Bu maraqlıdır** – bu hissədə şagirdlər dərsdə verilən material haqqında əlavə məlumatlarla tanış olurlar.

**Gürcüstan və dünya**

Müasir dünyanın bütün dövlətləri beynəlxalq iqtisadi məkanda öz yerini və funksiyasını tapmağa çalışır. Sizcə, Gürcüstanın müasir dünya iqtisadi məkanında yeri və funksiyası nədən ibarətdir?

**5. Gürcüstan və dünya** – Gürcüstanla bağlı tapşırıqlar.

**Hadisənin analizi 2**

**Məlumatla tanış olun və suallara cavab verin:**

BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleya sülh məsələsinin dərk edilməsi tarixində dönüş nöqtəsi olan iki qətnamə hazırladı.

2016-cı ilə qədər sülh anlayışı münaqişədən sonrakı vəziyyətin/mərhələnin ardınca gələn bir proses kimi başa düşülürdü. Bununla belə, BMT qətnamələrinə əsasən, davamlı sülh belə müəyyən edilir: “Məsələsi münaqişənin genişlənməsinin, təkrarlanmasının, qızışdırılmasının və yenilənməsinin qarşısını almaq olan bir məqsəd və proses”. Belə ki, qətnamə BMT-yə üzv dövlətləri münaqişədən əvvəl, münaqişə zamanı və ondan sonra sülh siyasətini işləyib hazırlamağa və həyata keçirməyə məcbur edirdi.

2016-cı ildən sonra proseslə bərabər sülh də məqsədə çevrildi. Məqsədlərə nail olmaq məsələsi münaqişədən əvvəl, münaqişə zamanı və ondan sonra münaqişənin genişlənməsinin, təkrarlanmasının, qızışdırılmasının və yenilənməsinin qarşısını almaqdır.

**Suallar**

**a.** Sizcə, 2016-cı ildən sonra qətnamənin dəyişdirilməsi nəyə görə lazım idi?

**b.** Sizcə, müasir dünyanın geosiyasi vəziyyətindən çıxış edərək, hələ də qətnamənin təzələnməsinə ehtiyac varmı?

**6. Hadisənin analizi** – vəziyyətin analiz edilməsi, suallara cavabın verilməsi və nəticənin çıxarılması

HAŞİYƏ

**Alimlər – iqlim müdafiəçiləri**



**Vaxuşti Baqrationi adına Coğrafiya İnstitutu elmi-tədqiqat, konsultasiya və ekspert fəaliyyətini həyata keçirir. İnstitut qlasioloji tədqiqatlara əsaslanaraq “Qlasiologiya” (Ramin Qobecişvili, 2007) və “İqlim dəyişikliyi fonunda buzlaqların monitorinqi” (Ramin Qobecişvili, Aleksandre Cavaxişvili və başqaları, 2012) adlı elmi məqalələr dərc edib.**

**Vaxuşti Baqrationi adına Coğrafiya İnstitutu**

1960-cı ildən Vaxuşti Baqrationi adına Coğrafiya İnstitutunda qlasioloji tədqiqatlar aparılır. Böyük Qafqaz dağının bir çox buzlaqları tədqiq edilib. Böyük Qafqaz dağının buzlaq axınının xəritələri dünyanın qar və buz resursları atlasına daxildir. İnstitutun ən son fəaliyyətləri arasında 2010-cu ildə Zopxito buzlağında aparılmış ekspedisiyalar diqqəti cəlb edir. İnstitut Gürcüstanda qar-buzlaqların monitorinqi üzrə səyyar və kamera araşdırmalarını davam etdirir. Həmçinin Gürcüstanın iqlim və iqlim ehtiyatları, iqlim dəyişikliyinin təzahürü və təsiri ilə bağlı mühüm tədqiqatlar aparılır.

İnstitutun müasir əsərləri arasında ən mühümləri bunlardır: “Gürcüstanın Milli Atlası” (2012), “Coğrafi Kartoqrafiyanın Terminoloji Arayışı” (Quliko Liparteliani, Davit Liparteliani, 2012), “Gürcüstan relyefi” (Ramin Qobecişvili, 2011) , “Gürcüstanın karst mağaralarının kadastrı” (Zurab Tataşidze və başqaları, 2009) və s.

https://goo.su/7JI7K4

Coğrafiya İnstitutu haqqında daha çox öyrənmək istəyirsinizsə, internet səhifələrə baş çəkin:

16

**7. Haşiyə** – Şagirdlər müzakirə olunan məsələ ilə bağlı sahələr və peşələr, müxtəlif problemlərin öyrənilməsi və həlli prosesinə töhfə verən təşkilatlar, alim və tədqiqatçılar, tanınmış və naməlum şəxslərlə tanış olurlar.

Dərslikdə və Şagird dəftərində verilən rubrikalar kompleks tapşırıq üzərində iş zamanı müəyyən resursu təqdim edir.

# 2. ORTA PİLLƏNİN STANDARTI

## Giriş

İctimai elmlər orta təhsil pilləsində tarixin, ictimai coğrafiyanın və vətəndaş təhsilinin inteqrativ təlim-tədrisi deməkdir. Təlim-tədris üçün müasir cəmiyyətə aktual olan və hər üç fənn sahəsinin perspektivindən işlənə bilən mövzu və məsələlər seçilmişdir.

Standartda nəticələr və hədəf anlayışları şəklində uzunmüddətli məqsədlər müəyyən edilmişdir.

Məzmun mövzular (alt mövzular), məsələlər və alt anlayışlar şəklində təsvir edilir. Milli Tədris Planı icbari mövzuları müəyyən edir. Mövzulara uyğun olan məsələləri isə məktəblər özləri seçirlər.

Hər bir mövzu nəticələrin əldə edilməsi indikatorları ilə müşayiət olunur. Onlar təlim-tədris prosesində nəyin qiymətləndirilməli olduğunu müəyyənləşdirirlər. İndikatorlar hədəf anlayışlarına görə qruplaşdırılır.

### Pillənin nəticələri

Orta pillədə standartda yazılmış hər bir nəticənin əvvəlində indeks gəlir, bu da fənnin, tədris mərhələsinin və standartın nəticəsinin nömrəsini göstərir; **Məs., Coğ. ort. 1.:**

**"Coğ."** – "Coğrafiya" fənnini göstərir;

**"Ort."** – orta pilləni göstərir;

**"Seç."** – dərinləşdirilmiş seçim kursunu göstərir;

**"1"** – Standartın nəticə nömrəsini göstərir.

| ORTA PİLLƏDƏ COĞRAFİYA STANDARTININ NƏTİCƏLƏRİ | | |
|---|---|---|
| **NƏTİCƏLƏRİN İNDEKSİ** | **ŞAGİRD BACARMALIDIR:** | **HƏDƏF ANLAYIŞLAR:** |
| **COĞ.ORT. SEÇ. 1.** | Coğrafi təbəqənin bütövlüyünü qavramağı və coğrafi təbəqənin qanunauyğunluqlarını müəyyən etmək üçün onun geosferlərinin (litosfer, atmosfer, hidrosfer, biosfer, noosfer, yerin daxili quruluşu) bir-biri ilə əlaqəsini təhlil etməyi; | **Coğrafi təbəqə** (Nəticələr 1,2,3,4) |
| **COĞ.ORT.SEÇ. 2.** | İnkişafın ümumi məkan qanunauyğunluqlarını təyin etmək üçün təbii şərtlərin əhalinin təsərrüfat fəaliyyətinə və həyat tərzinə təsirini təhlil etməyi; | **Əhali və təsərrüfat** (Nəticələr 3,4) |
| **COĞ.ORT.SEÇ. 3.** | Təbii və ictimai sistemlərə təsirini təyin etmək üçün əhalinin əsas xüsusiyyətlərini və dinamikasını analiz etməyi; | **Dayanıqlı inkişaf** (Nəticələr 1,2,3,4). |
| **COĞ.ORT.SEÇ. 4.** | Gələcək nəsilləri nəzərə almaqla, resurslardan rasional istifadə etməyi və idarə etməyi. | |

| DƏRS MÖVZULARI |
|---|
| 1. Qlobal demoqrafik problemlər və dəyişikliklər |
| 2. Resursların istifadəsi və idarəetmənin qlobal problemləri və dəyişiklikləri |
| 3. Qlobal iqlim dəyişikliyi |
| 4. Qlobal siyasi çağırşlar və dəyişikliklər |
| 5. İnkişaf etmiş və inkişafda olan dünya |
| 6. Qlobal əməkdaşlıq və əlaqələr |

Təlim-tədris prosesində məktəblər mövzuların yuxarıda təklif edilən ardıcıllığına əməl etməlidirlər.

**İcbari mövzuların və qiymətləndirmə indikatorlarını birləşdirən cədvəllər:**

Hər bir cədvəldə mövzunun adı, onun təsviri və qiymətləndirmə indikatorları verilir və bunlarda da konkret mövzuda nəticələrin gerçəkləşdiyi göstərilir.

**XI sinif**

| MÖVZU: QLOBAL İQLİM DƏYİŞİKLİYİ |
|---|
| Mövzu qlobal səviyyədə əhali və onun iqtisadi fəaliyyətinin yaratdığı iqlim dəyişikliyinin nəticələrinin öyrənilməsini nəzərdə tutur. Onların dağıdıcı və zərərli təhlükələrinin azaldılmasını, yumşaldılması və qarşısının alınmasını. |
| **Tövsiyə məsələləri:**<br>1. Buzlaqların əriməsi;<br>2. Hidroloji-meteoroloji təbii təhlükələr;<br>3. Qaçqınlar, məcburi köçkünlər;<br>4. Alternativ enerji mənbələri (yaşıl enerji);<br>5. “Yaşıl” iqtisadiyyat;<br>6. Havanın çirklənməsi;<br>7. Şirin su problemi;<br>8. Təbii təhlükələrin uyğunlaşma tədbirləri – təsirlərin azaldılması və qarşısının alınması. |
| **Hədəf anlayışlarına əsasən mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları:**<br><br>**Coğrafi təbəqə** – Şagird bacarmalıdır:<br>• Coğrafi təbəqənin bütövlüyünü qavramağı və coğrafi təbəqənin qanunauyğunluqlarını müəyyən etmək üçün onun geosferlərinin (litosfer, atmosfer, hidrosfer, biosfer, noosfer, yerin daxili quruluşu) bir-biri ilə əlaqəsini təhlil etməyi;<br>**Əhali və təsərrüfat** – Şagird bacarmalıdır:<br>• Əhalinin əsas xüsusiyyətlərini və onların iqtisadi fəaliyyətini (qaçqınlar, məcburi köçkünlər, alternativ enerji mənbələri, “yaşıl” iqtisadiyyat) qlobal iqlim dəyişikliyi ilə əlaqələndirməyi.<br>**Dayanıqlı inkişaf** – Şagird bacarmalıdır:<br>• Gələcək nəsillərin firavanlığını təmin etmək üçün (havanın çirklənməsi, şirin su problemi, təbii fəlakətlərə uyğunlaşma tədbirləri – təsirlərin azaldılması və qarşısının alınması) resurslardan rasional istifadə etməyi və idarə etməyi. |

| MÖVZU: QLOBAL SİYASİ ÇAĞIRIŞLAR VƏ DƏYİŞİKLİKLƏR |
|---|
| Mövzu siyasi hadisələrin və proseslərin səbəb və nəticələrinin öyrənilməsini nəzərdə tutur. Xüsusilə, təbii mühitin ölkələrin konfiqurasiyasına, onların sərhəd tiplərinə, qlobal siyasi, sosial və mədəni xüsusiyyətlərinə və inkişafına necə təsir etdiyini təhlil etməyi. Fəsadların və potensial təhlükələrin qarşısını almaq üçün bu prosesləri necə düzgün idarə etmək olar. |
| **Tövsiyə edilən məsələlər:**<br>1. Ölkələrin konfiqurasiyası, sərhəd növləri;<br>2. Ölkələrin qruplaşdırılması – Şimal və Cənub;<br>3. Siyasi və mədəni qloballaşma;<br>4. Sosial qloballaşma: səhiyyə, təhsil, aclıq;<br>5. Münaqişələr, resurs “müharibələri”, terrorizm;<br>6. Təhlükəsizlik, sülhün qorunması. |
| **Hədəf anlayışlarına əsasən mövzu çərçivəsində nəticələrin əldə edilməsi indikatorları:**<br><br>**Coğrafi təbəqə** – Şagird bacarmalıdır:<br>• Coğrafi təbəqənin bütövlüyünü qavramağı və coğrafi təbəqənin qanunauyğunluqlarını müəyyən etmək üçün onun geosferlərinin (litosfer, atmosfer, hidrosfer, biosfer, noosfer, yerin daxili quruluşu) bir-biri ilə əlaqəsini təhlil etməyi;<br>**Əhali və təsərrüfat** – Şagird bacarmalıdır:<br>• Siyasi proseslərlə əhalinin əsas sosial xüsusiyyətləri (sağlamlıq, təhsil, aclıq) arasında qarşılıqlı əlaqəni təhlil etməyi.<br>**Dayanıqlı inkişaf** – Şagird bacarmalıdır:<br>• Gələcək nəsillərin maraqlarını nəzərə alaraq qlobal siyasi prosesləri (münaqişələr, resurs “müharibələri”, terrorizm, təhlükəsizlik, sülhün qorunması) müzakirə etməyi. |

# 3. DƏRSLİYİN MİLLİ TƏDRİS PLANI İLƏ UYĞUNLUĞU

| Mövzuların və dərslərin adları | ORTA PİLLƏDƏ COĞRAFİYA STANDARTININ NƏTİCƏLƏRİ | | | | |
|---|---|---|---|---|---|
| | **Coğ.ort.1.**<br>**Coğrafi təbəqənin bütövlüyünü qavramaq və coğrafi təbəqənin qanunauyğunluqlarını müəyyən etmək üçün onun geosferlərinin (litosfer, atmosfer, hidrosfer, biosfer, noosfer, yerin daxili quruluşu) bir-biri ilə əlaqəsini təhlil etmək;** | **Coğ.ort.2.**<br>**İnkişafın ümumi məkan qanunauyğunluqlarını təyin etmək üçün təbii şərtlərin əhalinin təsərrüfat fəaliyyətinə və həyat tərzinə təsirini təhlil etmək;** | **Coğ.ort.3.**<br>**Təbii və ictimai sistemlərə təsirini təyin etmək üçün əhalinin əsas xüsusiyyətlərini və dinamikasını analiz etmək;** | **Coğ.ort.4**<br>**Gələcək nəsilləri nəzərə almaqla, resurslardan rasional istifadə və idarə etmək.** | **Hədəf anlayışlar və anlayışın əsas təsəvvürləri:**<br>**Coğrafi təbəqə (Nəticələr 1,2,3,4)**<br>• Coğrafi təbəqə bir sıra qanunauyğunluqlarla xarakterizə olunan geosferlərdən (litosfer, atmosfer, hidrosfer, biosfer) ibarətdir;<br>• İnsanların sayəsində digər sahələrə təsir göstərən noosfer (zəka sferası) yaranır.<br><br>**Əhali və təsərrüfat (Nəticələr 3,4)**<br>• Təbii mühit əhaliyə və təsərrüfata təsir göstərir. Müxtəlif ölkədə təsərrüfatın bu və ya digər sahəsi aparıcıdır və bu da əməyin coğrafi bölgüsünə səbəb olur;<br>• əhali və təsərrüfat strukturu, bölgüsü və yerləşməsi vaxtda və məkanda dəyişkəndir;<br>• dövlət ölkədə baş verən sosial-iqtisadi proseslərə təsir göstərir və bu da onun inkişafı səviyyəsində öz əksini tapır.<br><br>**Dayanıqlı inkişaf (Nəticələr 1,2,3,4)**<br>• Yerli əməllər qlobal nəticələrə gətirib çıxara bilərlər;<br>• dayanıqlı inkişaf məqsədlərinin (sosial, iqtisadi, ətraf mühitin mühafizəsi və abadlıq) yerinə yetirilməsi gələcək nəsillərin firavanlığı üçün vacibdir. |
| | 1 | 2 | 3 | 4 | |
| **Mövzu 1. Qlobal iqlim dəyişikliyi** | | | | | |
| 1. Buzlaqların əriməsi | ■ | ■ | ■ | ■ | |
| 2. Hidroloji-meteoroloji təbii təhlükələr | ■ | ■ | ■ | ■ | |
| 3. Təbii təhlükələrin uyğunlaşdırılma tədbirləri – təsirlərin azaldılması və qarşısının alınması | ■ | ■ | ■ | ■ | |
| 4. Qaçqınlar, köçkünlər | | ■ | ■ | | |
| 5. Yaşıl iqtisadiyyat | | ■ | ■ | ■ | |
| 6. Yaşıl energetika | | | ■ | ■ | |
| 7. Şirin su problemi | ■ | ■ | ■ | ■ | |
| 8. Havanın çirkləndirilməsi | ■ | ■ | | ■ | |
| **Mövzu 2. Qlobal siyasi çağırışlar və dəyişikliklər** | | | | | |
| 9. Ölkələrin konfiqurasiyası, sərhədlərin növləri | | ■ | ■ | ■ | |
| 10. Ölkələrin qruplaşdırılması – şimal və cənub | ■ | | | | |
| 11. Qloballaşma və qlobal problemlər | ■ | ■ | ■ | ■ | |
| 12. Siyasi və iqtisadi qloballaşma | | ■ | ■ | ■ | |
| 13. Mədəni qloballaşma | | ■ | | ■ | |
| 14. Səhiyyə, təhsil, aclıq | ■ | ■ | ■ | ■ | |
| 15. Münaqişələr, resurs müharibələri, ərazіçilik | ■ | ■ | ■ | ■ | |
| 16. Təhlükəsizlik, sülhün müdafiəsi | | | | ■ | |

# 4. MÜƏLLİMLƏR ÜÇÜN METODİKİ TÖVSİYƏLƏR

## LEPBUK NƏDİR VƏ ONU NECƏ HAZIRLAYAQ?

Lepbuk informasiyanın ötürülməsi və təşkili üçün orijinal və innovativ vasitədir, eyni zamanda gözəl və faydalıdır. Onun populyarlığı həm müəllimlər, həm şagirdlər, həm də valideynlər arasında artır. Artıq kitab mağazalarında müxtəlif növ lepbuklar almaq mümkündür, lakin şagird onu öz əlləri ilə də düzəldə bilər.

Lepbukun ideya müəllifi amerikalı Temmi Dyub hesab olunur. O, elə də böyük olmayan qovluğa kiçik ciblər yapışdırıb, hər bir "cibə" ad verib, onlarda şəkillər, şeirlər, kiçik komikslər və s. resurslar və ya məlumat mənbələrini saxlayırdı. O, bunlardan uşaqları ilə birlikdə istifadə edirdi, yəni çeşidlənmiş məlumatları saxlamaq üçün "cibli" qovluqdan istifadə edirdi.

Bu gün lepbuklar tədris prosesində bir çox üstünlüklərə malik innovativ texnologiya hesab olunur. Lepbuk (bir çox hallarda interaktiv tematik qovluq adlanır) cibləri, pəncərələri, qapıları və müxtəlif hərəkətli detalları olan əldə düzəldilən kağız kitabdır. Uşaq ondan istifadə edərkən, bu bölmələrdə yığılmış məlumatları çıxara, başqa yerə keçirə, öz istəyinə əsasən yenidən təşkil edə və çeşidləyə bilər. Lepbukda müəyyən bir mövzu ilə bağlı material var. Bundan əlavə, lepbuk şagirdin verilən məsələnin/mövzunun öyrənilməsi və tədqiqi çərçivəsində yerinə yetirdiyi müstəqil tədqiqat işinin yekun mərhələsidir. Bu qovluğu doldurmaq üçün şagird müxtəlif tapşırıqlar yerinə yetirməli, müşahidə aparmalı, sınaq keçirməli, məsələni müxtəlif mənbələrdən ətraflı öyrənməli, müşahidənin nəticələrini qeyd etməli, məlumatları təsnif etməlidir və s.

Lepbukun yaradılması şagirdə öyrəniləcək mövzu haqqında məlumatı tapıb sistemləşdirməyə kömək edəcək. Daha sonra isə bu qovluqları nəzərdən keçirərkən, məsələni/mövzunu asanlıqla xatırlayacaq və o zaman ona lazım olan və vacib olan konkret materialı asanlıqla tapacaq.

Lepbuk (lapbook) sözü ingilis dilindən "qatlanan kitab", "dizüstü kitab" kimi tərcümə olunur və hər iki variant məqbuldur, çünki lepbukun ölçüsü böyük deyil. O, qatlanmış A4 formatı ölçüsündədir və şagirdin ətəyinə qoyması üçün əlverişlidir. Bundan əlavə, bu heyrətamiz kitab sirrlər və tapmacalarla doludur – açılır və cibləri, haşiyələri, bloknotları var ki, bu da öz növbəsində, tematik məlumatlardan ibarətdir və kiçik axtarıcılar və tədqiqatçılar üçün çox maraqlı və cəlbedicidir.

**Lepbuk nümunələri**









**Lepbukun iki əsas üstünlüyü var:**

- **İnteraktivlik** – şagird nəinki onu gözdən keçirir, həm də qovluqla qarşılıqlı əlaqə yaradır. Uşağın səmərəli iştirakı onun bu köməkçi dərs resursuna marağını xeyli artırır. Belə münasibət kinestetik təlim üslubu olan şagirdlər üçün xüsusilə vacibdir, çünki müasir tədris prosesində vizual resurslardan (illüstrasiyalar, videolar, slaydlar və s.), həmçinin musiqi və audio yazılardan istifadənin nə qədər böyük rol oynadığını hamı bilir.
- **Tematiklik** – kiçik qovluqda müxtəlif mövzular haqqında məlumat toplamaq o qədər də asan deyil. İbtidai pillədə, birinci və ikinci siniflərdə uşaqlar üçün onu mənimsəmək və başa düşmək çətin olacaq, buna görə də lepbuklar adətən bir konkret mövzuya həsr olunur, məsələn, ibtidai pillədə bu kimi mövzular ola bilər: "Payız", "Quşlar", "Ailə", "Göbələklər", "Kosmos", "Hava" və s. Yuxarı siniflərdə (3-6-cı siniflərdə) şagirdlər mövzuları nisbətən dərindən öyrəndikdə, lepbukda daha konkret alt mətnləri əhatə etmək mümkündür, məsələn, "Payız fəsli", "Köçəri quşlar", "Ailə bayramları", "Günəş Sisteminin Planetləri", "Hava dəyişməsi" və s.

Lepbukların istifadə məqsədləri də müxtəlifdir. Bu, həm layihənin həyata keçirilmə prosesində öyrənilən materialın möhkəmləndirilməsi, həm də məlumatların toplanması və sistemləşdirilməsinin öyrənilməsi, yaradıcılıq və yaradıcılığın inkişafı, məhsula qayğıkeş münasibət, qrup işi zamanı ünsiyyət bacarıqlarının inkişafı və başqalarının əməyinə hörmət ola bilər. Lepbuk vasitəsi ilə şagirdin yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, motivasiyasının yüksəldilməsi, yenilikləri anlamağa, öyrənməyə çalışması da çox vacibdir.

Şagirdlər kompleks tapşırıq üzərində işləyərkən, lepbuklardan mənbə kimi istifadə edə bilər (məsələn, lepbukun hər bir xanasında qiymətləndirmə indikatorlarının birinə uyğun material saxlamaq) və ya onu kompleks tapşırığın son məhsulu kimi hazırlaya bilərlər.

Təyinatına görə əyləncəli (oyuncaq), təlim, təbrik, bioqrafik və s. lepbuklar ola bilər.

Əyləncəli (oyuncaq) lepbuk qrup və ya müstəqil oyun üçün nəzərdə tutulub, buna görə də əsas diqqət əyləncəyə, məlumatın asan qavranılmasına yönəldilməlidir. Bu tip lepbukda hərəkətli oyun elementləri (pəncərələr, dairələr, açılan ciblər) ilə yanaşı, "Təxmin et, mən kiməm?", "Nə fikirləşdim" və sairə kimi məntiqi oyunlar üçün kartlar əlavə etmək olar.

Təlim lepbuku mütəşəkkil təlim fəaliyyəti və fərdi iş üçün qeyri-adi bir vasitədir. Bu tip lepbukda təkcə maarifləndirici oyunlar, məlumat kartları, atalar sözləri, statistik materiallar, tematik fotoşəkillər və xəritələr deyil, həm də digər maraqlı faktlar, suallar və s. də var.

**Coğrafi məzmunlu lepbuklar**

Beləliklə, əminliklə demək olar ki, lepbuk sistemləşdirilmiş və müxtəlif məlumatları özündə cəmləşdirən tematik interaktiv qovluqdur (kitab).







## RAFT METODU

RAFT metodu müəyyən bir mövzu haqqında yazılı mətnlər yaratmaq məqsədi daşıyır. Yaradıcılıq məhsulu janr və dizayn baxımından fərqli ola bilər. Bu metod şagirdlərə mövzuya müxtəlif bucaqdan, nöqteyi-nəzərdən baxmağı öyrədir, onlarda yazı bacarıqlarını inkişaf etdirir. Bu, tənqidi təfəkkürün tədrisi yollarından biridir və şagirdlərə obyektləri və məzmunu təhlil etməyə, öz nəticələrini və qiymətləndirmələrini formalaşdırmağa kömək edən düşüncə sistemini qurur.

RAFT növbəti cədvəldə açıqlanır:

| R – ROL | A – AUDİTORİYA | F – FORMA | T – MÖVZU |
|---|---|---|---|
| Rolun müəyyən edilməsi | Verilən mətn kimin üçün nəzərdə tutulub | Janr və nəql formasını seçmək | Mövzunu və əsas ideyaları seçmək, mətni müəyyən etmək |

RAFT metodundan istifadə edərkən müəllim mövzu seçməlidir. Dərsə başlamazdan öncə cədvəl hazırlamalısınız, eləcə də onu lövhəyə çəkə bilərsiniz. Qeyd etmək lazımdır ki, cədvəlin müzakirəsi zamanı müəllim bütün fikirləri qrafikdə qeyd etməlidir ki, onlar bütün dərs boyu şagirdlərə görünsün, çünki bu, təhlil və qiymətləndirmə baxımından onlara kömək edəcəkdir.

Tənqidi təfəkkürün tədrisinin strukturuna və metodlarına görə, RAFT metodunun bir neçə mərhələsi var.

**Çağırış mərhələsi:** bu mərhələdə əsas məsələ şagirdləri aktivləşdirmək, onları həvəsləndirməkdir. Ən çox maraqlandıran və bütün şagirdləri cəlb edəcək metodları seçmək ən optimaldır, məsələn, assosiativ xəritənin və beyin həmləsinin istifadəsi.

Cədvəldə 4-5-ci mövqe qeyd olunur:

İkinci sütunda bu mətnin kimin üçün nəzərdə tutulduğu insanları, insan qruplarını, təşkilatları yazın. Auditoriya mövzuya uyğun olaraq müəyyən edilir: əhali, valideynlər, orta məktəb şagirdləri, ibtidai sinif şagirdləri, hökumət və ya beynəlxalq təşkilatın nümayəndələri, kənd təsərrüfatı sahəsində çalışanlar və s.

Növbəti qrafada sosial rollarla və ehtimal olunan oxucularla əlaqəli mümkün formalar yazılır. Bu, məktub, kitabça, poster və s. ola bilər. Sonuncu qrafa mətnin əsas fikirlərini əks etdirir.

Müəllim doldurulmuş cədvəli oxuyur. Rollar iştirakçılar arasında bölüşdürülür və mətnin yazılmasına başlanır. İş həm fərdi, həm də qrup şəklində həyata keçirilə bilər. Şagirdlərə hissləri və duyğuları çatdırmağın nə qədər vacib olduğunu izah etmək lazımdır, eyni zamanda xarakterin, obyektin, hadisənin, yəni "mövzunun qəhrəmanının" düşə biləcəyi şərtləri nəzərə almalıdırlar. İş qrup işi ola bilər. Kiçik qruplara üstünlük verilir. Şagirdlər öz işlərini təqdim edirlər.

**Dərketmə mərhələsinə** dərslik və ya əlavə materialla tanışlıq daxildir. Bu mərhələdə şagirdlər yeni məlumatlar alır, qeydlər aparırlar.

**Refleksiya mərhələsi** anlama və təhlili əhatə edir. Bu mərhələdə şagirdlər yeni məlumatlar alır, əvvəllər məlum olan faktları və yeni məlumatları müzakirə edir və müqayisə edirlər. Daha yaxşı effekt əldə etmək üçün verilmiş mövzuda vizual materialdan (fotoşəkillər, slaydlar, şəkillər) istifadə etmək tövsiyə olunur. Bu da müzakirə zamanı əldə edilmiş biliklərin möhkəmləndirilməsinə və obrazın formalaşmasına kömək edir.

Bu strategiya həm də improvizasiya, ünsiyyət, yaradıcı və tənqidi təfəkkürün inkişafına töhfə verməklə yanaşı, təqdimatın mənasını və spesifikliyini dərk etməyə imkan verir.

## QAR METODU (QUESTION-ANSWER-RELATIONSHIP)
## SUAL-CAVAB-QARŞILIQLI ƏLAQƏ

QAR metodunun müəllifi Tefi Rafaeliyadır – QAR-ın strukturu şagirdə problemi dərk etmək, təhlil etmək və qiymətləndirmək prosesində kömək edir. Müxtəlif növ sualların köməyi ilə şagirdlər öyrənirlər ki, düzgün cavab yalnız məlumatın oxunmasını deyil, həm də təhlil və şərh tələb edə bilər. Onlar öz yanaşmalarını, fikirlərini ifadə edir, oxuduqları məlumat ətrafında təcrübədən istifadə edir və faktı və ya hadisəni qiymətləndirirlər.

Qrafik məlumatları və ya mətni əhatə edən oxu kompleks, hərtərəfli prosesi əhatə edir və bu da oxunulanı başa düşməyi tələb edir. Bunun necə təhlil oluna biləcəyini və cavabın necə tərtib oluna biləcəyini müəyyən edir.

Suallar 4 qrupa bölünür: "birbaşa mətndə", "düşün və axtar", "müəllif və sən", "sən özün".

**QAR metodu oxunulanın dərk edilmə səviyyəsini yaxşılaşdırır:**

- şagirdə sual verməyi və cavab vermək yollarını öyrədir;
- şagirdə mətni oxuduqdan sonra da onun üzərində düşünməyə kömək edir;
- tənqidi və yaradıcılıq bacarıqların inkişafına dəstək verir və oxucuları daha yüksək, daha dərin düşünməyə sövq edir.

Ümumi çərçivə:

| MƏHZ BURADA VƏ YA BİRBAŞA MƏTNDƏ<br>**İzahat:**<br>Suala cavab vermək üçün məlumat qrafik təşkilatçılarda və mətndə aydın şəkildə təqdim olunur. Bunlar birbaşa suallardır, cavabları mətndə tapa bilərsiniz. Şagirdlər yalnız qrafik təsviri və ya mətni oxumalı və düzgün cavabları tapmaq üçün verilən məlumatlardan istifadə etməlidirlər. | MÜƏLLİF VƏ SƏN<br>**İzahat:**<br>Cavab birbaşa qrafik təşkilatçılarda və mətndə deyil. Mövzu ilə bağlı artıq bildiyiniz məlumatlardan istifadə edə bilərsiniz. Suala cavab vermək üçün öz biliklərinizdən və müəllifin məlumatlarından istifadə edin. Cavab yalnız məlumatdan istifadə etməyi deyil, həm də şərh etməyi tələb edir. |
|---|---|
| FİKİRLƏŞ VƏ AXTAR<br>**İzahat:**<br>Cavab qrafiklərdə və mətndədir, lakin siz çoxsaylı məlumatlara, amillərə diqqət yetirməli, düzgün cavab vermək üçün müxtəlif qrafik elementləri birləşdirməlisiniz. Səbəb və nəticəni təyin etməlisiniz. Düşünün və müxtəlif ünsürlər axtarın.<br>Olinin təhlili | SƏNİN ÖZÜN (MÜSTƏQİL)<br>**İzahat:**<br>Cavab qrafik təşkilatçılarda və mətndə deyil.<br>Artıq bildiyiniz mövzu haqqında mövcud məlumatların köməyi ilə və ya təcrübəniz əsasında cavab verə bilərsiniz. Qrafik və mətn adətən suala konkret və aydın cavab verməyə kömək edəcək. |

**Mətndə bilavasitə** aşağı təfəkkür səviyyəli suallar növü eksplisit (faktiki) məlumatların axtarışına xidmət edir, yüksək səviyyəli sualların növləri isə implisit (yəni mənasına varmağa və anlamağa yönəlmiş) məlumatların axtarışını nəzərdə tutur. İmplisit suallar mətndə olan məlumatların başa düşülməsini, personajların xarakterlərinin tanınmasını, problemlərin müəyyənləşdirilməsini, onların həlli yollarının axtarışını, əsərin mahiyyətini, qiymətləndirməsini və digər amilləri təmin edir. **Düşünün və axtarın, müəllif və sən, sənin özün** də implisit fəaliyyətlərdir.

## PRES DÜSTURU – EFFEKTİV TƏLİM PROSESİ ÜÇÜN

PRES düsturundan (mövqe – səbəb və ya izahat – tərif və ya nümunə – ümumiləşdirmə) öyrənilən materialı möhkəmləndirmək, bilikləri sistemləşdirmək və qrup müzakirələrini təşkil etmək üçün istifadə olunur.

Bu interaktiv metod tədris materialının biliyinə nəzarət etmək üçün effektiv üsuldur. Onun müəllifi Cənubi Afrikalı hüquqşünas professor Devid Makkoid-Meysondur.

Bu düsturun istifadəsi şagirdlərə nitqlərini təşkil etməyə kömək edəcək, çünki bu, sözün təşkilinin ən asan yoludur və bu, şagirdlərimizə danışıq və yazı prosesində böyük köməklik göstərəcək.

Onun komponentləri təhsil problemini təhlil etməyə və üzərində işləməyə, əhatə olunan mövzuları gücləndirməyə imkan verir. Təsadüfi, intuitiv cavabların tez-tez verildiyi yoxlama testi formasından fərqli olaraq, bu düstur şagirdlərin biliklərindəki nöqsanları daha aydın üzə çıxaracaq.

Bu texnika müzakirə üçün əla vasitə ola bilər. Bizə qısa və əsaslandırılmış nəticə çıxarmaq üçün imkan verir və bu da şagirdləri maraqlandırmağa və onları müzakirəyə cəlb etməyə gətirib çıxarır.

PRES düsturunun strukturu bu abbreviaturanın şifrələnməsini təqdim edən 4 mühüm komponentdən ibarətdir. O, mətnin quruluşunun zəruri elementidir.

P – mövqe – verilmiş problemə münasibət bildirərək öz fikrini bildirmək lazımdır. Bunun üçün aşağıdakı

düsturlardan istifadə etmək olar: “Mən inanıram ki...”, “Məncə, bu problem diqqətə layiqdir/diqqətə layiq deyil”, “Razıyam...”; “Mən düşünürəm ki...”);

R – əsaslandırma (yalnız öz mövqeyini açıqlamır, həm də öz mövqeyini əsaslandırır) – burada fikirlərini sübut etmək üçün bütün mümkün arqumentləri təqdim etməlidir. Cavab əsaslandırılmalıdır. Öyrənilən anlayışlardan istifadə edərək, söhbət dərs mövzusundan getməlidir. Bu blokda əsas sual niyə belə düşündüyünüzdür? Bu isə o deməkdir ki, aşağıdakı sözlərlə başlanmalıdır: “Ona görə ki...”; “Çünki...” və ya “Bundan sonra.....”.

E – nümunə (öz mövqeyinin mahiyyətini izah edərkən konkret misallardan istifadə edir) – onların sözlərinin başa düşülməsinin aydınlığı və təsdiqi üçün faktlara istinad etmək lazımdır. Bu bənd şagirdin təcrübədə öz mövqeyinin düzgünlüyünü müəyyən etmək bacarığını göstərir. Həm öz təcrübəsindən, eləcə də müxtəlif intizamlardan əldə etdiyi biliyi və sosial araşdırmaların nəticələrini istifadə edə bilər. Əsas odur ki, inandırıcı olsun. Bu mərhələdə belə ifadələrdən istifadə edilir: “məsələn...”, “Bunu misalla sübut edə bilərəm...”; “Bunu təsdiqləmək üçün deyə bilərəm ki...”.

S – nəticə-xülasə (yekun) – bu blokun yekunudur. Bu, adı çəkilən mövqeyi təsdiq edəcək nəticələrdən ibarətdir. Ondakı cümlələr belə başlaya bilər: “Bu yolla..”, “Belə ki...”, “Beləliklə....” , “Yuxarıda deyilənlərə əsasən, belə qənaətə gəlirəm ki...”; “Buna əsaslanaraq belə qənaətə gəlirəm ki...”).

PRES-i suallara uyğunlaşdıra bilərik: Nə? (P – mövqe), Nə üçün? (R – əsaslandırma səbəbi), Necə? (E – Nümunə – İzah) və What If / / Nə olacaq, əgər... (Ümumiləşdirmə / Cümlə / Nəticə). Bu texnikanın dəyəri ondan ibarətdir ki, o, şagirdlərə problemlə bağlı öz mövqeyini qısa və tam ifadə etməyə imkan verir.

# 5. XÜSUSİ TƏDRİSƏ EHTİYACI OLAN ŞAGİRLƏRİN DƏRS PROSESİNƏ QOŞULMASI

Sinifdə xüsusi tədrisə ehtiyacı olan şagirdlərin olduğu halda, müəllimin ən əsas məsələsi bütün şagirdlərin bərabər səviyyədə dərsə qoşulmasını təmin etmək və hər bir şagirdə məqsədəuyğun şəkildə bilik verməkdir. Fərqli şagirdlərlə müxtəlif strategiyalar və plan üzərində işləməsinə baxmayaraq, müəllim bunu bacarmalıdır.

Məsələn, birinci sinif şagirdləri üçün müəllimin məqsədi lövhədən sadə cümlələri köçürmək bacarığını inkişaf etdirməsi ola bilər; onların sinif yoldaşı, xüsusi təhsil ehtiyacı olan şagird üçün qarşıya qoyulan məqsəd isə, yazını qabaqlayan fiqurları çəkmək bacarığının inkişafı olmalıdır. Müəllimin sinif şagirdləri üçün məqsədə uyğun fəaliyyət planlamasına icazə verilmir – yazı taxtasına cümlələr yazsın, şagirdlər bunu dəftərə yazsınlar, xüsusi təhsilə ehtiyacı olan şagird isə boş otursun və heç bir yazı fəaliyyətinə qoşulmasın. Eyni zamanda, müəllim xüsusi təhsil ehtiyacı olan şagirdə həndəsi fiqurları rəngləməyi və ya çəkməyi tapşırsa, düzgün olardı. Üstəlik, digər şagirdlər yazarkən, müəllim onun yanında qala bilər və xüsusi təhsil ehtiyacı olan şagirdi tapşırığı yerinə yetirərkən həvəsləndirə bilər.

Müəllim çalışmalıdır ki, xüsusi təhsil ehtiyacı olan şagird üçün seçilmiş fəaliyyətlər dərsin kontekstindən və dərsin mövzusundan kənarda qalmasın, amma digər şagirdlərin məqsədlərindən tamamilə fərqli məqsədə qulluq edə bilər. Müəllimin xüsusi təhsil ehtiyacı olan şagirdin qabiliyyət və məqsədlərini nəzərə alaraq, hər bir fəaliyyəti müəyyən etməsi və əsas prinsipi unutmaması vacibdir – müxtəlif məqsədlərdən asılı olmayaraq, o, bütün şagirdlərinin təlim prosesində və fəaliyyətlərdə bərabər iştirakını təmin etməlidir.

Əgər müəllim xüsusi təhsilə ehtiyacı olan şagirdin qabiliyyət və məqsədlərini nəzərə almağı bacarsa və dərs prosesini elə planlaşdıra bilsə ki, xüsusi təhsilə ehtiyacı olan şagird digər sinif yoldaşları ilə eyni vaxtda eyni dərs fəaliyyətinə cəlb edilsin, bu, çox yaxşı olardı. Məsələn, müəllimin müəyyən bir gün üçün dərs cədvəlində şagirdlərin şifahi sorğusu nəzərdə tutulursa, o, xüsusi təhsilə ehtiyacı olan şagirdi də şifahi sorğu prosesinə daxil etməlidir (lakin buna uyğun metodu seçməklə); əgər dərsin qalan hissəsi sinifdə yazı fəaliyyəti və ya çalışmaların yerinə yetirilməsinə aiddirsə, əvvəlki nümunədə müəyyən edildiyi kimi, başqaları yazarkən onun rəsm çəkməsi mümkün olsa da, xüsusi təhsilə ehtiyacı olan şagird də bu işi görməlidir.

Mövcud reallıqdan irəli gələrək, dərs prosesini bu cür planlaşdırmaq heç də həmişə mümkün olmur və çox vaxt xüsusi təhsilə ehtiyacı olan şagirdin yalnız sinif yoldaşları yazı yazarkən şifahi şəkildə soruşulması əsaslandırılır. Bu yolla müəllim həmin şagirdə daha çox diqqət yetirə bilər və ya əksinə, başqalarına şifahi sual vermək vaxtı gələndə şagirdin rəsm çəkməsi özünü doğruldur.

Bu zaman ən başlıcası odur ki, müəllim əvvəlcədən seçdiyi strategiya üzərində diqqətlə düşünsün və şagirdin imkanlarını, sinfin strukturunu və dərs prosesini nəzərə alsın. Müəllimin xüsusi təhsilə ehtiyacı olan şagirdin sinif yoldaşları fəal olduğu müddətdə dərsdə boş oturmasına icazə verməməsi vacibdir.

Bəzi hallarda şagirdə sinif fəaliyyətindən tamamilə fərqli bir şey təklif etmək lazım olur. Əsas odur ki, hər bir halda şagird üçün maraqlı fəaliyyətlər seçilsin və digər şagirdlərin həddindən artıq marağı təlim prosesini pozmasın. Bu cür fəaliyyətlərdən istifadə edərkən, əsas odur ki, müəllim bunları şagirdə tapşırıq şəklində versin və tapşırığın yerinə yetirilməsinə dərsin gedişində nəzarət etsin.

**Fərdi dərs planı**

Şagird üçün fərdi tədris planının hazırlanması zərurəti haqqında məsələ, əgər şagirdin xüsusi təhsil ehtiyacı varsa və mütəmadi olaraq tədris və qiymətləndirməyə fərqli yanaşmalar tələb olunursa, ortaya çıxacaq. Yəni xüsusi təhsilə ehtiyac müşahidə olunmursa, lakin müəyyən səbəblərə görə (uzun müddətli xəstəlik) müəyyən bir müddət üçün xüsusi təhsil proqramına ehtiyacı var.

Fərdi tədris planı xüsusi təhsil ehtiyacı olan şagirdi təhsil və məktəb fəaliyyətlərinə daxil etmək imkanıdır. Fərdi təhsil planı bizə şagirdin məktəb məkanında keçirəcəyi və ya məktəbdə və ya evdə təlim fəaliyyətlərinə həsr edəcəyi vaxtın hər hissəsini planlaşdırmağa imkan verir, diqqəti şagirdə yönəldir. Fərdi tədris planı şagirdin son illərdə tez-tez olan dərslərə mexaniki şəkildə getməməsi üçün rəhbər sənəddir.

Qeyd etmək lazımdır ki, fərdi dərs planı şagirdin təkcə sinifdə və tədris fəaliyyətində iştirakını deyil, həm də şagirdin məktəbdə etməli olduğu və heç də az əhəmiyyət kəsb etməyən bütün qeyri-akademik fəaliyyətləri əhatə edir.

Fərdi tədris planı, şagirdin ehtiyacları, onun güclü və zəif tərəfləri nəzərə alınmaqla, fərdi təhsil məqsədlərinin müəyyən edildiyi bir sənəddir.  Fərdi tədris planında müəyyən edilmiş təlim məqsədləri şagirdin pilləsinə uyğun təlim proqramının məqsədlərindən fərqlənə bilər. Müvafiq olaraq, fərdi tədris planında qarşıya qoyulan təhsil məqsədlərinin həyata keçirilməsi konkret tədris strategiyalarının və proseslərinin müəyyən edilməsini nəzərdə tutur.

Bu prosesin ümumi təhsil-təlim prosesindən ayrı və digər şagirdlərdən təcrid olunmuş şəkildə (yalnız resurs otağında) baş verməməsi vacibdir. Əksinə, fərdi plan şagirdin sosiallaşmasına və sinifə inteqrasiyasına daha çox dəstək verməlidir.

Fərdi tədris planı müəllimə şagirdin nailiyyətlərinə nəzarət etməyə kömək edir və şagird haqqında məlumatı müxtəlif insanlarla bölüşmək üsuludur. Fərdi tədris planı mütəmadi olaraq, əvvəlcədən müəyyən edilmiş vaxtlarda yenilənir və şagirdin səmərəli təhsilini təmin etmək üçün zəruri olan dəyişiklikləri təsvir edir. Tədris proqramı şagirdin qiymətləndirməsinin nəticələri və onun təlim nailiyyətləri əsasında yenilənir.

Fərdi tədris planı müəllimin, məktəb rəhbərliyinin, valideynlərin və şagirdin özünün qeyd olunan məktəb çərçivəsində və mövcud imkanlar nəzərə alınmaqla təqdim oluna bilən xüsusi təhsil proqramı və xidmətinin yaradılması barədə razılığını əks etdirir.

Belə ki, fərdi tədris planı konkret bir şagird üçün lazım olan dəstəyin təsvir olunduğu və əsaslandırıldığı bir dərslikdir, şagirdlə işləyən bütün müəllimlər və mütəxəssislər tərəfindən paylaşılmalı və əməl edilməlidir. Bu, müntəzəm dəyişikliklər tələb edən işçi sənəddir. Müəyyən bir müddətdə şagirdin qabiliyyətinə və nailiyyətlərinə uyğun olaraq ona yenidən baxılmalı/yenidən qiymətləndirilməli və lazımi dəyişikliklər müəyyən edilməlidir.

## COĞRAFİYADA FƏRDİ DƏRS PLANINA AİD NÜMUNƏ

**Şagirdin biliyinin aktual səviyyəsinin təsviri**

| QISAMÜDDƏTLİ MƏQSƏD/MƏQSƏDLƏR | | ŞAGİRDİN NAİLİYYƏTİ |
|---|---|---|
| **Əsas təsəvvürlər** | **Təlim nəticələri** | |
| **Anlayış: coğrafi təbəqə** | | Şagird litosfer, atmosfer, hidrosfer və biosferin tərkib hissələrini fərqləndirir. |
| • Coğrafi təbəqə bir sıra qanunauyğunluqlarla xarakterizə olunan geosferlərdən (litosfer, atmosfer, hidrosfer, biosfer) ibarətdir;<br>• İnsanların sayəsində digər geosferlərə təsir edən noosfer (zəka sferası) əmələ gəlir. | Şagird müxtəlif ölkələrin ərazisi, atmosferi, hidrosferi, biosferi və noosferi ilə tanış olur. | |
| **Anlayış: Əhali və təsərrüfat** | | Şagird, müxtəlif ölkələrin əhalisinin və milli tərkibinin müxtəlif olduğunu bilir. |
| • Təbii mühit əhaliyə və təsərrüfata təsir göstərir. Müxtəlif ölkələrdə coğrafi əmək bölgüsünü müəyyən edən təsərrüfatın bu və ya digər sahəsi aparıcıdır;<br>• Əhalinin və təsərrüfatın strukturu, bölgüsü və yerləşməsi zaman və məkan baxımından dəyişir;<br>• Dövlət ölkədə cərəyan edən sosial-iqtisadi proseslərə təsir göstərir ki, bu da onun inkişaf səviyyəsində özünü göstərir. | Şagird əhalinin fəaliyyəti haqqında bilir. Müxtəlif ölkələrin əhalisinin göstəriilərini tanıyır. | |
| **Anlayış: davamlı inkişaf** | | Şagird öz hərəkətlərinin ekoloji problemlər yaradacağını bilir, ətraf mühitin qayğısına qalır və onu qoruyur. |
| • Yerli hərəkətlər qlobal nəticələrə səbəb ola bilər;<br>• Davamlı İnkişaf Məqsədlərinə (sosial, iqtisadi, ekoloji və rifah) cavab vermək gələcək nəsillərin firavanlığı üçün vacibdir. | Şagird coğrafi mühitin qorunmasının vacib olduğunu bilir. | |

**Uzunmüddətli məqsədlər**

| ŞAGİRD DƏRK ETMƏLİDİR Kİ: | ŞAGİRD BACARMALIDIR: |
|---|---|
| **Anlayış: Coğrafi təbəqə** | |
| İnsanların sayəsində digər geosferlərə təsir edən noosfer (zəka sferası) əmələ gəlir. | Şagird təbii və antropogen landşaftları bir-birindən fərqləndirir. |
| **Anlayış: Əhali və təsərrüfat** | |
| Təbii mühit əhaliyə və təsərrüfata təsir göstərir. Müxtəlif ölkələrdə coğrafi əmək bölgüsünü müəyyən edən təsərrüfatın bu və ya digər sahəsi aparıcıdır; | Şagird müxtəlif ölkələrin əhalisinin kənd təsərrüfatının sahələrini fərqləndirir. Məsələn, bilir ki, kənd yerlərində insanlar əsasən kənd təsərrüfatında çalışırlar. |
| **Anlayış: Davamlı inkişaf** | |
| Yerli hərəkətlər qlobal nəticələrə səbəb ola bilər. | Şagird xoşbəxt yaşamaq üçün ətraf mühiti niyə və necə qorumaq lazım olduğunu başa düşür. |

**Kompleks tapşırıq, qısamüddətli məqsədlər, fəaliyyətlər**

| **MÖVZU/İSTİQAMƏT:**<br>**Kompleks tapşırığın həyata keçirilmə dövrü:** | | |
|---|---|---|
| **UZUNMÜDDƏTLİ MƏQSƏDLƏR** | **MƏSƏLƏ/ MƏSƏLƏLƏR** | **KOMPLEKS TAPŞIRIQ QISAMÜDDƏTLİ MƏQSƏDLƏR** |
| **Coğrafi təbəqə**<br><br>1. Coğrafi təbəqə bir-biri ilə əlaqəli və bir-birinə nüfuz edən və qanunauyğunluqları ilə xarakterizə olunan geosferlərdən ibarətdir; bir coğrafi ərazidə dəyişiklik digər ərazilərə də təsir edir;<br><br>2. İnsanların sayəsində noosfer (zəka sferası) formalaşır ki, bu da digər geosferlərə də təsir edir. | **Məsələ/altməsələlər Tupunqato buzlağı – dünyanın ən kövrək zonalarından biri (buzlaqların əriməsi).**<br><br>**Altməsələlər:**<br>dağ buzlaqları;<br>dağ buzlaqlarının əriməsi;<br>antropogen fəaliyyəti;<br>istilikxana qazları;<br>qlasiologiya;<br>meteorologiya. | Təsəvvür edin ki, siz “Dağ buzlaqlarının müdafiəçisi” təşkilatının üzvüsünüz və məqsədiniz buzlaqların əriməsi prosesində cəmiyyətə öz rollarının əhəmiyyətini dərk etdirməkdir. Məsələniz Tupunqato zirvəsini – Yer kürəsinin ən kövrək ərazilərindən birini araşdırmaq; oradakı ekoloji şəraitin necə dəyişdiyini və dağ buzlaqlarının əriməsi ilə insan fəaliyyəti arasında hansı əlaqənin olduğunu müəyyən etməkdir.<br>İctimaiyyəti məlumatlandırmaq üçün bloq yaradın.<br><br>**Bloqda xüsusilə göstərməlisən:**<br>• qlobal iqlim dəyişikliyi Tupunqato dağına və planetimizin digər buzlaqlarına necə təsir edir **(coğrafi təbəqə, əs.təs.1);**<br>• Tupunqato dağ buzlağının əriməsi nəticəsində yerli əhalinin gündəlik həyatı və həyat səviyyəsi necə dəyişəcək **(əhali və təsərrüfat, əs.təs.1,2);**<br>• Tupunqato dağ buzlağı da daxil olmaqla, buzlaqların əriməsinin dayandırılması nə üçün vacibdir və bu hadisə dağ rayonlarının davamlı inkişafına necə təsir edəcək **(davamlı inkişaf, əs.təs.1,2)**<br><br>**Qısamüddətli məqsədlər:**<br>1. Şagird fiziki xüsusiyyətlərinə əsasən buzlaqı təsvir etməyi bacarmalıdır;<br>2. Şagird buzlaqların əriməsinin dayandırılmasının vacibliyini başa düşməlidir. |

**Şagirdin irəliləyişinin qiymətləndirilməsi**

| NƏYİ QİYMƏTLƏNDİRİRƏM? | | |
|---|---|---|
| **SOLO TAKSONOMİYASININ SƏVİYYƏSİ** | **ŞAGİRDİN İCRASININ TƏSVİRİ** | **İNKİŞAFETDİRİCİ ƏKS ƏLAQƏ** |
| • Mücərrəd<br>• Nisbi<br>• Multistruktur<br>• Unistruktur<br>• Prestruktur | Şagird buzlağı onun xarici xüsusiyyətlərinə görə təsvir edə bilir. Buzlaqların əriməsi prosesini, səbəblərini və təhlükələrini təsvir edə və danışa bilir. Bununla belə, onlar bir-biri ilə əlaqələndirə bilmir. | Şagirdə buzlaqların əriməsi və onun fəsadları haqqında videoçarx göstərirəm və ondan filmdə danışılan hekayəni təqdim olunan süjetlərə uyğun çəkməsini xahiş edirəm. Sonra buzlaqların əriməsinin səbəblərini və təhlükələrini oxlarla əlaqələndirməyi xahiş edirəm. |

# 6. TEMATİK MATRİSLƏR

Həm Şagird, eləcə də Müəllim kitabında sizə demək olar ki, hər növ kompleks tapşırığı təklif edirik, amma müəllimin özü qərara alır ki, sinfin ehtiyacından və şagirdlərin maraqlarından irəli gələrək, bunlardan hansılarını həyata keçirsin. Eləcə də kompleks tapşırığın necə və hansı ardıcıllıqla işlənilməsinə dair tövsiyələri təklif edirik. Tematik matrislərdə konkret kompleks tapşırıq artıq işlənilmə mərhələlərinə əsasən təqdim edilir.

**Kompleks tapşırığın işlənilmə mərhələləri (fəaliyyətlər, resurslar):**

**1-ci mərhələ.** Kompleks tapşırığın məğzi ilə tanışlıq (hansı məsələyə aiddir, kompleks tapşırığın prezentasiyası hansı forma ilə keçiriləcəkdir)

**Başlıca sual:** Öyrənilməsi məsələ nəyi nəzərdə tutur? Hansı yaradıcılıq məhsulunun vasitəsilə təsdiq edə bilərəm ki, bu məsələ ilə bağlı nəyi öyrəndim?

1. Kompleks tapşırığın şərti ilə tanış edirəm. Diqqəti yönəldirəm ki, kompleks tapşırıq üzərində iş nəticəsində konkret olaraq hansı məhsul yaradılmalıdır;
2. İzah edirəm ki, onların hazırladıqları posterdə nəyi göstərməlidirlər. Diqqəti yönəldirəm ki, bunlar qiymətləndirmə kriteriləridir;
3. Tanış edirəm ki, tapşırıq üzərində iş zamanı coğrafi tədqiqatın mərhələləri nəyi bildirir və coğrafi tədqiqatın nəyi nəzərdə tutduğunu izah edirəm;
4. Xahiş edirəm ki, tapşırığın şərti və meyarlarından irəli gələrək suallarının və ya onlar üçün qaranlıq qalan məsələlərin olduğunu fikirləşsinlər və bir də göstərişlər verirəm.

**2-ci mərhələ.** Kompleks tapşırıq üzərində iş. Hədəf anlayışı/anlayışları ilə bağlı bərqərar olmuş təsəvvürlərin üzərində iş.

**Əsas suallar:** Verilən tapşırığı necə yerinə yetirim?

**1-ci fəaliyyət.** Konkret fəaliyyət yazılır. Məs., videofilmə baxmaq və müzakirə etmək və s.

**2-ci fəaliyyət.** Konkret fəaliyyət yazılır. Məs., mətnin və ya tematik xəritələrin analizi, səbəb-nəticə əlaqələrinin təyin edilməsi və s.

**3-cü fəaliyyət.** Konkret fəaliyyət yazılır. Məs., kompleks tapşırıqda verilən konkret məhsulun, məsələn, posterin hazırlanması.

**4-cü fəaliyyət.** Konkret fəaliyyət yazılır. Məs., kompleks tapşırığın prezentasiyası.

**Əsas sual:** kompleks tapşırıq üzərində iş nəticələrini necə təqdim edək ki, dinləyici üçün maraqlı və aydın olsun?

Şagirdlər hazır məhsulu təqdim edirlər, eləcə də kompleks tapşırıq üzərində iş zamanı keçdikləri tədqiqat mərhələləri ilə paylaşırlar ki, hansı nəticələri çıxardılar, növbəti kompleks tapşırıq üzərində iş zamanı nəzərə alacaqları hansı problemlərlə və çətinliklərlə qarşılaşdılar.

Müəllim ikinci mövzu çərçivəsində qloballaşma prosesi ilə bağlı hansısa başqa kompleks tapşırığı həyata keçirmək qərarına gələrsə, o, əlavə olaraq oxu materialı ilə tanış ola bilər (səh. 74.)

# I FƏSİL

| | | | |
|---|---|---|---|
| **SİNİF:**<br>**MÖVZUNUN ADI:**<br><br>**ƏSAS VƏSAİT:** | **XI**<br>**QLOBAL İQLİM DƏYİŞİKLİYİ**<br><br>**DƏRSLİK** | | |
| **Hədəf anlayışı** | **Məsələ 1**<br>Buzlaqların əriməsi – Tupunqato buzlağı – dünyanın ən kövrək zonası. | **Məsələ 2**<br>Qaçqınlar, məcburi köçkünlər – Teytyotanın işi. | **Məsələ 3**<br>Yaşıl iqtisadiyyat – Cənubi Koreya „Asiya pələnglərinin“ yaşıl iqtisadiyyatı. |
| **Coğrafi təbəqə** | **Altməsələ:** Tupunqato dağının buzlağı, Tupunqato dağının buzlağının əriməsi, antropogen fəaliyyətlər, istixana qazları.<br><br>**Alt anlayış:** coğrafi təbəqənin qanunauyğunluqları – coğrafi təbəqənin bütövlüyü. | **Altməsələ:** Kiribati iqlim dəyişikliyi, istilikxana qazları, daşqın.<br><br>**Alt anlayış:** noosfer – təbii təhlükələr – təbii fəlakətlər. | **Altməsələ:** Cənubi Koreyanın coğrafi yerləşməsi, Cənubi Koreyanın təbii şərtləri.<br><br>**Alt anlayış:** noosfer – antropogen landşaftlar. |
| **Əhali və təsərrüfat** | **Altməsələ:** Coğrafi mühit, əhalinin həyat səviyyəsi, əhalinin məişət həyatı.<br><br>**Alt anlayış:** Əhalinin strukturu – əhalinin həyat səviyyəsi, təsərrüfat strukturu. | **Altməsələ:** ekomiqrasiya, iqlim qaçqını, miqrasiya haqqında qanun.<br><br>**Alt anlayış:** Əhalinin strukturu – əhalinin həyat səviyyəsi. | **Altməsələ:** Cənubi Koreyanın iqtisadiyyatı, dövri iqtisadiyyat, yaşıl iş yerləri, dövlət strategiyası.<br><br>**Alt anlayış:** təsərrüfat strukturu – xidmət sahələri (dördüncü və beşinci sahələr). |
| **Davamlı inkişaf** | **Altməsələ:** Tupunqato dağ buzlaqlarının əriməsi, təbii və antropogen təhlükələr.<br><br>**Alt anlayış:** ətraf mühit – rasional təbiətdən faydalanma. | **Altməsələ:** Teytyota ailəsinin təhlükəsizliyi, iqlim qaçqını, insan hüquqları.<br><br>**Alt anlayış:** cəmiyyət – əhalinin təhlükəsizliyi və firavanlığı. | **Altməsələ:** Qlobal yaşıl iqtisadiyyatın indeksi, ətraf mühitin mühafizəsinin effektivlik indeksi.<br><br>**Alt anlayış:** cəmiyyət – əhalinin təhlükəsizliyi və firavanlığı. |
| **Kompleks tapşırıq** | **Kompleks tapşırıq 1**<br><br>Tupunqato buzlağının – dünyanın ən kövrək zonasının – aktual problemi ilə bağlı bloqun yaradılması. | **Kompleks tapşırıq 2**<br><br>İqlim qaçqınları problemlərinə dair ictimaiyyəti məlumatlandırmaq üçün Teytyota işinin müzakirəsi üçün müdafiə çıxışının hazırlanması. | **Kompleks tapşırıq 3**<br><br>Cənubi Koreya dövlətinin inkişafı prosesi haqqında araşdırma hesabatının hazırlanması. |
| **Kompleks tapşırığı yerinə yetirmək üçün Resurslar** | **Dərslik – Coğrafiya XI sinif, paraqraf 1.** –<br>Buzlaqların əriməsi | **Dərslik – Coğrafiya XI sinif, paraqraf 4. –**<br>Qaçqınlar, məcburi köçkünlər | **Dərslik – Coğrafiya XI sinif, paraqraf 5.** –<br>Yaşıl iqtisadiyyat. |

**Mövzu ilə bağlı əsas təsəvvürlər:**

- Qloballaşma prosesində ölkənin inkişafına coğrafi mövqe və təbii şərait təsir göstərir;
- Münaqişələr noosferdə dəyişikliklərə səbəb olan coğrafi mövqe və resurslarla bağlıdır;
- Təbii mühit dövlətlər arasında dinc birgəyaşayışda mühüm rol oynayır;
- Antropogen amillər təbii proseslərə təsir edir;
- Qlobal siyasi hadisələr əhalinin sosial-mədəni qloballaşması prosesini müəyyən edir;
- Mədəni qloballaşma əhalinin həyat səviyyəsinə və keyfiyyətinə təsir göstərir;
- Mədəniyyətdə qloballaşma qlobal cəmiyyətin formalaşmasına gətirib çıxarır;
- Münaqişədə iştirak edən əhalinin həyatı dəyişir ki, bu da onların dinamikasına və gündəlik həyatına təsir göstərir;
- Təbii şərait insanların həyatına və təhlükəsizliyinə təsir göstərir;
- Dövlət siyasətinin mühüm məsələlərindən biri əhalinin təhlükəsizliyinin qorunmasıdır;
- Ölkənin təbii şəraiti ilə əhalinin qarşılıqlı əlaqəsi əhalinin məlumatlılıq səviyyəsindən asılıdır;
- Mədəni qloballaşma prosesində kütləvi informasiya vasitələri mühüm rol oynayır;
- Münaqişələr əhalinin sağlamlığına və həyat keyfiyyətinə, eləcə də ətraf mühitin davamlılığına təsir edən ekoloji problemlər yaradır;
- Qlobal geosiyasi problemlərin həllində beynəlxalq əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

# Kompleks tapşırıq 1

**Mövzu –** Qlobal iqlim dəyişikliyi
**Məsələ –** Tupunqato buzlağı – Yer kürəsinin ən kövrək zonalarından biri

**Hədəf anlayışı –** coğrafi təbəqə; **Altanlayış** – coğrafi təbəqənin qanunauyğunluqları – coğrafi təbəqənin bütövlüyü;
**Altməsələ:** Tupunqato dağının buzlağı, Tupunqato dağının buzlağının əriməsi, antropogen fəaliyyətlər, istixana qazları.

**Hədəf anlayışı** – əhali və təsərrüfat; **Altanlayış** – əhalinin strukturu – əhalinin həyat səviyyəsi; təsərrüfat strukturu;
**Altməsələ:** coğrafi mühit, əhalinin həyat səviyyəsi, əhalinin məişət həyatı.

**Hədəf anlayışı** – davamlı inkişaf; **Altanlayış** – ətraf mühit – təbiətdən rasional faydalanma;
**Altməsələ:** Tupunqato dağının buzlaqlarının əriməsi, təbii və antropogen təhlükələr.

**Əsas sual** – Tupunqato Buzlağını (Dağ Buzlaqlarını) qlobal iqlim dəyişikliyinin mənfi təsirlərindən necə qorumaq barədə bloqun köməyi ilə ictimaiyyəti necə məlumatlandıra bilərəm?

**Kompleks tapşırığın şərti**



Hazırkı iqlim dəyişikliyinin başlaması ilə yanaşı, buzlaqların əriməsi də sürətlənib və bu misilsiz coğrafi obyektlər, onların təkrarsız ekosistemi böyük təhlükə altındadır. Alimlərin fikrincə, iqlim dəyişikliyinin ən yaxşı ölçüsü məhz buzlaqdır.

ABŞ-ın Milli Qar və Buz Tədqiqat Mərkəzinin məlumatlarına görə, şelf və dağ buzlaqlarının sahələri çox azalıb. Geri çəkilən buzlaqlar "keçmişdən bizə xəbər verən" izlər buraxır.

Dağlıq ərazilərin elmi tədqiqinə, onların təbiətinin qorunması ilə bağlı çətinliklərin üzə çıxarılmasına, əhalinin məişət və adət-ənənələrinin öyrənilməsinə, rekreasiya imkanlarının və sərvət ehtiyatının müəyyənləşdirilməsinə, davamlı ərazi planlaşdırılmasına və məkan tərtibatına xüsusi önəm verilir.

Təsəvvür edin ki, siz "Dağ buzlaqlarının müdafiəçisi" təşkilatının üzvüsünüz və məqsədiniz buzlaqların əriməsi prosesində cəmiyyətə öz rollarının əhəmiyyətini dərk etdirməkdir. Məsələniz Tupunqato zirvəsini – Yer kürəsinin ən kövrək ərazilərindən birini araşdırmaq; oradakı ekoloji şəraitin necə dəyişdiyini və dağ buzlaqlarının əriməsi ilə insan fəaliyyəti arasında hansı əlaqənin olduğunu müəyyən etməkdir.

İctimaiyyəti məlumatlandırmaq üçün bloq yaradın.

**Bloqda xüsusilə göstərməlisən:**

- Antropogen amilin yaratdığı qlobal iqlim dəyişikliyi Tupunqato dağına və planetimizin digər buzlaqlarına necə təsir edir **(coğrafi təbəqə, əs.təs.1);**
- Tupunqato dağ buzlağının əriməsi nəticəsində yerli əhalinin gündəlik həyatı və həyat səviyyəsi necə dəyişəcək və dövlət bu çətinliklərin öhdəsindən necə gələcək **(əhali və təsərrüfat, əs.təs. 1,2);**
- Tupunqato dağ buzlağı da daxil olmaqla, buzlaqların əriməsinin dayandırılması nə üçün vacibdir və bu hadisə dağ rayonlarının davamlı inkişafına necə təsir edəcək **(davamlı inkişaf, əs.təs.1,2).**

<table>
<tr><th>Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər<br><br>Şagird dərk etməlidir ki:</th><th>Qiymətləndirmə meyarı<br><br>Şagird bacarır:</th><th>İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:</th></tr>
<tr><td>Coğrafi təbəqə<br>1. Coğrafi təbəqə bir sıra qanunauyğunluqlarla xarakterizə olunan geosferlərdən (litosfer, atmosfer, hidrosfer, biosfer) ibarətdir;<br>2. İnsanların sayəsində digər sahələrə təsir göstərən noosfer (zəka sferası) yaranır.<br><br>Əhali və təsərrüfat<br>1. Təbii mühit əhaliyə və təsərrüfata təsir göstərir. Müxtəlif ölkədə təsərrüfatın bu və ya digər sahəsi aparıcıdır və bu da əməyin coğrafi bölgüsünə səbəb olur;<br>2. Əhali və təsərrüfat strukturu, bölgüsü və yerləşməsi vaxtda və məkanda dəyişkəndir;<br>3. Dövlət ölkədə baş verən sosial-iqtisadi proseslərə təsir göstərir və bu da onun inkişafı səviyyəsində öz əksini tapır.<br><br>Dayanıqlı inkişaf<br>1. Yerli əməllər qlobal nəticələrə gətirib çıxara bilərlər;<br>2. Dayanıqlı inkişaf məqsədlərinin (sosial, iqtisadi, ətraf mühitin mühafizəsi və abadlıq) yerinə yetirilməsi gələcək nəsillərin firavanlığı üçün vacibdir.</td><td>Coğrafi təbəqə<br>• Konkret nümunəyə əsaslanaraq, coğrafi təbəqəyə daxil olan sahələrin qarşılıqlı əlaqəsini və bütövlüyü təhlil etməyi (Əs.təs. 1);<br>• İnsan fəaliyyətinin Tupunqato buzlağı problemlərinə təsirini dərk etməyi; (əs.təs. 2).<br><br>Əhali və təsərrüfat<br>• Buzlağın əriməsi nəticəsinin səbəb olduğu dəyişikliyin təsirinin əhalinin firavanlığına təsirini qiymətləndirməyi (əs. təs. 1, 2);<br>• Tupunqato buzlağının əriməsini dayandırmaq üçün dövlət tərəfindən görülən tədbirlərin nəticələrini təhlil etməyi (əs. təs. 3).<br><br>Davamlı inkişaf<br>• Dağlıq bölgənin davamlı inkişafı və gələcək nəsillərin firavanlığı üçün Tupunqato buzlağının əriməsinin dayandırılmasının vacibliyini başa düşməyi (əs.təs. 1, 2).</td><td>• Antropogen amilin yaratdığı qlobal iqlim dəyişikliyi Tupunqato dağına və planetimizin digər buzlaqlarına necə təsir edir (coğrafi təbəqə, əs.təs.1);<br>• Tupunqato dağ buzlağının əriməsi nəticəsində yerli əhalinin gündəlik həyatı və həyat səviyyəsi necə dəyişəcək və dövlət bu çətinliklərin öhdəsindən necə gələcək (əhali və təsərrüfat, əs.təs. 1,2);<br>• Tupunqato dağ buzlağı da daxil olmaqla, buzlaqların əriməsinin dayandırılması nə üçün vacibdir və bu hadisə dağ rayonlarının davamlı inkişafına necə təsir edəcək (davamlı inkişaf, əs.təs.1,2).<br><br>.</td></tr>
</table>

## Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)

**I mərhələ – Kompleks tapşırığın şərti ilə tanışlıq**
**Resurslar/Təhlil ediləsi hallar (keyslər):**

**Dərslik – Coğrafiya XI sinif**
**Paraqraf 1. – Buzlaqların əriməsi**

1. Bloqu necə hazırlayaq – http://www.ict.tpdc.ge/video/48?ch=431
2. Proqram – earth.google.com
3. Arktikanın hesabat kartı– https://www.youtube.com/watch?v=_WbWjLUTvZM
4. 2002-2020 illərdə Antarktida buzlağının kütləsinin itirilməsi – https://www.youtube.com/watch?v=AmSovbt-5Bho
5. https://www.ge.undp.org/content/georgia/ka/home/post-2015.html – Davamlı inkişaf məqsədləri
6. Video – „Buzlaqlar" – https://www.youtube.com/watch?v=WJgpDyP9ewQ
7. Buzlaqların əriməsi ilə yanaşı itkin düşmüş alpinistlərin cəsədləri və qədim viruslar ortaya çıxır – https://1tv.ge/news/myinvarebis-dnobastan-ertad-chndeba-dakargul-aplinistta-gvamebi-da-udzvelesi-virusebi/
8. Şimal xalqları– http://mastsavlebeli.ge/?p=13628
9. Əriмənin keşiyində– https://nationalgeographic.ge/story/dnobis-sadarajoze/
10. Svanetidə Milli Buzlaqlar Parkının yaradılması planlaşdırılır – https://mtisambebi.ge/news/ecology/item/377-svanetshi- mybinvarebis-erovnuli-parkis-sheqmna-igegmeba
11. Buzlaq – Suyun təbii rezervuarı – https://helloblog.ge/story/myinvari

**Resurs 1**
**Tövsiyə olunan fəaliyyət (Resurs 1 əsasında yerinə yetirilir):**

- Bloqu necə yaratmaq olar?
- Bloq hazırlayarkən nələrə diqqət etməlisiniz?
- Bloq hazırlayarkən hansı addımlar atılmalıdır?

**Resurs 2**
**Tövsiyə olunan fəaliyyət (Resurs 2 əsasında yerinə yetirilir):**

**Google Earth proqramı sizə aşağıdakılarla tanış olmaqda kömək edəcək:**

- Tupunqato buzlağının coğrafi mövqeyi ilə;
- ondan mənbəyini götürən çaylarla;
- Buzlaq ərazisində yerləşən yaşayış məntəqələri ilə.

**Resurs 3**
**Tövsiyə olunan fəaliyyət (Resurs 3 əsasında yerinə yetirilir):**

**Arktika nümunəsinin müzakirəsi:**
- Buzlaqlar harada və niyə əriyir?
- Buzlaqların əriməsi hansı nəticələrə səbəb ola bilər?

**Resurs 4**
**Tövsiyə olunan fəaliyyət (Resurs 4 əsasında yerinə yetirilir):**

**Antarktida nümunəsinin müzakirəsi:**
- Buzlaqlar harada və niyə əriyir?
- Buzlaqların əriməsi hansı nəticələrə səbəb ola bilər?

**Resurs 5**
**Tövsiyə olunan fəaliyyət (resurs 5 əsasında yerinə yetirilir):**

- Davamlı inkişaf məqsədləri haqqında öyrənməyə kömək edəcək;
- Davamlı inkişaf məqsədlərinin yerinə yetirilməsi prosesində insanların və dövlətin rolu nədən ibarətdir?

**Resurs 6 – videoçarx**
**Tövsiyə olunan fəaliyyət (resurs 6 əsasında yerinə yetirilir):**

**Bu videoçarxın müzakirəsi sizə növbətiləri öyrənməyə kömək edəcək:**
- Buzlaqlar necə əmələ gəlir?
- Buzlaqlar geosferlərə necə təsir edir?
- Qlobal iqlim dəyişikliyinin buzlaqların əriməsi prosesinə təsiri necədir?

**Resurs 7 və 8**
**Tövsiyə olunan fəaliyyət (resurs 7 və 8 əsasında yerinə yetirilir):**
- Buzlaqların əriməsi hansı nəticələrə səbəb ola bilər?
- Dağlarda buzlaqlar əriyirmi?
- Şimal xalqları necə yaşayır?
- Dağ buzlaqlarının əriməsinin sürətlənməsinin əhalinin həyatına təsiri necə olacaq?

**Resurslar 9 və 10**
**Tövsiyə olunan fəaliyyət (Resurs 9 və 10 əsasında yerinə yetirilir):**
- Buzlaqları kim və necə qoruyur?
- Buzlaqları necə və nə üçün qorumalıyıq?

**Kompleks tapşırığın şərtinin dərk edilməsinə yönəlmiş suallar:**
**Altməsələ – Qlobal iqlim dəyişikliyi və buzlaqların əriməsi arasında əlaqə**
- Dağ buzlaqları nə üçün əriyir?
- Buzlaqların əriməsi istixana qazlarının konsentrasiyasına hansı təsir göstərir?

**Altməsələ – təbii mühit və əhalinin həyat səviyyəsi arasında qarşılıqlı asılılıq**
- Təbii mühitdə baş verən dəyişikliklər əhalinin həyat səviyyəsinə necə təsir edir?
- Dövlət əhalinin təhlükəsizliyini necə qorumalıdır?

**Altməsələlər: Əhalinin hüquqlarının müdafiəsi əhalinin təhlükəsizliyini və həyat səviyyəsini müəyyən edir.**
- Dağ buzlaqlarının əriməsi nəticəsində yaranan təbii və antropogen təhlükələrdən əhalini necə qorumaq olar?

**Kompleks tapşırıq**
- Öz sözlərinizlə formalaşdırın ki, bir neçə dərs üzərində işləməli olacağınız bu gün verilən tapşırıq nəyə aiddir?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisinizmi?

**II mərhələ – kompleks tapşırıq üzərində iş**
**Hədəf anlayışı – coğrafi təbəqə**
**Altanlayış** – coğrafi təbəqənin qanunauyğunluqları, coğrafi təbəqənin bütövlüyü.
**Altməsələ** – dağ buzlaqları, dağ buzlaqlarının əriməsi, antropogen fəaliyyət, istixana qazları, qlasiologiya, meteorologiya

**Addım 1**

Antropogen amilin səbəb olduğu qlobal iqlim dəyişikliyi Tupunqato dağına və planetimizin digər buzlaqlarına necə təsir edir **(coğrafi təbəq, əs.təs. 1)?**

**Fəaliyyət 1 – interaktiv xəritə üzərində iş:**
1. https://goo.su/TzzDjD7-is (earth.google.com) proqramı vasitəsilə Tupunqato zirvəsi ilə tanış olun və müəyyənləşdirin, Tupunqato dağ buzlağının:
- coğrafi yerləşməsini;
- Ondan mənbəyini götürən çayları;
- buzlaq ərazisində yerləşən yaşayış məntəqələrini.

**Fəaliyyət 2 – Coğrafi araşdırma:**
Şagirdlər iş dəftərində (səh. 16) 7-ci tapşırıq – coğrafi araşdırma ilə tanış olur, əlavə edilmiş suallara cavab verir və onların əsasında buzlaqların niyə əridiyini müzakirə edirlər.

**Fəaliyyət 3 – Mətnin təhlili:**
Dərslikdəki – Buzlaqların və İqlim Mühafizəçiləri (səh. 11) haşiyəsini oxuduqdan sonra, şagirdlər qlobal iqlim dəyişikliyi və buzlaqların öyrənilməsində qlasioloqların və meteoroloqların hansı rolu oynadığını müzakirə edirlər?

**Fəaliyyət 4 – Qrafik təşkilatçıların istifadəsi:**
Şagirdlər iş dəftərindəki 3-cü tapşırığı (səh. 13) yerinə yetirir, qrafik təşkilatçıları doldurur və suallara cavab verirlər:
1. Kriosferin dəyişməsi coğrafi təbəqənin sahələrinə necə təsir edir?
2. Tupunqato buzlağının əriməsinin ətraf mühitə necə təsir edəcəyini izah edin?

**Fəaliyyət 5 – Coğrafi araşdırma:**
Şagirdlər iş dəftərində 4-cü tapşırığı (səh. 15) yerinə yetirir və insanın təsiri nəticəsində temperaturun necə dəyişdiyini və onun buzlaqlara nə kimi təsir göstərdiyini müəyyən edirlər? Tupunqato dağ buzlaqı necə dəyişəcək?

**Fəaliyyət 6 – Hadisənin analizi:**
Şagirdlər dərslikdə verilən Hadisənin analizi 1 (səh. 18) ilə tanış olur, əlavə edilən suallara cavab verir və onların əsasında insan fəaliyyətinin buzlaqların əriməsinə təsirini izah edirlər.

Səbəb-nəticə qrafik təşkilatçını doldururlar:



**Hədəf anlayışı – Əhali və təsərrüfat**
**Altanlayış** – əhalinin həyat səviyyəsi
**Altməsələ** – coğrafi mühit, əhalinin həyat səviyyəsi, əhalinin gündəlik həyatı

**Addım 2**

Tupunqato dağ buzlağının əriməsi nəticəsində yerli əhalinin gündəlik həyatı və həyat səviyyəsi necə dəyişəcək və dövlət bu problemlərin öhdəsindən necə gəlir; **(Əhali və təsərrüfat, Əs.təs. 1, 2)?**

**Fəaliyyət 7 – Rol oyunu:**

Şagirdlər qrup şəklində haşiyəni – Dağ Buzlaqlarının müdafiəçisi – Hadisənin analizi 2-ni (səh. 21) müzakirə edir və təhlil edirlər:

İnsan təsiri nəticəsində temperatur necə dəyişir və buzlaqlara necə təsir edir?
Tupunqato buzlağı necə dəyişəcək?
Dağlarda buzlaqlar əriyirmi və niyə?
İnsan fəaliyyətinin buzlaqların əriməsinə nə kimi təsiri var?
Tupunqato dağ buzlağının əriməsi nəticəsində dağlıq və dağətəyi ərazilərdə yaşayan insanlar üçün hansı problemlər yarana bilər?
Dəniz buzunun mövsümi qabarma-çəkilməsinə həmişə uyğunlaşan insanların fəaliyyəti necə dəyişəcək?
Arktika buzlaqlarının əriməsinin şimal xalqlarının həyatında hansı müsbət nəticələri var?
Qlobal iqlim dəyişikliyi və buzlaqların intensiv əriməsi şəraitində şimal rayonlarında kənd təsərrüfatını – bitkiçiliyin müxtəlif sahələrini inkişaf etdirmək nə dərəcədə mümkündür?
Şimalda yaşayan insanların dəyişən iqlim şəraitinə uyğunlaşmasına kömək etmək üçün nə etmək olar?
Buzlaqların əriməsi insan həyatına necə təsir edir?

Qruplar qrafik təşkilatçıları doldururlar:



**Hədəf anlayışı – Davamlı inkişaf**
**Altanlayış** – Ətraf mühit, təbiətdən rasional faydalanma
**Altməsə** – Tupunqato dağ buzlaqlarının əriməsi, təbii və antropogen təhlükələr

**Addım 3**

Tupunqato dağ buzlağı da daxil olmaqla, buzlaqların əriməsini dayandırmaq nə üçün vacibdir və bu hadisə dağ regionlarının davamlı inkişafına necə təsir edir **(Dayanıqlı İnkişaf, əs.təs. 1, 2)?**

**Fəaliyyət 8 – Hadisənin analizinin müzakirəsi:**

Qruplarda şagirdlər iş dəftərində verilən 8-ci tapşırığı, Hadisənin analizi 1-i müzakirə edirlər:
(səh. 18) və mübahisə edin:

1. Nə üçün buzlaqlar iqlim dəyişikliyinin indikatorları adlanır və iqlim dəyişikliyində buzlaqların əriməsi nə kimi rolu yerinə yetirir?

**Fəaliyyət 8 – Tapmacalar torunun doldurulması:**

**Resurslardan istifadə edin və tapmacalar torunu doldurun.**

| MƏZMUN | RESURS 7 | RESURS 8 | RESURS 9 | RESURS |
|---|---|---|---|---|
| Tupunqato buzlağının əriməsi kənd təsərrüfatının strukturunu necə dəyişəcək? | | | | |
| Arktik dairədən kənarda, buzlaqların əriməsi nəticəsində əmələ gələn ərazilərdə kənd təsərrüfatını inkişaf etdirmək olarmı? | | | | |
| Buzlaqlar əriməyə davam edərsə, XXI əsrin sonunda Yerdə və Gürcüstanda hansı dəyişikliklər baş verə bilər? | | | | |

**Ümumiləşdirici suallar:**
Buzlaqların müdafiəçiləri iqlim dəyişikliyinin təsirlərinin azaldılması prosesində hansı rol oynayır?
Beynəlxalq ictimaiyyət iqlim dəyişikliyinin, o cümlədən buzlaqların əriməsinin yaratdığı problemlərin qarşısını almaq üçün nə etməlidir?

**Fəaliyyət 9 – İnformasiyanın təhlili:**
https://www.ge.undp.org/content/georgia/ka/home/post-2015.html internet saytında davamlı inkişafın məqsədləri haqqında məlumat əldə edin və hansının buzlaqların əriməsi ilə əlaqəli olduğunu müəyyənləşdirin. Cavabı əsaslandırın.

**Kompleks tapşırığı yerinə yetirərkən və təqdimat prosesində müəyyən şagirdlə fərdi iş üçün müəllim tərəfindən verilən suallar:**

**Tapşırıq üzərində iş prosesinin necə getdiyini/olduğunu təsvir edin:**
1. Kompleks tapşırıq üzərində iş prosesini necə planlaşdırırsınız/planlaşdırdınız? İş prosesini planlaşdırarkən nələri nəzərə aldınız?
2. İlkin plan sizə iş prosesində kömək etdimi?
3. Təqdimatı hazırlamaq üçün hansı detallara diqqət yetirirdiniz?
4. Kompleks tapşırıq üzərində iş prosesi plana uyğun getdimi?
5. İlkin işlənmiş planlara dəyişikliklər etmək lazım oldumu?

6. Tapşırığın ilkin variantını yaratmaq nəyə görə lazımdır?
7. Yerinə yetirilmiş tapşırığın ilkin variantı sonuncudan nə ilə fərqlənir?
8. Hansı amillər ilkin nəticələrin yenidən nəzərdən keçirilməsinə səbəb ola bilərdi?
9. Kompleks tapşırıq şəklində hansı məhsulu yaratdınız?
10. Yaratdığınız məhsulun nə üçün təqdimat olduğunu düşünürsünüz?
11. Hansı məsələ ilə bağlı biliklərinizi kompleks tapşırıq vasitəsilə ifadə etdiniz?
12. Nə üçün kompleks tapşırığı həyata keçirdiniz?
13. Kompleks tapşırıq üzərində iş prosesində qarşınıza hansı uzunmüddətli və qısamüddətli məqsədlər qoymuşdunuz?
14. Bu məhsul kimin üçün və nə üçün faydalı və maraqlıdır?
15. Öyrəniləcək mövzu haqqında nə bilirdiniz? Hansı yeniliyi öyrəndiniz? Başqa nə bilmək istərdiniz?
16. Kompleks tapşırıq üzərində iş prosesində hansı nəticələrə gəldiniz? Əldə etdiyiniz nəticələrin düzgünlüyünü/ardıcıllığını nə sübut edir?
17. Dərs materialını daha yaxşı başa düşmək üçün hansı üsullardan istifadə etdiniz? / Kompleks tapşırığı daha yaxşı yerinə yetirmək üçün?
18. Tapşırıq üzərində işləyərkən hansı maneələrlə qarşılaşdınız? Kompleks tapşırıq üzərində iş prosesində sizə nə kömək etdi?
19. İş prosesində kimin (müəllim, sinif yoldaşları, qonşular icması) qarşısında hesabatlı idiniz?
20. Kompleks tapşırıq üzərində iş prosesində sizin və müəlliminizin hansı ümumi məqsədi var idi?
21. Sinif yoldaşlarınızla ümumi məqsədləriniz oldumu? Kompleks tapşırıq üzərində iş prosesi maraqlı və xoş idimi?
22. Kompleks tapşırıq üzərində işləyərkən müstəqil olaraq nə etdiniz?
23. Kompleks tapşırıq üzərində iş prosesində nəyi yaxşı yerinə yetirə bildiniz?
24. Kompleks tapşırıq üzərində iş prosesində sizə kim və necə kömək etdi? Kompleks tapşırıq üzərində işləyərkən kiminlə əməkdaşlıq etdiniz (sinf yoldaşlarınıza/məhəllə icmasının üzvlərinə/müəlliminizə necə kömək etdiniz; onlardan hansı dəstəyi aldınız)?
25. Kompleks tapşırıq üzərində işləyərkən ziddiyyətli vəziyyətlərlə qarşılaşdınızmı? Məsələni necə həll edə bildiniz?
26. Kompleks tapşırıq üzərində işləyərkən qeyri-müəyyənliklərlə qarşılaşdınızmı? Qeyri-müəyyən məsələləri necə aydınlaşdıra bildiniz?
27. Kompleks tapşırıq üzərində iş prosesində müxtəlif fikirlərlə qarşılaşdınızmı? Müxtəlif düşüncəli insanlarla nə dərəcədə əməkdaşlıq edə bildiniz? Sinif yoldaşlarınızın və müəlliminizin dediklərini daha yaxşı başa düşməyə sizə nə kömək edəcək?
28. Kompleks tapşırıq üzərində iş prosesində hansı qaydalara/qanunlara və nə üçün əməl etdiyinizi təhlil edin (məsələn, fikir ayrılıqları fonunda ünsiyyətdə iştirak edən insanlara deyil, problemə nə dərəcədə diqqət yetirə bildiniz? Kompleks tapşırıq üzərində iş prosesində insanlara hörmətinizi nə ilə və necə göstərirdiniz)?
29. Tədqiqat obyekti kimi seçilmiş məsələyə cəmiyyətdə əvvəllər formalaşmış (müsbət və ya mənfi) münasibəti başa düşürsünüzmü və belə münasibətin formalaşmasına nə səbəb olur?
30. Müəllim və digər şagirdlərlə dialoq kompleks tapşırığı yerinə yetirməkdə sizə necə kömək etdi?
31. Suallarınız sinif yoldaşlarınıza dediklərini daha yaxşı ifadə etməyə necə kömək edə bilər?
32. Kompleks tapşırığın təqdimatının dinləyici üçün başa düşülən və məqbul olması üçün hansı amilləri nəzərə almaq lazımdır (məsələn: funksional nitq hallarından istifadə (nəql etmək, təsvir etmək, müzakirə, düzgün seçim etmək, həssas nüansları önə çəkmək; jestlərdən, mimikadan, qeyri-verbal siqnallardan istifadə))?
33. Kompleks tapşırıq üzərində iş prosesində texnologiyalardan istifadə etdinizmi və onlar sizə nədə kömək etdi?
34. Tapşırıq üzərində işə bir də başlasaydınız, nəyi fərqli edərdiniz?
35. Sizcə, tapşırığınız sinif yoldaşlarınızın işlərinə nə ilə bənzəyir və nə ilə fərqlənir? Bu fərqləri sual kimi necə təqdim edərdiniz?
    Müəllimin sizə tapşırdıqlarını nə dərəcədə alındığını qiymətləndirin?

**Tövsiyə:**

Bütün aralıq məqsədlərin sonunda kompleks tapşırıqların yerinə yetirilməsi və təqdimatı prosesində konkret şagird ilə fərdi iş aparmaq üçün müəllimin verdiyi suallar təkrarlanır. Müəllim kitabı Davamlı İnkişaf Məqsədlərinə uyğun olaraq kağıza qənaət və buna görə də resurslara qənaətə görə çap edildiyi üçün, digər aralıq məqsədlərin sonunda onları təkrarlamırıq. Hər halda, birinci aralıq məqsədin nümunəsini rəhbər tutun.

**Hadisə 1. Haşiyə – Dağ buzlaqlarının müdafiəçisi**

**Dünyanın ən yüksək meteoroloji stansiyası**

2019-cu ildə "National Geographic" jurnalı və Rolex-in "Əbədi Planet" (Perpetual Planet) layihəsi çərçivəsində həyata keçirilən iki ay yarımlıq ekspedisiyada 34 alim – geoloq, qlyasioloq, bioloq və iqlimşünas iştirak edib. Onlar Everestdə və ona qonşu olan Xumbu buzlağında, müxtəlif hündürlüklərdə səyyar tədqiqatlar aparıb və beş meteoroloji stansiya qurublar; o cümlədən Everestdə dünyanın ən hündür meteoroloji stansiyası quraşdırılıb. Stansiya alimlərə iqlim dəyişikliyi və tropik fırtınalar yaradan proseslər haqqında nadir məlumatlar təqdim edir.

"Bu, planet üçün yeni bir pəncərədir. Biz inanırıq ki, yalnız kompleks elmi yanaşma ilə biz Everesti tədqiq edə bilərik", – Men Universitetinin İqlim Dəyişikliyi İnstitutunun direktoru və bu ekspedisiyanın rəhbəri Pol Meyusk bildirib.

National Geographic komandası And dağlarının zirvələrində hava stansiyası da quraşdırıb. Bunun sayəsində Çili su təminatı üçün təhlükə yaradan quraqlıq və istiləşmə ilə daha yaxşı mübarizə apara biləcək.

Şimali Karolinanın Appalaçi Dövlət Universitetinin klimatoloqu və qlasioloqu Dr. Peri Beyker pandemiyaya baxmayaraq, 2021-ci ilin fevralında bərk qarın üzərində 15 günlük yürüş edən və Tupunqato zirvəsinə qalxmaq üçün cəsarət göstərən beynəlxalq komandanın liderlərindən biridir. Onlar cənub And dağlarında sönmüş vulkanın altında meteoroloji stansiya quraşdırıblar ki, bu da cənub və qərb yarımkürələrində ən yüksəklikdə yerləşir. Çili və Argentina sərhədində yerləşən bu stansiya alimlərə bu regionda iqlimin nə qədər sürətlə dəyişdiyini anlamağa kömək edəcək.

**Mənbə:** Şagird kitabı, səh.29

# Kompleks tapşırıq 2

**Mövzu** – Qlobal iqlim dəyişikliyi
**Məsələ** – Teytyotanın işi

**Hədəf anlayışı** – coğrafi təbəqə; **Altanlayış** – noosfer – təbii təhlükələr – təbii fəlakətlər; **Altməsələ:** Kiribati iqliminin dəyişməsi, istixana qazları, daşqın.

**Hədəf anlayışı** – əhali və təsərrüfat; **Altanlayış** – əhalinin strukturu – əhalinin həyat səviyyəsi; **Altməsələ:** Kiribati əhalisinin ekomiqrasiyası, iqlim qaçqını, miqrasiya haqqında qanun.

**Hədəf anlayışı** – davamlı inkişaf; **Altanlayış** – cəmiyyət – əhalinin təhlükəsizliyi və firavanlığı; **Altməsələ:** Teytyota ailəsinin təhlükəsizliyi, iqlim qaçqını, insan hüquqları.

**Əsas sual** – İnsanları iqlim dəyişikliyinin mənfi nəticələrindən necə qoruyaq?

**Kompleks tapşırığın şərti**



İqlim dəyişikliyi on milyonlarla insanın miqrasiyasına səbəb olur. Onlar müxtəlif təbii fəlakətlərdən, o cümlədən qasırğalardan, quraqlıqlardan və daşqınlardan yaxa qurtarmaq istəyirlər. Ekoloqların hesablamalarına görə, 2010-cu ildə dünya üzrə 40 milyondan çox iqlim miqrantı iqlim dəyişikliyi ilə bağlı səbəblərə görə evlərini tərk etmək məcburiyyətində qalıb. 2020-ci ildə Covid-19 pandemiyasına baxmayaraq, onların sayı 34 milyonu ötüb. Proqnozlara görə, 2050-ci ilə qədər ekomiqrantların sayı 200-250 milyon nəfərə çata bilər.

Təsəvvür edin ki, siz Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) əməkdaşısınız. Qaçqınların hüquqları və rifahının qayğısına qalan təşkilat üzvü kimi, sizə Kiribati adasının vətəndaşı, Teytyotanın işini araşdırmaq və məhkəmədə onu müdafiə etmək tapşırılıb. İmitasiya edilmiş məhkəmə prosesində müştərinizin iqlim qaçqını kimi hüquqlarını müdafiə edən çıxış hazırlayın.

**Müdafiə çıxışında xüsusilə göstərin:**

- İqlim dəyişikliyi Kiribati adasının təbii mühitinə necə təsir edir **(coğrafi təbəqə, əs.təs.1);**
- İqlim dəyişikliyinin nəticələri Kiribati əhalisinin məişət həyatına necə təsir edəcək **(əhali və təsərrüfat, əs.təs.1,2);**
- Ölkələr tərəfindən həyata keçirilən miqrasiya siyasətləri iqlim qaçqınlarının problemlərinə və miqrasiya böhranına necə təsir edir **(əhali və təsərrüfat, əs.təs.3);**
- İqlim qaçqınlarının problemləri necə həll oluna bilər? **(dayanıqlı inkişaf, əs.təs.1,2)**

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br><br>**Şagird dərk etməlidir ki:** | **Qiymətləndirmə meyarı**<br><br>**Şagird bacarır:** | **İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:** |
|---|---|---|
| **Coğrafi təbəqə**<br>1. Coğrafi təbəqə bir sıra qanunauyğunluqlarla xarakterizə olunan geosferlərdən (litosfer, atmosfer, hidrosfer, biosfer) ibarətdir;<br>2. İnsanların sayəsində digər sahələrə təsir göstərən noosfer (zəka sferası) yaranır.<br><br>**Əhali və təsərrüfat**<br>1. Təbii mühit əhaliyə və təsərrüfata təsir göstərir. Müxtəlif ölkədə təsərrüfatın bu və ya digər sahəsi aparıcıdır və bu da əməyin coğrafi bölgüsünə səbəb olur;<br>2. Əhali və təsərrüfat strukturu, bölgüsü və yerləşməsi vaxtda və məkanda dəyişkəndir;<br>3. Dövlət ölkədə baş verən sosial-iqtisadi proseslərə təsir göstərir və bu da onun inkişafı səviyyəsində öz əksini tapır.<br><br>**Dayanıqlı inkişaf**<br>1. Yerli əməllər qlobal nəticələrə gətirib çıxara bilərlər;<br>2. Dayanıqlı inkişaf məqsədlərinin (sosial, iqtisadi, ətraf mühitin mühafizəsi və abadlıq) yerinə yetirilməsi gələcək nəsillərin firavanlığı üçün vacibdir. | **Coğrafi təbəqə**<br>• Konkret nümunəyə əsaslanaraq, coğrafi təbəqəyə daxil olan sahələrin qarşılıqlı əlaqəsini və bütövlüyü təhlil etməyi **(Əs.təs. 1);**<br><br>**Əhali və təsərrüfat**<br>• İqlim dəyişikliyinin səbəb olduğu dəyişmiş təbii mühitin əhalinin firavanlığına mənfi təsirini qiymətləndirməyi **(əs.təs. 1, 2);**<br>• İqlim qaçqınlarının təhlükəsizliyi və firavanlığı üçün dövlət tərəfindən həyata keçirilən tədbirlərin əhəmiyyətini təhlil etməyi **(əs. təs. 3).**<br><br>**Davamlı inkişaf**<br>• Davamlı inkişaf və gələcək nəslin firavanlığı üçün iqlim dəyişikliyi nəticəsində zərərçəkmişlərin problemlərinin həllinin vacibliyini dərk etməyi **(əs.təs. 1, 2).** | • İqlim dəyişikliyi Kiribati adasının təbii mühitinə necə təsir edir **(coğrafi təbəqə, əs.təs.1);**<br>• İqlim dəyişikliyinin nəticələri Kiribati əhalisinin məişət həyatına necə təsir edəcək **(əhali və təsərrüfat, əs.təs.1,2);**<br>• Ölkələr tərəfindən həyata keçirilən miqrasiya siyasətləri iqlim qaçqınlarının problemlərinə və miqrasiya böhranına necə təsir edir **(əhali və təsərrüfat, əs.təs.3);**<br>• İqlim qaçqınlarının problemləri necə həll oluna bilər? **(dayanıqlı inkişaf, əs.təs.1,2)**<br><br>. |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I mərhələ – Kompleks tapşırığın şərti ilə tanışlıq**
**Resurslar/Təhlil ediləsi hallar (keyslər):**

**Dərslik – Coğrafiya XI sinif**
**Paraqraf 4. – Qaçqınlar, köçkünlər:**
2. Vəkilin yekun çıxışı və onun əhəmiyyəti – https://goo.su/0zHre
3. İqlim dəyişikliyi və sağlamlıq – https://goo.su/tzBU
4. BMT-nin Qaçqınlar üzrə Ali Baş Komissarlığı– https://www.unhcr.org/
5. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı – https://data.unhcr.org/en/situations/rbap
6. Beynəlxalq Miqrasiya Təşkilatı IOM – https://worldmigrationreport.iom.int/wmr-2022-interactive/
7. Miqrasiyanın ətraf mühit və iqlim dəyişikliyi haqqında IOM- strategiyası – https://environmentalmigration.iom.int/
8. Miqrasiya məlumatlar portalı – https://www.migrationdataportal.org/themes/environmental_migration_and_statistics
9. Kompleks tapşırıq üçün oxu materialı "Avropanın miqrasiya böhranı" (Dəftər, səh. 131)
10. Con Lennonun mahnısının tam versiyası – https://www.youtube.com/watch?v=YkgkThdzX-8

**Resurs 2**
**Tövsiyə olunan fəaliyyət (Resurs 1 əsasında yerinə yetirilir):**

- Müdafiə çıxışının nə kimi əhəmiyyəti var?
- Müdafiə çıxışını hazırladıqda nəyi nəzərə almalısınız?
- Müdafiə çıxışını hazırladıqda hansı addımlardan keçməlisiniz?

**Resurs 3**
**Tövsiyə olunan fəaliyyət (Resurs 3 əsasında yerinə yetirilir):**

- İqlim dəyişikliyinin insan sağlamlığına nə kimi təsiri var?
- İqlim dəyişikliyi və insan sağlamlığı riskləri necə qiymətləndirilir və onlara reaksiya necə verilir?

**Resurs 4,5, 6 və 7**
**Tövsiyə olunan fəaliyyət (Resurs 4-5-6-7-nin əsasında yerinə yetirilir):**

- İqlim dəyişikliyi zamanı əhalinin yerdəyişməsi ilə dövlətlərin qərarları arasında hansı əlaqə var?
- BMT qurumları və ölkələrin hökumətləri iqlim qaçqınları və köçkünlərin problemlərini həll etmək üçün hansı tədbirlər görməlidirlər?

**Resurs 8**
**Tövsiyə olunan fəaliyyət (Resurs 5-in əsasında yerinə yetirilir):**

Bu fəaliyyət dünyada miqrasiyanın ən son hesabatı ilə tanışlıqda yardım edəcək.

**Resurs 9 – videoçarx**
**Tövsiyə olunan fəaliyyət (resurs 9-un əsasında yerinə yetirilir):**

Ölkənin miqrantlar üçün müxtəlif kateqoriyaların verilməsi siyasəti dəyişməlidirmi və niyə?

**Resurs 10**
**Tövsiyə olunan fəaliyyət (Resurs 10-un əsasında yerinə yetirilir):**

- Sizcə, belə sərhədlərin olmadığı bir dünyada miqrasiya prosesi necə olardı?
- Bu vəziyyətdə qaçqınlar və köçkünlər yaşaya bilərmi?

**Kompleks tapşırığın şərtinin dərk edilməsinə yönəlmiş suallar:**
**Altməsələ –Antropogen amillərin yaratdığı istixana qazlarının konsentrasiyası iqlim dəyişikliyinə səbəb olur ki, bu da əhalinin həyat səviyyəsində özünü göstərir:**
- Qlobal iqlim dəyişikliyi əhalinin həyatına nə kimi təsir göstərir?
- İqlim miqrantlarının problemləri necə həll oluna bilər?

**Altməsələ – Qlobal iqlim dəyişikliyinin nəticələrinin yumşaldılması istiqamətində dövlət qərarları əhalinin firavanlığına təsir edir:**
- Miqrasiya qanunu necə dəyişdirilməlidir?
- Əhalinin hüquqlarının qorunmasında dövlət qərarları hansı rol oynayır?
- Əhalinin təhlükəsizliyi və hüquqları bir-birinə necə bağlıdır?

**Kompleks tapşırıq**
- Öz sözlərinizlə formalaşdırın ki, bir neçə dərs üzərində işləməli olacağınız bu gün verilən tapşırıq nəyə aiddir?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisinizmi?

**II mərhələ – kompleks tapşırıq üzərində iş**
**Hədəf anlayışı – coğrafi təbəqə**
**Altanlayış – noosfer –** təbii fəlakətlər (təhlükələr)
**Altməsələ –** iqlim dəyişikliyi, istixana qazları, daşqın

**Addım 1**

İqlim dəyişikliyi Kiribati adasının təbii mühitinə necə təsir edir (coğrafi təbəqə, **əs.təs. 1**)?

**Fəaliyyət 1 – Coğrafi araşdırma:**

Şagirdlər İş dəftərində verilmiş 3-cü (səh. 24) və 4-cü (səh. 24) tapşırıqları yerinə yetirirlər – əlavə edilmiş suallara cavab verirlər və onların əsasında müzakirə edirlər:
Təbii fəlakətlərin ümumi qanunauyğunluqları hansılardır?

**Fəaliyyət 2 – Coğrafi araşdırma:**

Şagirdlər İş dəftərində 2-ci tapşırığı yerinə yetirirlər (səh. 28), əlavə edilmiş suallara cavab verirlər və onlara əsaslanaraq müzakirə edirlər:

Təbii fəlakətlərin miqyasının artmasının səbəbləri hansılardır və təbii fəlakətlərin nəticələrinin qiymətləndirilməsində hansı amillərdən istifadə olunur?

Antropogen amil təbii proseslərin inkişafına hansı təsir göstərir?

**Fəaliyyət 3 – Mətn və xəritənin təhlili:**

Şagirdlər Şək. 4.2-yə əsasən (Şagird kitabı, səh. 78) qaçqınların mənşəyinin səbəblərini öyrənirlər. Onlardan hansının tarixi, hansının müasir olduğunu müəyyənləşdirirlər. Cavablar misallarla əsaslandırılmalı və suallara cavab verməlidirlər:

a) Müasir dünyada məcburi miqrasiyada olan insanların – qaçqınların, sığınacaq axtaranların və köçkünlərin sayının niyə artdığını müzakirə edin?
b) İqlim qaçqınları hansı ölkələrə gedir və niyə?
c) Teytyotanın ailəsi nə üçün Yeni Zelandiyada məskunlaşdı? Sizcə, bu təbii fəlakətə görə ortaya çıxan potensial iqlim miqrantları hansı ölkələrdə sığınacaq tapacaqlar?

**Hədəf anlayışı – əhali və təsərrüfat**
**Altanlayış** – əhalinin həyat səviyyəsi
**Altməsələ** – ekomiqrasiya, miqrasiya üzrə iqlim qaçqınları qanunu

**Addım 2**

İqlim dəyişikliyinin nəticələri Kiribati əhalisinin güzəranına necə təsir edəcək **(Əhali və təsərrüfat, əs.təs. 1, 2)?**

**Fəaliyyət 4 – Hadisənin analizi:**

1. Şagirdlər dərslikdəki mətn üzərində işləyir, 1-ci Hadisənin analizini (səh. 79) müzakirə edir, Şagird dəftərində 1-ci tapşırığı (səh. 39) yerinə yetirir və suala cavab verirlər:
   a) Ümumilikdə məcburi köçkün, xüsusən də Teytyota ailəsi üçün müsbət tərəf kimi nə hesab edilə bilər?

2. Hadisənin analizi 2-ni (səh. 87) təhlil etdikdən sonra iqlim dəyişikliyinin nəticələrinin nə üçün dünyanın inkişaf etməkdə olan ölkələri üçün xüsusilə ağır olduğunu və iqlim dəyişikliyi ilə bütün dünyada hansı sosial problemlərin kəskinləşdiyini müzakirə edin?

**Fəaliyyət 5 – Məqalələrin təhlili:**

Resurs 3-də verilmiş internet saytlarında "İqlim Dəyişikliyi və Sağlamlıq" məqaləsini oxuyurlar və iqlim dəyişikliyinin insan sağlamlığına nə kimi təsir göstərdiyini müəyyən edirlər.

Qrafik təşkilatçıları doldururlar:






**Fəaliyyət 6 – Sxemin təhlili:**

Şək.4.9-un (dərslik, səh. 90) əsasında təyin edirlər ki, hansı regionlar miqrasiyanın "feminizasiyası" ilə seçilirlər və bunun səbəblərini müzakirə edirlər.

Şagirdlər Teytyota ailəsinin üzləşdiyi çətinlikləri, immiqrasiya nəticəsində başqa hansı problemlərin yarana biləcəyini sadalayır və cədvəli doldururlar.



**Hədəf anlayışı – Davamlı inkişaf**
**Altanlayış** – cəmiyyət, əhalinin təhlükəsizliyi və həyat səviyyəsi
**Altməsələ** – Teytyota ailəsinin təhlükəsizliyi, iqlim qaçqınları, insan hüquqları

**Addım 3**

Ölkələrin həyata keçirdiyi miqrasiya siyasəti iqlim qaçqınlarının problemlərinə və miqrasiya böhranına necə təsir edir **(Əhali və təsərrüfat, əs.təs. 3)?**
İqlim qaçqınlarının problemləri necə həll edilə bilər **(davamlı inkişaf, əs.təs.3)?**

**Fəaliyyət 7 – Qrafik təşkilatçının yaradılması:**

Şagirdlər iqlim dəyişikliyinin yaratdığı sosial riskləri azaltmaq üçün hansı tədbirləri məqsədəuyğun hesab etdiklərini müzakirə edirlər.
Qrafik təşkilatçını doldururlar:



**Fəaliyyət 8 – Mətn və coğrafi əyani vəsaitlər üzərində iş:**

1. Şagirdlər "Avropanın miqrasiya böhranı" kompleks tapşırığının oxu materialı ilə tanış olurlar (bax, Dəftər, səh. 131) və suallara cavab verirlər:
   a. Ölkənin emiqrantlar üçün müxtəlif kateqoriyaların verilməsi siyasəti dəyişməlidirmi və niyə?
   b. Hansı səbəblərə görə bir ölkə fərqli emiqrasiya məhdudiyyətləri tətbiq edə bilər?

2. Şagirdlər iş dəftərində verilmiş 2 (səh. 40) və 3 (səh. 43) tapşırıqları yerinə yetirir və suallara cavab verirlər:
   a. Qaçqınlar başqa yerə köçərkən hansı çətinliklərlə üzləşə bilər və bu problemlərin necə həll oluna biləcəyini izah edin?
   b. Qaçqın və köçkünlərin problemlərinin həlli prosesində BMT-dən başqa hansı beynəlxalq təşkilatlar iştirak edir?
   c. O, hansı üç hərəkət vasitəsilə Teytyota ailəsinə kömək edə bilər?

**Fəaliyyət 9 – Musiqi fasiləsi:**

Məşhur ingilis müğənnisi, "Beatles" ansamblının solisti Con Lennon "Imagine" (Resurs 10) mahnısında deyir: "Təsəvvür edin ki, ölkələr olmasaydı və dünya sərhədsiz olsaydı".
Sizcə, belə sərhədsiz dünyada miqrasiya prosesi necə olardı və qaçqınlar və köçkünlər olardımı?

**Fəaliyyət 10 – İmitasiya edilmiş məhkəmə prosesi:**

Kompleks tapşırıq üzrə iş başa çatdıqdan sonra imitasiya edilmiş məhkəmə prosesi keçiriləcək, burada vəkilin müdafiəsi təqdim edilməlidir. Şagirdlər tərkibi vaxtaşırı dəyişən andlı hakimləri seçəcəklər, çünki onların hər birinin işini təqdim etmək öhdəliyi var. Andlı hakimlər hər bir vəkilin müdafiəsini nəzərdən keçirəcək, onların güclü və zəif tərəflərini qeyd edəcək və onları Teytyota ailəsinin tələblərini qane etmək zərurətinə ən çox inandıran vəkilləri seçəcəklər.

**Kompleks tapşırığı yerinə yetirərkən və təqdimat prosesində müəyyən şagirdlə fərdi iş üçün müəllim tərəfindən verilən suallar: (Baxın, Tövsiyə, səh. 34, Suallar səh. 33).**

## Hadisə 2. Hadisənin analizi

İqlim qaçqını statusu üçün müraciətin ən məşhur halı Kiribati adasının vətəndaşı İoan Teytyotanın müraciətidir. İqlim böhranı onun ölkəsinə ağır toxunub: dəniz torpaqları fəth edir, içməli su qıtlığı yaranır, bu da torpağın deqradasiyasına və münbit sahələrin azalmasına səbəb olur. Ölkədə torpaqla bağlı münaqişələr tez-tez baş verir. 2007-ci ildə Teytyota ailəsi ilə birlikdə Yeni Zelandiyaya köçdü.

2010-cu ildə o, iqlim qaçqını statusu almaq üçün Yeni Zelandiya hökumətinə müraciət etsə də, 2013-cü ildə hökumət onun ərizəsini geri qaytardı. 2016-cı ildə Teytyota BMT-nin İnsan Hüquqları Komitəsinə şikayətlə müraciət etdi.

2020-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumunda BMT ekspertləri bu işə dair qərarı dərc etdilər – "Teytyota Yeni Zelandiyaya qarşı". Qərarda bildirilir ki, Teytyota qaçqın statusu almaq hüququna malik idi, çünki həmin vaxt onun və ailəsinin həyatı təhlükə altında idi.

Bu hadisədən sonra ekoloji miqrasiya problemi özünü daha qabarıq göstərdi. BMT yeni hüquqi qərar qəbul edib. Bu qətnaməyə əsasən, ölkələr iqlim böhranı səbəbindən öz ölkələrində həyatı risk altında olan insanları deportasiya edə bilməzlər.

BMT-nin izahatına görə, ölkələr güclü qasırğalar və daşqınlar kimi iqlim dəyişikliyi nəticəsində yaranan ani və təbii fəlakətlərdən; eləcə də, dəniz səviyyəsinin qalxması, suyun və torpağın şoranlaşması və torpaqların deqradasiyası kimi nisbətən yavaş proseslərdən sığınacaq axtaran insanların transsərhəd hərəkətini asanlaşdırmağa borcludurlar.

BMT ekspertləri vurğulayıblar ki, iqlim dəyişikliyindən əziyyət çəkən ölkələr beynəlxalq ictimaiyyətin dəstəyinə ehti-

yac duyurlar. Onların fikrincə, həm beynəlxalq, həm də milli miqyasda səmərəli qərarların qəbulu çox vacibdir. Əks halda, bir çox dövlətlər su altında qala bilər, nəticədə insan həyatı risk altındadır və qəbul edən dövlətlər artıq belə ölkələrdən sığınacaq axtaranları deportasiya edə bilməzlər.

**Mənbə:** Şagird kitabı, səh. 87

## Kompleks tapşırıq 3

**Mövzu –** Qlobal iqlim dəyişikliyi
**Məsələ –** Cənubi Koreya – "Asiya pələnglərinin" yaşıl iqtisadiyyatı – (Yaşıl iqtisadiyyat)

**Hədəf anlayışı –** coğrafi təbəqə; **Altanlayış** – noosfer – antropogen landşaftlar;
**Altməsələ:** Cənubi Koreyanın coğrafi yerləşməsi, Cənubi Koreyanın təbii şəraiti.

**Hədəf anlayışı** – əhali və təsərrüfat; **Altanlayış** – əhalinin strukturu – xidmət sahələri (dördüncü və beşinci sahələr);
**Altməsələ:** Cənubi Koreyanın iqtisadiyyatı, dövriyyə iqtisadiyyatı, yaşıl iş yerləri, dövlət strategiyası.

**Hədəf anlayışı** – davamlı inkişaf; **Altanlayış –** cəmiyyət – əhalinin təhlükəsizliyi və firavanlığı; **Altməsələ:** qlobal yaşıl iqtisasiyyat indeksi, ətraf mühitin effektivlik indeksi.

**Əsas sual** – Cənubi Koreyanın iqtisadi möcüzəsi haqqında araşdırma hesabatı vasitəsilə fikrimi ictimaiyyəti və həmkarları maraqlandıracaq şəkildə necə çatdıra bilərəm?

**Kompleks tapşırığın şərti**





Mövcud iqtisadi inkişaf modeli insanlar üçün sağlam mühiti və sağlamlıq üçün təhlükəsiz məhsulların yaradılmasını təmin edə bilmədi. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) yaşıl iqtisadiyyatı insanların firavanlığını və sosial ədaləti dəstəkləmək vasitəsi kimi müəyyən edir.

Yaşıl inkişafı milli strategiya kimi tanıyan Cənubi Koreya yaşıl iqtisadiyyatın stimullaşdırılmasında liderdir. Cənubi Koreya Respublikası yaşıl inkişaf konsepsiyasının milli strategiya kimi həyata keçirildiyini elan edən ilk ölkə olub. Bu strategiya üç elementə diqqət yetirir: sənaye, enerji və investisiya.

Təsəvvür edin ki, siz Qlobal İdarəetmə İnstitutunun əməkdaşısınız. Məqsədiniz XX əsrin əvvəllərində aşağı inkişafa malik aqrar ölkə olan, lakin bu gün onun adı yüksək inkişaf etmiş iqtisadiyyatı qeyd etmək üçün istifadə olunan Cənubi Koreyanın iqtisadi inkişaf yolu ilə tanış olmaq və öyrənməkdir. Məsələniz mətbuat konfransında həmkarlarınıza tədqiqatın nəticələrini – "Cənubi Koreyanın iqtisadi möcüzəsini" təqdim etmək və onları yaşıl iqtisadiyyatın üstünlüyünə inandırmaqdır, çünki bu, ətraf mühitə mənfi təsirin minimal olduğu, indiki və gələcək nəsillərin firavanlığının yüksəldilməsinə yönəlmiş innovativ iqtisadiyyatın bir hissəsidir.

**Araşdırma hesabatında xüsusilə göstərməlisiniz:**

- Cənubi Koreyanın "iqtisadi möcüzəsi" və onun "Asiya pələngi" kimi formalaşması prosesində coğrafi yerləşmə və təbii şərait hansı rol oynayır **(coğrafi təbəqə, əs.təs. 1, 2);**
- Yaşıl iqtisadiyyatın möcüzəsi əhalinin həyat şəraitinə və iqtisadi inkişaf səviyyəsinə necə təsir edir **(Əhali və təsərrüfat, əs.təs. 1, 2);**
- Dövlətin və əhalinin qərarları ölkənin inkişaf prosesinə necə təsir edir **(Əhali və təsərrüfat, əs.təs. 3);**
- Cənubi Koreya gələcəkdə necə inkişaf edəcək və ekoloji tələblərin təmin edilməsi əsasında insan firavanlığı necə dəyişəcək və davamlı dünyanın quruculuğu prosesində ölkə hansı rol oynayacaq. **(Dayanıqlı inkişaf, əs.təs. 1, 2).**

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br><br>**Şagird dərk etməlidir ki:** | **Qiymətləndirmə meyarı**<br><br>**Şagird bacarır:** | **İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:** |
|---|---|---|
| **Coğrafi təbəqə**<br>1. Coğrafi təbəqə bir sıra qanunauyğunluqlarla xarakterizə olunan geosferlərdən (litosfer, atmosfer, hidrosfer, biosfer) ibarətdir; bir coğrafi sahədə baş verən dəyişiklik başqa sahələrə də təsir edir;<br>2. İnsanların sayəsində digər sahələrə təsir göstərən noosfer (zəka sferası) yaranır.<br><br>**Əhali və təsərrüfat**<br>1. Təbii mühit əhaliyə və təsərrüfata təsir göstərir. Müxtəlif ölkədə təsərrüfatın bu və ya digər sahəsi aparıcıdır və bu da əməyin coğrafi bölgüsünə səbəb olur;<br>2. Əhali və təsərrüfat strukturu, bölgüsü və yerləşməsi vaxtda və məkanda dəyişkəndir;<br>3. Dövlət ölkədə baş verən sosial-iqtisadi proseslərə təsir göstərir və bu da onun inkişafı səviyyəsində öz əksini tapır.<br><br>**Davamlı inkişaf**<br>1. Yerli əməllər qlobal nəticələrə gətirib çıxara bilərlər;<br>2. Davamlı inkişaf məqsədlərinin (sosial, iqtisadi, ətraf mühitin mühafizəsi və firavanlıq) yerinə yetirilməsi gələcək nəsillərin firavanlığı üçün vacibdir. | **Coğrafi təbəqə**<br>• Konkret nümunələr əsasında ölkənin inkişaf prosesinə coğrafi yerləşmənin və təbii şəraitin təsirini başa düşür **(əs.təs.1,2).**<br><br>**Əhali və təsərrüfat**<br>• İstənilən ölkənin timsalında yaşıl iqtisadiyyatın əhalinin iqtisadi fəallığında rolunu qiymətləndirir **(əs.təs. 1,2);**<br>• İqtisadi inkişaf prosesində dövlətin həyata keçirdiyi siyasətin nəticələrini təhlil edir **(əs.təs.3).**<br><br>**Davamlı inkişaf**<br>• Konkret bir ölkənin timsalında dayanıqlı dünyanın quruculuq prosesində yaşıl iqtisadiyyatın rolunu dərk edir **(əs.təs.1,2).** | • Cənubi Koreyanın "iqtisadi möcüzəsi" və onun "Asiya pələngi" kimi formalaşması prosesində coğrafi yerləşmə və təbii şərait hansı rol oynayır **(coğrafi təbəqə, əs.təs. 1, 2);**<br>• Yaşıl iqtisadiyyatın möcüzəsi əhalinin həyat şəraitinə və iqtisadi inkişaf səviyyəsinə necə təsir edir **(Əhali və təsərrüfat, əs.təs. 1, 2);**<br>• Dövlətin və əhalinin qərarları ölkənin inkişaf prosesinə necə təsir edir **(Əhali və təsərrüfat, əs.təs. 3);**<br>• Cənubi Koreya gələcəkdə necə inkişaf edəcək və ekoloji tələblərin təmin edilməsi əsasında insan firavanlığı necə dəyişəcək və davamlı dünyanın quruculuğu prosesində ölkə hansı rol oynayacaq. **(Davamlı inkişaf, əs.təs. 1, 2).)** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I mərhələ – Kompleks tapşırığın şərti ilə tanışlıq**
**Resurslar/Təhlil ediləsi hallar (keyslər):**

**Dərslik – Coğrafiya XI sinif**
**Paraqraf 5 – Yaşıl iqtisadiyyat:**

1. Araşdırma hesabatını necə yaradaq? https://www.living-democracy.com/ge/textbooks/volume-2/students-manual-10/tool-2/toolbox-1/
2. Proqram – earth.google.com
3. Cənubi Koreyanın „İqtisadi möcuzəsi“ – http://geoeconomics.ge/?p=13343
4. Yaşıl iqtisadiyyat dilemması – https://greenalt.org/app/uploads/2019/02/Green_Economy_Dilemma_Geo.pdf
5. Yaşıl iqtisadiyyat və yoxsulluq – https://goo.su/VH67GZ
6. Qlobal qıtlıq şəraitində yaşıl və göy iqtisadiyyat konsepsiyaları– https://goo.su/Tzuii3
7. Yaşıl iqtisadiyyat: mahiyyət və çağırışlar– https://goo.su/rpy3
8. Yaşıl iqtisadiyyat və Gürcüstan – http://geoeconomics.ge/?p=12751
9. Yaşıl iqtisadiyyat konsepsiyası və qlobal yaşıl iqtisadiyyatda Gürcüstanın mövqeyi – https://goo.su/uGPu

**Resurs 1**
**Tövsiyə olunan fəaliyyət (Resurs 1 əsasında yerinə yetirilir):**

- Tədqiqat hesabatını necə yaratmaq olar?
- Tədqiqat hesabatını hazırlayarkən nələri nəzərə almalısınız?
- Tədqiqat hesabatını hazırlanarkən hansı addımları atmalısınız?

**Resurs 2**
**Tövsiyə olunan fəaliyyət (Resurs 2-nin əsasında yerinə yetirilir):**

**Proqram – Google Earth – aşağıdakılarla tanış olmağa və təyin etməyə kömək edəcək:**

- Cənubi Koreyanın coğrafi mövqeyi;
- Cənubi Koreyanın təbii şəraiti.

**Resurs 3 və 4**
**Tövsiyə olunan fəaliyyət (Resurs 3 və 4-ün əsasında yerinə yetirilir):**

- Cənubi Koreyanın iqtisadi nailiyyətləri və göstəriciləri hansılardır?
- Dövlətin iqtisadi inkişaf strategiyası Cənubi Koreyanın inkişafına necə təsir edir?

**Resurs 5, 6 və 7**
**Tövsiyə olunan fəaliyyət (Resurs 5, 6 və 7-nin əsasında yerinə yetirilir):**

- Yaşıl iqtisadiyyat konsepsiyası nə üçün vacibdir?
- Nə üçün dövlət yaşıl iqtisadiyyat konsepsiyasını seçməlidir?

**Resurs 8 və 9**
**Tövsiyə olunan fəaliyyət (Resurs 8 və 9-un əsasında yerinə yetirilir):**

- Gürcüstanın yaşıl iqtisadiyyatda mövqeyi necədir?
- Gürcüstanın Cənubi Koreya ilə münasibətləri necədir?

**Kompleks tapşırığın şərtinin dərk edilməsinə yönəlmiş suallar:**

**Altməsələ – Coğrafi yerləşmə, təbii şərait, qlobal problemlər:**

- Yaşıl iqtisadiyyat anlayışı nədir və o, Cənubi Koreyanın inkişaf prosesində hansı rolu oynamışdı?
- Cənubi Koreyanın coğrafi mövqeyi və təbii şəraiti ölkənin inkişafına nə kimi təsir göstərir?

**Altməsələ – iqtisadiyyat, dairəvi iqtisadiyyat, yaşıl iş yerləri, dövlət strategiyası:**

- Yaşıl iqtisadiyyata keçid əhalinin həyat səviyyəsinə necə təsir edəcək?
- Yaşıl iqtisadiyyata keçid əhalinin fəaliyyətinə necə təsir etdi?

**Altməsələ: Qlobal "yaşıl" iqtisadiyyat indeksi, Ətraf mühitin effektivliyi indeksi:**

- Dövlət Cənubi Koreya əhalisinin davamlı gələcəyini necə təmin etməlidir?

**Kompleks tapşırıq**
- Öz sözlərinizlə formalaşdırın ki, bir neçə dərs üzərində işləməli olacağınız bu gün verilən tapşırıq nəyə aiddir?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisinizmi?

**II mərhələ – kompleks tapşırıq üzərində iş**
**Hədəf anlayışı – coğrafi təbəqə**
**Altanlayış** – noosfer/antropogen landşaftlar
**Altməsələ** – Cənubi Koreyanın coğrafi yerləşməsi, Cənubi Koreyanın təbii şəraiti

**Addım 1**

Cənubi Koreyanın "iqtisadi möcüzəsi" və onun "Asiya pələngi" kimi formalaşması prosesində coğrafi yerləşmə və təbii şərait hansı rol oynayır **(coğrafi təbəqə, əs.təs. 1, 2);**

**Fəaliyyət 1 – Xəritə üzərində iş:**

Earth.google.com proqramı vasitəsilə təyin edin:
- Cənubi Koreyanın coğrafi yerləşməsini;
- Cənubi Koreya ilə həmsərhəd ölkələri;
- Cənubi Koreyanın təbii şəraitini.

**Fəaliyyət 2 – Məqalənin təhlili:**

Məqaləni oxuyun (Resurs 3) və təyin edin:
- Cənubi Koreya hansı inkişaf yolunu keçib?
- Cənubi Koreya inkişaf etməkdə olan ölkədən necə inkişaf etmiş ölkə oldu?
- Cənubi Koreyanın iqtisadi nailiyyətləri və göstəriciləri necədir?
- Cənubi Koreyanın "Asiya pələngi" kimi formalaşmasına hansı amillər səbəb oldu?

**Hədəf anlayışı – Əhali və təsərrüfat**
**Altanlayış** – təsərrüfat strukturu, dördüncü və beşinci sahələr
**Altməsələ** – iqtisadiyyat, dövrə iqtisadiyyatı, yaşıl iş yerləri, dövlət strategiyası

**Addım 2**

- Yaşıl iqtisadiyyatın möcüzəsi əhalinin həyat şəraitinə və iqtisadi inkişaf səviyyəsinə necə təsir edir **(Əhali və təsərrüfat, əs.təs. 1, 2);**
- Dövlətin və əhalinin qərarları ölkənin inkişaf prosesinə necə təsir edir **(Əhali və təsərrüfat, əs.təs. 3);**

**Fəaliyyət 3 – Suallara cavab:**

İş dəftərindəki 1, 2 və 3-cü tapşırıqları yerinə yetirin (səh. 45) və suala cavab verin:
- Yaşıl iqtisadiyyatın yaradılması üçün ilkin şərtlər nə idi?
- Yaşıl iqtisadiyyata nə daxildir?
- Şək. 5.7-yə (səh. 102) uyğun olaraq xətti və dairəvi iqtisadiyyat modellərini müqayisə edin və nə üçün xətti iqtisadiyyatdan dairəvi iqtisadiyyata keçidin daha vacib olduğunu müzakirə edin.

**Fəaliyyət 4 – Hadisənin analizinin müzakirəsi – dilemmanın həlli:**

Dilemmanı həll etmək üçün – siz hansı "yaşıl" və ya "göy" iqtisadiyyata üstünlük verirsiniz və nə üçün – dərslikdəki Resurs 6 və Hadisənin analizi 2 (səh.106) ilə tanış olun və əlavə edilən suallara cavab verin.

Sxemi doldurun və dilemmanı müzakirə edin: Sizcə, dayanıqlı inkişafın yeni konsepsiyasının dəstəkləndirilməsi hansı “yaşıl” və ya “göy” iqtisadiyyatin irəliləyişidir?

| GÖY İQTİSADİYYAT | YAŞIL İQTİSADİYYAT |
|---|---|
| | |

**Fəaliyyət 4 – Hadisənin analizinin müzakirəsi:**

Resurs 4-ə, dərslikdəki mətnə və Hadisənin analizi 4-ə (səh. 114) baxın, əlavə olunan suallara cavab verin və bunların əsasında izah edin:

- Yaşıl iqtisadiyyata keçid prosesində Cənubi Koreyanın iqtisadi möcüzəsinə səbəb olan ən mühüm və effektiv fəaliyyət hansı olub?

**Fəaliyyət 5 – Suallara cavab:**

Resurs 5-ə baxın, iş dəftərinizdə 5-ci tapşırığı (səh. 46) yerinə yetirin və izah edin:

- Yaşıl iqtisadiyyata keçid əhalinin həyat səviyyəsinə necə təsir edəcək?
- Yaşıl iqtisadiyyata keçid əhalinin fəaliyyətinə necə təsir edəcək?

**Hədəf anlayışı – Davamlı inkişaf**
**Altanlayış** – əhalinin təhlükəsizliyi və firavanlığı
**Altməsə** – Qlobal “yaşıl” iqtisadiyyat indeksi, ətraf mühitin effektivlik indeksi.

**Addım 3**

Cənubi Koreya gələcəkdə necə inkişaf edəcək və ekoloji tələblərin təmin edilməsi əsasında insan firavanlığı necə dəyişəcək və davamlı dünyanın quruculuğu prosesində ölkə hansı rol oynayacaq. **(Davamlı inkişaf, əs.təs. 1, 2).**

**Fəaliyyət 6 – Suallara cavab və sxem üzərində iş:**

Şagirdlər qruplarda işləyir, 7, 8 və 9-cu resursları müzakirə edir və suallara cavab verirlər:
- Dünya iqtisadiyyatının yaşıllaşmasına nə səbəb oldu və onun təsiri nəticəsində dünya iqtisadiyyatının strukturunda hansı dəyişikliklər baş verdi?
- Ekoloji cəhətdən təhlükəli müəssisənin tikintisi ölkələr arasında münasibətlərə necə təsir edir?
- “Yaşıl iqtisadiyyat davamlı inkişafın əsası və davamlı inkişaf məqsədlərinə nail olunmasının təməl daşıdır” fikri ilə razısınızmı – cavabınızı əsaslandırın.

Şagirdin iş dəftərində 4-cü tapşırığı yerinə yetirirlər (səh. 46), cədvəli doldurur və müzakirə edirlər:

- Tərəfdarlar və əleyhdarlar qrup üzvlərinin arqumentləri nə dərəcədə əsaslıdır?
- Yaşıl iqtisadiyyatın inkişafını yeni ("yaşıl" adlanan) sənaye inqilabı hesab etmək olarmı?
- https://goo.su/k4EtY35 saytında dayanıqlı inkişaf məqsədləri ilə tanış olun və onlardan hansının "yaşıl" iqtisadiyyata aid olduğunu müəyyənləşdirin?
- Mütəxəssislərin "yaşıl iqtisadiyyat müsbət ekoloji və sosial şəraitin yaradılmasını dəstəkləmək üçün iqtisadi siyasəti dəyişib" fikri ilə razı olub-olmadığınızı izah edin. Fikrinizi sübut etmək üçün arqumentlər gətirin.

**Fəaliyyət 7 – İdeyalar çarxı:**

Şagirdlər qrupda maraqlı tərəfləri yaşıl iqtisadiyyatın üstünlüklərinə necə inandıracaqları barədə razılığa gəlirlər – bunun səbəbini izah edirlər.

- Gürcüstanda yaşıl iqtisadiyyat necə inkişaf edir?
- Hansı addımlar atılıb?

Cənubi Koreyanın nümunəsindən istifadə edərək yaşıl iqtisadiyyata keçid prosesində nələrin edilə biləcəyini planlaşdırmalıdırlar.
İdeyalar ideya çarxında yerləşdirilir (sxem nümunəsinə baxın).



**Fəaliyyət 8 – Rol oyunu – Konfrans:**

Şagirdlər konfransda kompleks tapşırıqlar təqdim edəcəklər. Sinif tərəfindən seçilən ekspertlər natiqin nə dərəcədə arqumentativ və inandırıcı çıxış etdiyini qiymətləndirəcək və tövsiyələr verəcəklər.
Ekspert qrupları ehtiyacdan asılı olaraq dəyişir. Tədqiqat hesabatını təqdim edən şagird avtomatik olaraq ekspert qrupundan kənarlaşdırılır.

**Kompleks tapşırığı yerinə yetirərkən və təqdimat prosesində müəyyən şagirdlə fərdi iş üçün müəllim tərəfindən verilən suallar: (Baxın, Tövsiyə, səh. 34, Suallar səh. 33).**

**Hadisə 3. Hadisənin analizi**

Cənubi Koreya yaşıl iqtisadiyyat ideyasını milli strategiya kimi tanıyan ilk dövlətlərdən biridir.

XXI əsrin əvvəllərində məlum oldu ki, ölkənin uğurlarına səbəb olan köhnə strategiyalar artıq qüvvədə deyil. Buna görə də, 2008-ci ildə hökumət aşağı karbondan ibarət Yaşıl İnkişaf Strategiyasını (Low Carbon Green Growth) təqdim etdi. O vaxtdan bəri ölkənin ümumi daxili məhsulunun təxminən 2%-i yaşıl texnologiyanın tətbiqi və inkişaf layihələrindən əldə olunur. Yaşıl enerjiyə, yaşıl nəqliyyat növlərinə, tullantıların emalı üçün yaşıl texnologiyalara və ekoloji tədqiqatlara diqqət yetirilir.

2010-cu ilin iyun ayında Seulda inkişaf etməkdə olan ölkələrə yardım və məsləhətlər vermək məqsədilə, 27 ölkəni birləşdirən, bir çox beynəlxalq təşkilat və qurumların tərəfdaşı olan elmi tədqiqat mərkəzi – Qlobal Yaşıl İnkişaf İnstitutu (GGGI) fəaliyyətə başladı. Onun sayəsində 2017-ci ildə bu ölkələrdə yaşıl iqtisadiyyatın inkişafı prosesinə yatırılan investisiyalar 524,6 milyon dollar təşkil edib.

2011-ci ildən Koreyada unikal yaşıl ödəniş kartları sistemi fəaliyyət göstərir. Koreyalılar üzvi məhsullar (eko-məhsullar) almaqla, ictimai nəqliyyatdan istifadə etməklə və hətta nəğd puldan imtina etməklə xal toplayırlar ki, bu xalları daha sonra kommunal ödənişlərə xərcləyə və ya xeyriyyəçiliyə bağışlaya bilərlər. Bu proqram Cənubi Koreyanın 2020-ci ilə qədər istixana qazı emissiyalarını 30% azaltmaq planının bir hissəsi idi.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına (UNFCCC) əsasən, 2016-cı ilin dekabr ayına olan məlumata görə, Cənubi Koreyada verilmiş yaşıl kartların sayı 15 milyonu ötüb ki, bu da ölkənin iqtisadi fəal əhalisinin 55%-nə bərabərdir.

**Mənbə:** Şagird kitabı, səh: 114.

# II FƏSİL

| | | | |
|---|---|---|---|
| **SİNİF:** XI<br>**MÖVZUNUN ADI:** QLOBAL SİYASİ PROBLEMLƏR VƏ DƏYİŞİKLİKLƏR<br>**ƏSAS VƏSAİT:** DƏRSLIK | | | |
| **Hədəf anlayışı** | **Məsələ 1**<br>Mədəni qloballaşma – Türkiyə – Osmanlı İmperiyasından qlobal ölkəyə qədər. | **Məsələ 2**<br>Münaqişələr, resurs müharibələri, terrorizm – Rusiya-Ukrayna münaqişəsi. | **Məsələ 3**<br>Təhlükəsizlik, sülhün müdafiəsi – Gürcüstanda sülh parkı – dövlətlərarası münaqişələrin həllinin davamlı yolu. |
| **Coğrafi təbəqə** | **Altməsələ:** Türkiyənin coğrafi yerləşməsi, Türkiyənin təbii şəraiti.<br><br>**Alt anlayış:** noosfer – antropogen landşaftlar. | **Altməsələ:** Rusiya və Ukraynanın coğrafi yerləşməsi, resurslar, landşaftın tənəzzülü.<br><br>**Alt anlayış:** noosfer – təbii və texnogen təhlükələr. | **Altməsələ:** „Yaşıl qurşaq“, sülh parkı.<br><br>**Alt anlayış:** noosfer – qorunan ərazilər |
| **Əhali və təsərrüfat** | **Altməsələ:** Türkiyənin mədəniyyəti, sosial qloballaşma, Türkiyə əhalisinin həyat səviyyəsi.<br><br>**Alt anlayış: Əhalinin strukturu –** əhalinin həyat səviyyəsi. | **Altməsələ:** Rusiya və Ukrayna əhalisinin ölüm, doğum səviyyəsi, işsizlik, miqrasiya.<br><br>**Alt anlayış:** Əhalinin strukturu – demoqrafik və sosial problemlər. | **Altməsələ:** Sülh indeksi, əhalinin fəaliyyəti, tərksilah, militarizasiya.<br><br>**Alt anlayış:** Əhalinin strukturu – əhalinin həyat səviyyəsi. |
| **Davamlı inkişaf** | **Altməsələ:** Türkiyə əhalisinin məişət həyatı.<br><br>**Alt anlayış:** cəmiyyət – əhalinin firavanlığı. | **Altməsələ:** Rusiya və Ukraynada ətraf mühitin çirklənməsi, xəstəliklərin yayılması, səhiyyə, aclıq.<br><br>**Alt anlayış:** ətraf mühit – ətraf mühit problemləri. | **Altməsələ:** geosiyasi problemlər, işarələnmiş zona.<br><br>**Alt anlayış:** cəmiyyət – əhalinin təhlükəsizliyi və həyat səviyyəsi. |
| **Kompleks tapşırıq** | **Kompleks tapşırıq 1**<br>Qloballaşma prosesinin Türkiyə dövlətinin inkişafındakı rolu və əhəmiyyəti haqqında lepbukun hazırlanması. | **Kompleks tapşırıq 2**<br>Rusiya-Ukrayna münaqişəsi və onun ehtimal olunan nəticələri haqqında televiziya proqramı üçün ssenarinin yaradılması. | **Kompleks tapşırıq 3**<br>Dövlətlərarası münaqişələrin həlli və ətraf mühitin mühafizəsi üçün Sülh Parkı layihəsinin hazırlanması. |
| **Kompleks tapşırığı yerinə yetirmək üçün Resurslar** | **Dərslik – Coğrafiya XI sinif, paraqraf 11. –**<br>Mədəni qloballaşma. | **Dərslik – Coğrafiya XI sinif, paraqraf 13. –**<br>Münaqişələr, resurs müharibələri, terrorizm | **Dərslik – Coğrafiya XI sinif, paraqraf 14. –**<br>Təhlükəsizlik, sülhün qorunması. |

**Mövzu ilə bağlı əsas təsəvvürlər:**

- Qloballaşma prosesində ölkənin inkişafına coğrafi yerləşmə və təbii şərait təsir göstərir;
- Münaqişələr noosferdə dəyişikliklərə səbəb olan coğrafi yerləşmə və resurslarla bağlıdır;
- Təbii mühit dövlətlərarası dinc birgəyaşayışda mühüm rol oynayır;
- Antropogen amillər təbii proseslərə təsir edir;
- Qlobal siyasi proseslər əhalinin sosial-mədəni qloballaşması prosesini müəyyən edir;
- Mədəni qloballaşma əhalinin həyat səviyyəsinə və keyfiyyətinə təsir göstərir;
- Mədəniyyətdə qloballaşma qlobal cəmiyyətin formalaşmasına gətirib çıxarır;
- Münaqişədə iştirak edən əhalinin həyat tərzi dəyişir ki, bu da onun dinamikasına və həyat tərzinə təsir göstərir;
- Təbii şərait insanların həyatına və təhlükəsizliyinə təsir göstərir;
- Dövlət siyasətinin əsas məsələlərindən biri əhalinin təhlükəsizliyinin qorunmasıdır;
- Ölkənin təbii şəraiti ilə əhalinin qarşılıqlı əlaqəsi əhalinin məlumatlılıq səviyyəsindən asılıdır;
- Mədəni qloballaşma prosesində kütləvi informasiya vasitələri mühüm rol oynayır;
- Münaqişələr əhalinin sağlamlığına və həyat keyfiyyətinə, eləcə də ətraf mühitin davamlılığına təsir edən ekoloji problemlər yaradır;
- Qlobal geosiyasi problemlərin həllində beynəlxalq əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.

# Kompleks tapşırıq 1

**Mövzu** – Qlobal siyasi problemlər və dəyişikliklər
**Məsələ** – Türkiyə – Osmanlı İmperiyasından qlobal ölkəyə qədər (mədəni qloballaşma)

**Hədəf anlayışı** – coğrafi təbəqə; **Altanlayış** – noosfer – antropogen landşaftlar;
**Altməsələ:** Türkiyənin coğrafi yerləşməsi, Türkiyənin təbii şəraiti.

**Hədəf anlayışı** – əhali və təsərrüfat; **Altanlayış** – əhalinin strukturu – əhalinin həyat səviyyəsi;
**Altməsələ:** Türkiyənin mədəniyyəti, sosial qloballaşma, Türkiyə əhalisinin həyat səviyyəsi.

**Hədəf anlayışı** – davamlı inkişaf; **Altanlayış** – cəmiyyət – əhalinin firavanlığı;
**Altməsələ:** Türkiyə əhalisinin məişət həyatı.

**Əsas sual** – Qloballaşmanın Türkiyənin inkişafına təsiri ilə bağlı fikrimi ictimaiyyəti və medianı maraqlandıracaq şəkildə lepbuk vasitəsilə necə çatdıra bilərəm?

**Kompleks tapşırığın şərti**



Müasir dünyada baş verən qloballaşma prosesi, daha dəqiq desək, onun nəticələri və təsiri haqqında vahid fikir yoxdur. Qloballaşmanın həm tərəfdarları, həm də əleyhdarları var, onlar nümunələr əsasında prosesi təhlil edir, qloballaşmanın müsbət və mənfi tərəflərini müzakirə edirlər.

Qloballaşma hər bir ölkənin iqtisadiyyatının və mədəniyyətinin inkişafına təkan verə bilər və ya əksinə, mənfi təsir göstərə bilər.

Qloballaşma prosesi insanların həyat səviyyəsinin yaxşılaşmasına, istehsal imkanlarının artmasına, istehsal olunan mal və xidmətlərin rəngarəngliyinə dəstək verir və bu da innovasiyaların və texnoloji nailiyyətlərin ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərir.

Təsəvvür edin ki, siz Qlobal İdarəetmə İnstitutunun əməkdaşısınız. Məqsədiniz Türkiyə əhalisinin və medianın diqqətini qloballaşma və deqloballaşma məsələlərinə cəlb etməkdir.

Qloballaşma prosesinin Türkiyə dövlətinin inkişafındakı rolu və əhəmiyyəti ilə bağlı şəxsi münasibətinizi/fikirinizi çatdıran lepbuk yaradın. Lepbukda hansı prosesi dəstəklədiyinizi göstərin: qloballaşmanı və ya deqloballaşmanı?

**Lepbukda xüsusilə göstərin:**

- Türkiyənin iqtisadi inkişafı və əhalisinin qlobal cəmiyyət kimi formalaşması prosesində coğrafi mövqeyi və təbii şəraiti nə kimi rol oynayır **(coğrafi təbəqə, əs.təs.1);**
- Qloballaşma prosesi Türkiyə əhalisinin həyat şəraitinə və iqtisadi inkişafına necə təsir edir **(əhali və təsərrüfat, əs.təs. 1,2);**
- Türkiyədə qloballaşma prosesi necə inkişaf edəcək və davamlı dünya quruculuğu prosesində ölkə hansı rolu oynayacaq **(davamlı inkişaf, əs.təs.1,2).**

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br><br>**Şagird dərk etməlidir ki:** | **Qiymətləndirmə meyarı**<br><br>**Şagird bacarır:** | **İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:** |
|---|---|---|
| **Coğrafi təbəqə**<br>1. Coğrafi təbəqə bir sıra qanunauyğunluqlarla xarakterizə olunan geosferlərdən (litosfer, atmosfer, hidrosfer, biosfer) ibarətdir; bir coğrafi sahədə baş verən dəyişiklik başqa sahələrə də təsir edir;<br>2. İnsanların sayəsində digər sahələrə təsir göstərən noosfer (zəka sferası) yaranır.<br><br>**Əhali və təsərrüfat**<br>1. Təbii mühit əhaliyə və təsərrüfata təsir göstərir. Müxtəlif ölkədə təsərrüfatın bu və ya digər sahəsi aparıcıdır və bu da əməyin coğrafi bölgüsünə səbəb olur;<br>2. Əhali və təsərrüfat strukturu, bölgüsü və yerləşməsi vaxtda və məkanda dəyişkəndir;<br>3. Dövlət ölkədə baş verən sosial-iqtisadi proseslərə təsir göstərir və bu da onun inkişafı səviyyəsində öz əksini tapır.<br><br>**Davamlı inkişaf**<br>1. Yerli əməllər qlobal nəticələrə gətirib çıxara bilər;<br>2. Davamlı inkişaf məqsədlərinin (sosial, iqtisadi, ətraf mühitin mühafizəsi və firavanlıq) yerinə yetirilməsi gələcək nəsillərin firavanlığı üçün vacibdir. | **Coğrafi təbəqə**<br>• Konkret misallar əsasında qlobal cəmiyyətin formalaşması prosesində coğrafi yerin və təbii şəraitin təsirini başa düşür **(əs.təs.1,2).**<br><br>**Əhali və təsərrüfat**<br>• İstənilən ölkənin nümunəsi əsasında, əhalinin iqtisadi inkişafı prosesində qloballaşma prosesinin nəticələrini qiymətləndirməyi **(əs. təs.1,2);**<br>• Qloballaşma prosesində dövlətin həyata keçirdiyi siyasətin nəticələrini təhlil etməyi **(əs.təs.3).**<br><br>**Davamlı inkişaf**<br>• Konkret ölkənin misalında davamlı dünyanın yaradılması prosesində qloballaşmanın əhəmiyyəti təhlil etməyi **(əs.təs. 1, 2).** | • Türkiyənin iqtisadi inkişafı və əhalisinin qlobal cəmiyyət kimi formalaşması prosesində coğrafi mövqeyi və təbii şəraiti nə kimi rol oynayır **(coğrafi təbəqə, əs.təs.1);**<br>• Qloballaşma prosesi Türkiyə əhalisinin həyat şəraitinə və iqtisadi inkişafına necə təsir edir **(əhali və təsərrüfat, əs.təs. 1,2);**<br>• Türkiyədə qloballaşma prosesi necə inkişaf edəcək və davamlı dünya quruculuğu prosesində ölkə hansı rolu oynayacaq **(davamlı inkişaf, əs.təs.1,2).** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I mərhələ – Kompleks tapşırığın şərti ilə tanışlıq**
**Resurslar/Təhlil ediləsi hallar (keyslər):**

1. Dərslik – Coğrafiya XI sinif, paraqraf 11. – Mədəni qloballaşma
2. Lepbuku necə yaradaq – http://mastsavlebeli.ge/?p=34888
3. Proqram – earth.google.com
4. Türkiyə – qloballaşma – https://www.theglobaleconomy.com/Turkey/kof_overall_glob/
5. Sandro Bakuradze – Urbanizasiya və dəyişmiş Türkiyə cəmiyyəti – https://goo.su/94ra9
6. Video – 42° paralel – Ətraf mühitə qarşı türk şübhəsi – Sevri sindromu /Trampın iqtisadi siyasətinin analizi – https://www.youtube.com/watch?v=LWrcdYTz-Wk&t=885s
7. Zurab Davitaşvili – Qloballaşma və mədəniyyət – https://gfsis.org.ge/files/my-world/19/3.pdf

**Resurs 1**
**Tövsiyə olunan fəaliyyət (Resurs 1-in əsasında yerinə yetirilir):**

- Lepbuku necə yaratmaq olar?
- Lepbuku hazırlayarkən nələrə diqqət etməlisiniz?
- Lepbuku hazırlayarkən hansı addımlar atılmalıdır?

**Resurs 2**
**Tövsiyə olunan fəaliyyət (Resurs 2-nin əsasında yerinə yetirilir):**

**Google Earth proqramı sizə aşağıdakılarla tanış olmaqda kömək edəcək:**

- Türkiyənin coğrafi mövqeyi ilə;
- Türkiyənin təbii şəraiti ilə.

**Resurs 3**
**Tövsiyə olunan fəaliyyət (Resurs 3-ün əsasında yerinə yetirilir):**

- Türkiyənin qloballaşma göstəriciləri hansılardır?
- Qloballaşma mədəniyyətdə necə əks olunur və qlobal cəmiyyət necə formalaşır?

**Resurs 4**
**Tövsiyə olunan fəaliyyət (Resurs 4-ün əsasında yerinə yetirilir):**

- Qloballaşmanın insan həyatına təsiri necədir və ictimai həyatın hansı sahələrində qloballaşma prosesi ən mübahisəlidir?
- Mədəni qloballaşmanın hərəkətverici qüvvəsi nədir?

**Resurs 5 – videoçarx**
**Tövsiyə olunan fəaliyyət (Resurs 5-in əsasında yerinə yetirilir):**

**Bu videoçarxın müzakirəsi sizə növbətini öyrənməyə kömək edəcək:**
Mədəni qloballaşma qloballaşmanın qalan növlərinə nə kimi təsir göstərir?

**Resurs 6**
**Tövsiyə olunan fəaliyyət (Resurs 6-nın əsasında yerinə yetirilir):**

- Mədəni fərqlilik mahiyyətcə dəyərli ön şərtdirmi?
- Müasir dünyanın müxtəlifliyi nədə və necə özünü göstərir?

**Kompleks tapşırığın şərtinin dərk edilməsinə yönəlmiş suallar:**

**Altməsələ – Coğrafi yerləşmə, təbii şərait, qlobal problemlər**
- Qloballaşma nədir və müasir dünyada hansı rol oynayır?
- Qloballaşma prosesində Türkiyənin coğrafi mövqeyi onun inkişafına nə kimi təsir göstərir?

**Altməsələlər – mədəniyyət, sosial qloballaşma, əhalinin həyat səviyyəsi**
- Qloballaşma prosesi əhalinin həyat səviyyəsinə necə təsir edir?
- Dövlət əhalinin təhlükəsizliyini necə qorumalıdır?

**Altməsələlər: mədəniyyət, əhalinin məişəti**
- Mədəni qloballaşmanın müsbət və mənfi nəticələri hansılardır?
- Hansı nəticələr ən vacibdir və nə üçün?

**Kompleks tapşırıq**
- Öz sözlərinizlə formalaşdırın ki, bir neçə dərs üzərində işləməli olacağınız bu gün verilən tapşırıq nəyə aiddir?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisinizmi?

**II mərhələ – kompleks tapşırıq üzərində iş**
**Hədəf anlayışı – coğrafi təbəqə**
**Altanlayış** – noosfer, antropogen landşaftlar
**Altməsələ** – Türkiyənin coğrafi yerləşməsi, Türkiyənin təbii şəraiti, qlobal problemlər

**Addım 1**

Türkiyənin iqtisadi inkişafı və əhalisinin qlobal cəmiyyət kimi formalaşması prosesində coğrafi mövqeyi və təbii şəraiti nə kimi rol oynayır? **(coğrafi təbəqə, əs.təs.1);**

**Fəaliyyət 1 – Xəritə üzərində iş:**

Earth.google.com proqramı vasitəsilə müəyyənləşdirin:
- Türkiyənin coğrafi mövqeyini;
- Türkiyə ilə həmsərhəd olan ölkələri;
- Türkiyənin təbii şəraitini: mühüm oroqrafik və hidroqrafik obyektləri, iqlim şəraiti və təbii zonaları.

**Fəaliyyət 2 – Qrafik təşkilatçının yaradılması – reytinq şkalası:**

Şagirdlər suallara cavab verir və qrafik təşkilatçılar üzərində işləyirlər.

1. Qloballaşmanı öz sözlərinizlə izah edin.
2. Qloballaşmanın növlərini sadalayın və hansının ən vacib və nə üçün olduğunu izah edin?
3. Reytinq şkalasını doldurun. Sadaladığınız qlobal problemləri əhəmiyyət sırasına görə sıralayın:



4. Qloballaşmanın növləri arasında hansı əlaqə var və Türkiyənin inkişaf prosesində qloballaşmanın formaları necə ifadə olunur?

**Hədəf anlayışı – Əhali və təsərrüfat**
**Altanlayış** – əhalinin həyat səviyyəsi
**Altməsələ** – mədəniyyət, sosial qloballaşma, əhalinin həyat səviyyəsi

**Addım 2**

Qloballaşma prosesi Türkiyə əhalisinin həyat şəraitinə və iqtisadi inkişafına necə təsir edir **(əhali və təsərrüfat, əs.təs. 1,2);**

**Fəaliyyət 3 – Kiçik diskussiya:**

Bir çox sosioloqlar və kulturoloqlar hesab edirlər ki, mədəniyyət artıq yalnız əcdadlarımızdan miras qalmış biliklər sistemi kimi qəbul edilmir. Onlar bunu insanların dəyişən şəraitə reaksiyası ilə dəyişən ideyalar, atributlar və gözləntilər toplusu kimi görürlər.

**Diskussiya sualı:** Ekspertlərin rəyi ilə razısınızmı? Cavabı əsaslandırın.

**Əlavə sual:** Sizcə, sosial qloballaşma yeni düşüncə tərzinin inkişafı, yeni həyat formalarının və standartlarının kəşfidir?

**Fəaliyyət 4 – Coğrafi tədqiqat:**

İş dəftərində 5-ci tapşırığı, Coğrafi araşdırma 2-ni (səh. 93) yerinə yetirin və Türkiyənin qloballaşma göstəricilərini müəyyənləşdirin.

**Sual:**
Sosial qloballaşma qloballaşmanın digər növlərinə hansı təsir göstərir?

**Fəaliyyət 5 – Suallara cavab:**

1. Dərslikdə şək. 11.2-də (səh. 259) verilmiş mədəniyyətlərin qarşılıqlı əlaqəsi prosesinin nəticələrinə baxın və onların hər birinin nə demək olduğunu öz sözlərinizlə izah etməyə çalışın. Hər bir nəticə üçün sizə tanış olan nümunələr gətirin.
2. Sizcə, mədəniyyətlərin qarşılıqlı əlaqəsi prosesinin nəticələrindən hansı daha vacibdir və nə üçün?
3. Qloballaşmanın mədəniyyətdə necə əks olunduğunu və qlobal cəmiyyətin necə formalaşdığını izah edin.

**Fəaliyyət 6 – Hadisənin analizinin müzakirəsi:**

Dərslikdəki Hadisənin analizi 1-ə (səh. 264) baxın, əlavə olunan suallara cavab verin və izah edin:
a. Qloballaşmanın insan həyatına nə kimi təsiri var?
b. Qloballaşmanın ən mübahisəli prosesi ictimai həyatın hansı sahələrində baş verir? Siz niyə belə fikirləşirsiniz?

**Fəaliyyət 7 – QAR metodundan istifadə edərək mətnin təhlili:**

İş dəftərinizdə 3-cü tapşırığı (səh. 96) yerinə yetirin. Mətni təhlil etmək və cədvəli doldurmaq üçün QAR metodundan istifadə edin.

QAR metodu cədvəli:

| | |
|---|---|
| **MƏHZ BURADA VƏ YA BİRBAŞA MƏTNDƏ**<br>**İzahat:**<br>1. Böyük sivilizasiyalar adlanan dörd mədəniyyət hansılardır? Dünyanın kontur xəritəsində bu 4 sivilizasiyanın yayılma sahəsini qeyd edin.<br>2. Hansı ölkələr Qərb mədəniyyətini könüllü qəbul edib mənimsəyiblər?<br>3. Mətndə indiki mərhələdə Amerika mədəniyyətinin aparıcı rolunu təsdiq edən sözləri tapın. Sizcə, bu nə dərəcədə obyektivdir? | **MÜƏLLİF VƏ SƏN**<br>**İzahat:**<br>1. Sənaye inqilabı qədim sivilizasiyaların mədəniyyətinə necə təsir etdi?<br>2. Müəllif “marjinal dünya” kimi hansı cəmiyyətləri nəzərdə tutur? |
| **FİKİRLƏŞ VƏ AXTAR**<br>**İzahat:**<br>1. Sizcə, Qərbi Avropa mədəniyyəti niyə bütün dünyaya yayılıb?<br>2. Sizcə, mədəniyyətdə eyni növlüyə dominant meylin yaranmasına nə səbəb ola bilər | **SƏNİN ÖZÜN (MÜSTƏQİL)**<br>**İzahat:**<br>1. Bu testdən dünyanın müxtəlif mədəniyyətlərinin qarşılıqlı əlaqəsi haqqında nə öyrəndiniz?<br>2. Sizcə, mədəni qloballaşma hər bir mədəniyyətin eyniyyətinin tədricən zəifləməsinə və onların birləşməsinə səbəb olurmu? |

**Hədəf anlayışı – Davamlı inkişaf**
**Altanlayış –** Əhalinin firavanlığı
**Altməsə –** Mədəniyyət, əhalinin məişət həyatı

**Addım 3**

Türkiyədə qloballaşma prosesi necə inkişaf edəcək və davamlı dünya quruculuğu prosesində ölkə hansı rolu oynayacaq **(davamlı inkişaf, əs.təs.1,2).**

**Fəaliyyət 8 – Suallara cavab və sxem üzərində iş:**

Şagirdlər qruplarda işləyirlər. Onlar aşağıdakı suallara cavab verməlidirlər:

1. Sizcə, mədəni qloballaşmanın hərəkətverici qüvvəsi nədir? Sizcə, mədəni fərqlilik mahiyyətcə dəyərli ön şərtdirmi? Müasir dünyanın müxtəlifliyi nədə və necə özünü göstərir?
2. Əgər dünya ölkələri bir-birindən kəskin şəkildə fərqlənirsə, bu halda niyə dünyanın birliyindən danışırıq?
3. Yadınıza salın, bəşər tarixində vahid, millətlərüstü mədəniyyətin formalaşdığı və yayıldığı məqamlar olubmu? Müasir dünyanın "Birlik müxtəliflikdədir" şüarını necə başa düşürsünüz?
4. Kütləvi informasiya vasitələrinin mədəni qloballaşma prosesində hansı rolu oynadığını izah edin?
5. Mədəni qloballaşmanın müsbət və mənfi təsirlərini müzakirə edin və konseptual sxemi doldurun. (Sxem nümunələrinə baxın)




6. Bu nəticələrdən hansını ən vacib hesab edirsiniz və niyə?

**Fəaliyyət 9 – İdeyalar çarxı:**

Şagirdlər qrupda razılaşırlar ki, əhalini necə məlumatlandıracaqlar və qloballaşma prosesinin Türkiyənin maraqlarına uyğun olduğunu coğrafi prizmadan necə izah edəcəklər? Arqumentlər gətirirlər.

İdeyalar ideya çarxına yerləşdirilir (sxem nümunəsinə baxın).



**Kompleks tapşırığı yerinə yetirərkən və təqdimat prosesində müəyyən şagirdlə fərdi iş üçün müəllim tərəfindən verilən suallar: (Baxın, Tövsiyə, səh. 34, Suallar səh. 33).**

**Hadisə 4. Hadisənin analizi**

Türkiyə mədəni rəngarəngliklə fərqlənir və müxtəlif Asiya bölgələrindən olan ünsürləri, eləcə də Avropa və Qafqaz ünsürlərini özündə birləşdirir. Əsasən də müxtəlif millətlərin və din nümayəndələrinin yaşadığı Osmanlı İmperiyasında formalaşmışdır.

XX-XXI əsrlər ərzində türk mədəniyyəti əhəmiyyətli dərəcədə dəyişdi. Osmanlı dövlətində etnik qruplar ayrı-ayrılıqda inkişaf edir və mədəni cəhətdən qaynayıb-qarışmırdılar. İmperiyanın süqutundan və Türkiyə Respublikasının elan edilməsindən sonra unitar siyasət həyata keçirildi, bu siyasət zamanı yeni adət-ənənələr və milli idrak yaratmaq məqsədilə, müxtəlif mədəniyyətlər bir-birinə qarışdı, nəticədə ölkədə çox böyük mədəni müxtəliflik yarandı. Yeni siyasət Atatürk dövründə həyata keçirilən müasirləşmə məqsədilə bütün sahələrin – cəmiyyətin, iqtisadiyyatın, təhsilin, modanın, mədəniyyətin qərbləşməsini nəzərdə tuturdu. Bunun nəticəsidir ki, bu gün Türkiyə ən müasir və inkişaf etmiş müsəlman ölkələrindən biridir.



**Mənbə:** Şagird kitabı, səh. 264

# Kompleks tapşırıq 2

**Mövzu** – Qlobal siyasi problemlər və dəyişikliklər
**Məsələ** – Münaqişələr, resurs müharibələri, terrorizm – Rusiya-Ukrayna münaqişəsi

**Hədəf anlayışı** – coğrafi təbəqə; **Altanlayış** – noosfer – təbii və texnogen təhlükələr;
**Altməsələ:** Rusiya və Ukraynanın coğrafi yerləşməsi, resurslar, landşaftın tənəzzülü.

**Hədəf anlayışı** – əhali və təsərrüfat; **Altanlayış** – əhalinin strukturu – demoqrafik və sosial problemlər;
**Altməsələ:** Rusiya və Ukrayna əhalisinin ölüm, doğum səviyyəsi, işsizlik, miqrasiya.

**Hədəf anlayışı** – davamlı inkişaf; **Altanlayış** – ətraf mühitin müdafiə problemləri;
**Altməsələ:** Rusiya və Ukraynada ətraf mühitin çirkləndirilməsi, xəstəliklərin yayılması, səhiyyə, aclıq.

**Əsas sual** – Rusiya-Ukrayna münaqişəsi ilə bağlı fikrimi necə ssenari ilə ictimaiyyəti maraqlandıracaq şəkildə çatdıra bilərəm?

**Kompleks tapşırığın şərti**



Ukrayna və Rusiya münaqişəsi uzun illərdir ki, davam edir. Rus millətçiləri ümumiyyətlə Ukraynanı müstəqil dövlət, Ukrayna xalqını isə ayrıca bir millət hesab etmirlər.

Hələ Kiyev Rusiyasından bəri, Ukrayna və Rusiya bir çox faciələri və zəfərləri birlikdə paylaşıblar. Bu iki xalqın tarixi həqiqətən də bir-birinə bağlıdır, lakin rus millətçiləri Ukraynanın müstəqilliyi ideyasını rədd edirlər. Bu gün Rusiya hökuməti də belə bir müzakirənin həmiştirakçısıdır, onun nümayəndələri hətta rəsmi bəyanatlarında belə Ukraynanın müstəqilliyini şübhə altına alırlar. Bununla belə, tarixşünaslıq müzakirələri ilə yanaşı, son illərdə Rusiya hakimiyyəti Ukrayna xalqı arasında fikir ayrılığı və mübahisələri qızışdırmaq üçün Ukraynanın yaxın tarixi ilə fəal şəkildə manipulyasiya edir.

Təsəvvür edin ki, siz Beynəlxalq Münaqişə və Danışıqlar Araşdırma Mərkəzinin (ICCN) əməkdaşısınız. Məqsədiniz əhalini məlumatlandırmaqdır ki, münaqişənin həllinin ən yaxşı yollarından biri onu təhlil etmək və əməkdaşlıq etməkdir.

Bunun üçün Rusiya-Ukrayna münaqişəsini öyrənin, ekspert konfliktoloqlar seçin və Rusiya-Ukrayna münaqişəsini regional və qlobal perspektivdən müzakirə edəcəyiniz televiziya proqramı üçün ssenari hazırlayın.

**Verilişin ssenarisində xüsusilə göstərməlisiniz:**

- Rusiya-Ukrayna münaqişəsində bu ölkələrin coğrafi mövqeyi və təbii şəraiti hansı rol oynayır və münaqişə noosferin formalaşmasına necə təsir edir **(coğrafi təbəqə, əs.təs. 1);**
- Rusiya-Ukrayna münaqişəsi əhalinin həyatına necə təsir edir və mövcud proseslərdə dövlət qərarları və beynəlxalq təşkilatlar hansı rol oynayır **(əhali və təsərrüfat, əs.təs. 1,2);**
- Rusiya-Ukrayna münaqişəsi regionun və dünyanın davamlı gələcəyinə necə təsir göstərəcək və onu necə dəyişəcək **(davamlı inkişaf, əs.təs.1,2).**

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br><br>**Şagird dərk etməlidir ki:** | **Qiymətləndirmə meyarı**<br><br>**Şagird bacarır:** | **İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:** |
|---|---|---|
| **Coğrafi təbəqə**<br>1. Coğrafi təbəqə bir sıra qanunauyğunluqlarla xarakterizə olunan geosferlərdən (litosfer, atmosfer, hidrosfer, biosfer) ibarətdir; bir coğrafi sahədə baş verən dəyişiklik başqa sahələrə də təsir edir;<br>2. İnsanların sayəsində digər sahələrə təsir göstərən noosfer (zəka sferası) yaranır.<br><br>**Əhali və təsərrüfat**<br>1. Təbii mühit əhaliyə və təsərrüfata təsir göstərir. Müxtəlif ölkədə təsərrüfatın bu və ya digər sahəsi aparıcıdır və bu da əməyin coğrafi bölgüsünə səbəb olur;<br>2. Əhali və təsərrüfat strukturu, bölgüsü və yerləşməsi vaxtda və məkanda dəyişkəndir;<br>3. Dövlət ölkədə baş verən sosial-iqtisadi proseslərə təsir göstərir və bu da onun inkişafı səviyyəsində öz əksini tapır.<br><br>**Davamlı inkişaf**<br>1. Yerli əməllər qlobal nəticələrə gətirib çıxara bilər;<br>2. Davamlı inkişaf məqsədlərinin (sosial, iqtisadi, ətraf mühitin mühafizəsi və firavanlıq) yerinə yetirilməsi gələcək nəsillərin firavanlığı üçün vacibdir. | **Coğrafi təbəqə**<br>• Konkret misallar əsasında, münaqişədə iştirak edən tərəflər üçün coğrafi yerin və təbii şəraitin təsirini başa düşür **(əs.təs.1,2)**.<br><br>**Əhali və təsərrüfat**<br>• İstənilən ölkənin timsalında əhalinin iqtisadi inkişafı prosesində münaqişələrin nəticələrini qiymətləndirir **(əs.təs.1,2)**;<br>• Münaqişələr prosesində dövlət tərəfindən həyata keçirilən siyasətin nəticələrini təhlil edir **(əs.təs.3)**.<br><br>**Davamlı inkişaf**<br>• Konkret ölkənin timsalında dayanıqlı dünyanın yaradılması prosesində münaqişələrin əhəmiyyətini təhlil edir **(əs.təs.1,2).** | • Rusiya-Ukrayna münaqişəsində bu ölkələrin coğrafi mövqeyi və təbii şəraiti hansı rol oynayır və münaqişə noosferin formalaşmasına necə təsir edir **(coğrafi təbəqə, əs.təs. 1);**<br>• Rusiya-Ukrayna münaqişəsi əhalinin həyatına necə təsir edir və mövcud proseslərdə dövlət qərarları və beynəlxalq təşkilatlar hansı rol oynayır **(əhali və təsərrüfat, əs.təs. 1,2);**<br>• Rusiya-Ukrayna münaqişəsi regionun və dünyanın davamlı gələcəyinə necə təsir göstərəcək və onu necə dəyişəcək **(davamlı inkişaf, əs.təs.1,2).** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I mərhələ – Kompleks tapşırığın şərti ilə tanışlıq**
**Resurslar/Təhlil ediləsi hallar (keyslər):**

**Dərslik – Coğrafiya XI sinif**
**Paraqraf 13. – Münaqişələr, resurs müharibələri, terrorizm:**
1. Verilişin ssenarisini necə yazaq – https://goo.su/NDWcA
2. Proqram – earth.google.com
3. Rusiya-Ukrayna münaqişəsi ilə bağlı dezinformasiya – yeddi mif aşkar edilib – https://goo.su/IzSkYXz
4. BMT: Ukrayna da, Rusiya da hərbi əsirlərə işgəncə verir – https://goo.su/bkZJt
5. „Çirkli yanacaq“ qızdırması. Putin müharibəsi planetə qızdırma təhlükəsi verir – https://goo.su/iENeR2
6. Ukrayna üçün müharibənin yetirdiyi ekoloji ziyanın qarşısının alınmasına illər lazımdır – https://goo.su/ sa7doJ
7. Ukrayna müharibəsi qlobal ərzağa nə kimi təsir göstərə bilər – https://ourworldindata.org/ukraine-russia-food
8. Ukraynada Rusiya müharibəsi və Gürcüstanın unudulmuş münaqişələri: https://www.freiheit.org/ka/germany/rusetis-omi-ukrainashi-da-sakartvelos-mivicqebuli-konpliktebi
9. Rusiya və Ukrayna – https://nationalgeographic.ge/ruseti-da-ukraina-gadakhlartuli-istoria-romelic-mat-akavshi-rebs-daashorebs- ertmanetisgan/
10. Ukraynada müharibə – https://ourworldindata.org/ukraine-war

**Resurs 1**
**Tövsiyə olunan fəaliyyət (Resurs 1-in əsasında yerinə yetirilir):**

- Verilişin ssenarisini necə yaratmaq olar?
- Verilişin ssenarisini hazırlayarkən nələrə diqqət etməlisiniz?
- Verilişin ssenarisinin hazırlanması zamanı hansı addımlar atılmalıdır?

**Resurs 2**
**Tövsiyə olunan fəaliyyət (Resurs 2-nin əsasında yerinə yetirilir):**

**Google Earth proqramı sizə aşağıdakılarla tanış olmaqda kömək edəcək:**

- Rusiya və Ukraynanın coğrafi mövqeyi ilə;
- Rusiya və Ukraynanın təbii şəraiti ilə: mühüm oroqrafik və hidroqrafik obyektlər və təbii ehtiyatlarla.

**Resurs 3 və 4**
**Tövsiyə olunan fəaliyyət (Resurs 3 və 4-ün əsasında yerinə yetirilir):**

- Münaqişələrin insan həyatına təsiri necədir?
- Münaqişələr əhalinin demoqrafik göstəricilərini və miqrasiya proseslərini necə dəyişir?
- Münaqişələr nəticəsində hansı sosial problemlər yaranır?

**Resurs 5, 6 və 7**
**Tövsiyə olunan fəaliyyət (Resurs 5, 6 və 7-nin əsasında yerinə yetirilir):**

- Münaqişələrin nəticələri ətraf mühitə necə təsir edir?
- Münaqişələr qlobal iqlim dəyişikliyinə necə təsir edir?
- Münaqişələr əhalinin həyat səviyyəsinə necə təsir edir?

**Resurs 8**
**Tövsiyə olunan fəaliyyət (Resurs 8-in əsasında yerinə yetirilir):**

- Abxaziyada və Tsxinvali bölgəsində/Cənubi Osetiyada nə gözləməliyik?

**Resurs 9**
**Tövsiyə olunan fəaliyyət (Resurs 9-un əsasında yerinə yetirilir):**

- Resurs Rusiya-Ukrayna münaqişəsinin yenilikləri ilə tanış olmaqda yardım edəcək.

**Kompleks tapşırığın şərtinin dərk edilməsinə yönəlmiş suallar:**

**Altməsələ – Coğrafi mövqe, relyef, iqlim, hidrosfer təbii zonaları, qlobal problemlər.**

- Hansı münaqişələr mövcuddur və bu, müasir dünyada nə kimi rol oynayır?
- Rusiya və Ukraynanın coğrafi mövqeyinin münaqişə prosesinə təsiri necədir?

**Altməsələ – ölüm, doğum səviyyəsi, işsizlik, miqrasiya**

- Münaqişələr əhalinin həyat səviyyəsinə necə təsir edir?
- Dövlət əhalinin təhlükəsizliyini necə qorumalıdır?

**Altməsələlər: ətraf mühitin çirkləndirilməsi, xəstəliklərin yayılması, səhiyyə, aclıq**

- Münaqişələrin müsbət və mənfi nəticələri hansılardır?
- Hansı nəticələr çox vacibdir və nə üçün?

**Kompleks tapşırıq**
- Öz sözlərinizlə formalaşdırın ki, bir neçə dərs üzərində işləməli olacağınız bu gün verilən tapşırıq nəyə aiddir?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisinizmi?

**II mərhələ – kompleks tapşırıq üzərində iş**
**Hədəf anlayışı – coğrafi təbəqə**
**Altanlayış** – noosfer, təbii və texnogen təhlükələr
**Altməsələ** – Ukrayna və Rusiyanın coğrafi yerləşməsi, təbii şəraiti, qlobal problemləri.

**Addım 1**

Rusiya-Ukrayna münaqişəsində bu ölkələrin coğrafi mövqeyi və təbii şəraiti hansı rol oynayır və münaqişə noosferin formalaşmasına necə təsir edir **(coğrafi təbəqə, əs.təs. 1);**

**Fəaliyyət 1 – Xəritə üzərində iş:**

Earth.google.com proqramı vasitəsilə müəyyənləşdirin:
- Rusiya və Ukraynanın coğrafi mövqeyini;
- Rusiya və Ukraynanın təbii şəraitini;
- Mühüm oroqrafik və hidroqrafik obyektləri;
- Təbii resursları.

**Fəaliyyət 2 – Coğrafi əyani vəsaitlər üzərində iş:**

Dərslikdə verilən məlumatları oxuyun və iş dəftərindəki 1-ci tapşırığı (səh. 104) yerinə yetirin.

1. Sizcə, təzahürü, səbəbi, təsir miqyası, müddəti və forması baxımından hansı növ münaqişədir?
2. Rusiya-Ukrayna münaqişəsini hansı münaqişə növünə aid edirsiniz?
3. Sizcə, ölkənin coğrafi mövqeyi, xüsusən də siyasi-coğrafi mövqeyi onun regional münaqişələrdə iştirakına təsir edirmi?
4. Sizcə, Rusiya-Ukrayna münaqişəsinin həlli yolları hansılardır və beynəlxalq birlik hansı rol oynayır?

**Fəaliyyət 3 – Hadisənin analizlərinin müzakirəsi:**

Şagirdlər dərslikdə verilən Hadisənin analizi 1 və 2 ilə (səh. 298-300) tanış olur, müşayiət olunan suallara cavab verir və Rusiya-Ukrayna münaqişəsini təzahür, səbəb, təsir miqyası, müddət və forma baxımından müqayisə edirlər. Nəticələri özlərinin hazırladıqları sxem şəklində göstərirlər.

**Hədəf anlayışı – Əhali və təsərrüfat**
**Altanlayış** – əhalinin strukturu, demoqrafik və sosial problemlər
**Altməsələ** – Ukraynada ölüm, doğum səviyyəsi, işsizlik, miqrasiya

**Addım 2**

Rusiya-Ukrayna münaqişəsi əhalinin həyatına necə təsir edir və mövcud proseslərdə dövlət qərarları və beynəlxalq təşkilatlar hansı rol oynayır **(əhali və təsərrüfat, əs.təs. 1,2,3);**

**Fəaliyyət 4 – Mətnin təhlili:**

**Resurs 3 və 4-ə baxın və suallara cavab verin:**

- Münaqişələrin insan həyatına təsiri necədir?
- Münaqişələr əhalinin demoqrafik göstəricilərini və miqrasiya proseslərini necə dəyişir?
- Münaqişələr zamanı hansı sosial problemlər yaranır?
- https://goo.su/CbbVvNm internet saytında Uşaq Hüquqları Konvensiyası ilə tanış olun və müzakirə edin ki, onların regional münaqişələrdə iştirakı zamanı hansı hüquqları pozulur? Sizcə, bu problem necə həll edilməlidir?

**Fəaliyyət 5 – Hadisənin analizinin müzakirəsi:**

Dərslikdə verilən Hadisənin analizi 3 və 4 ilə (səh. 304-311) tanış olun, müşayiət olunan suallara cavab verin və izah edin:

- XXI əsrin əsas geosiyasi problemləri hansılardır? Onları həll etməyin yollarına dair baxışınızı təqdim edin.
- Müharibə və sülh probleminin nə üçün müasir bəşəriyyətin əsas məqsədi hesab edildiyini müzakirə edin?
- Dünya ictimaiyyətinin nə üçün Ukraynaya kömək etməkdə yekdil olduğunu müzakirə edin?
- Miqrasiya prosesləri əhalinin həyat səviyyəsinə necə təsir edir?

**Hədəf anlayışı – Davamlı inkişaf**
**Altanlayış** – Ətraf mühit, ətraf mühitin problemləri
**Altməsə** – Ukraynada ətraf mühitin çirkləndirilməsi, xəstəliklərin yayılması, səhiyyə, aclıq.

**Addım 3**

Rusiya-Ukrayna münaqişəsi regionun və dünyanın davamlı gələcəyinə necə təsir göstərəcək və onu necə dəyişəcək **(davamlı inkişaf, əs.təs.1,2)?**

**Fəaliyyət 6 – Rol oyunu:**

**Şagirdlər qruplarda işləyirlər.**

Təsəvvür edin ki, müzakirə olunacaq məsələləri razılaşdırmaq və prioritetləşdirmək üçün verilişdə iştirak edirsiniz. Rollar maraqlardan irəli gələrək və ya təsadüfi olaraq təyin edilə bilər.
Verilişdəki rollar, ehtimal ki, aşağıdakı peşələr üzrə bölüşdürüləcək: münaqişə ekspertləri, ekoloqlar, iqtisadçılar, tibb və səhiyyə nümayəndələri, sosioloqlar və demoqraflar, verilişin jurnalistləri.

- Dərslikdə verilən mətn (səh. 308) və sxemlərlə tanış olun və izah edin ki, silahlı münaqişələrin hansı müsbət tərəfləri var və insan bu müsbət nəticəni gələcəkdə necə istifadə edə bilər?
- Bu nəticələrdən hansını ən vacib hesab edirsiniz və nə üçün?
- Konkret misallar göstərin ki, silahlı münaqişənin ekoloji, iqtisadi, tibbi və sağlamlıq, sosial və demoqrafik aspektlərdə uzunmüddətli nəticələrini necə aşkar etmək olar?

**Dərsliyin  və 5, 6 və 7-ci resursun vasitəsi ilə müzakirə edin:**

- Münaqişələrin nəticələri ətraf mühitə necə təsir edir?
- Münaqişənin qlobal iqlim dəyişikliyinə hansı təsiri var?
- Münaqişələr əhalinin həyat səviyyəsinə necə təsir edir?

Məsələlər müzakirə edildikdən sonra müzakirə təşkil olunur.

**Fəaliyyət 7 – Verilişin ssenarisi:**

Şagirdlər qrup halında razılaşırlar ki, coğrafi perspektivdən irəli gələrək, gələcəkdə münaqişələrin nəticələrini daha kəskinliyi ilə hiss etmək üçün əhalini necə tanış etməli və necə izah etməlidirlər. Səbəblərini də izah etməlidirlər.

**Kompleks tapşırığı yerinə yetirərkən və təqdimat prosesində müəyyən şagirdlə fərdi iş üçün müəllim tərəfindən verilən suallar: (Baxın, Tövsiyə, səh. 34, Suallar səh. 33).**

**Hadisə 5. Hadisənin analizi**

Postsosialist münaqişələri siyasi mübarizədən yaranıb. Bunlarda bəzi siyasi qüvvələr rəhbərlik etdiyi ölkələrin ərazi bütövlüyünü qoruyub saxlamağa çalışırdı və indi də çalışır, bəziləri isə yeni müstəqil dövlətlər yaratmağa can atır. Yeni müstəqil dövlətlər 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra postsovet məkanında yaranmış 15 suveren ölkədir.

Bu münaqişələr həll olunmadığına görə, nəticədə postsovet məkanında qondarma, tanınmamış Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya, Dnestryanı-Moldova, Donetsk və Luqansk Xalq Respublikaları mövcuddur.

2022-ci ilin fevralın 24-də Rusiya Ukraynada genişmiqyaslı müharibəyə başladı. Rusiya prezidenti Vladimir Putin separatçı Donbas və Luqansk bölgələrinin müdafiəsi bəhanəsi ilə Ukraynada "hərbi əməliyyata" başlandığını elan etdi. O, Ukrayna əsgərlərini silahlarını yerə qoymağa çağırırdı. Rusiya Ukraynaya, o cümlədən paytaxt Kiyev yaxınlığına raket hücumları həyata keçirdi. Qərb ölkələri Ukraynaya hücumu pisləyib. Ukraynaya qarşı müharibə artıq minlərlə insanın ölümünə səbəb olub və bütün dünyaya böyük iqtisadi ziyan vurub.



**Mənbə:** Şagird kitabı, səh. 304

# Kompleks tapşırıq 3

**Mövzu** – Qlobal siyasi problemlər və dəyişikliklər
**Məsələ** – Gürcüstanda Sülh Parkı – dövlətlərarası münaqişələrin həllinin davamlı yolu (təhlükəsizlik, sülhün qorunması)

**Hədəf anlayışı** – coğrafi təbəqə; **Altanlayış** – noosfer – qoruq əraziləri;
**Altməsələ:** "Yaşıl qurşaq", sülh parkı.

**Hədəf anlayışı** – əhali və təsərrüfat; **Altanlayış** – əhalinin strukturu – əhalinin həyat səviyyəsi;
**Altməsələ:** sülhün indeksi, əhalinin məşğulluğu, tərksilah, militarizasiya.

**Hədəf anlayışı** – davamlı inkişaf; **Altanlayış** – cəmiyyət – əhalinin təhlükəsizliyi və həyat səviyyəsi;
**Altməsələ:** geosiyasi problemlər, ayrılmış zona.

**Əsas sual –** Dövlətlərarası münaqişələrin həlli və ekoloji istiqamət baxımından Sülh Parkının layihədəki əhəmiyyətini necə təqdim etmək olar?

**Kompleks tapşırığın şərti**



Dövlətlər arasında əməkdaşlığı yaxşılaşdırmaq məqsədi ilə, sərhədyanı qorunan ərazilərin birgə idarə edilməsini nəzərdə tutan sülh parkları ideyası XIX əsrdən ortaya çıxıb. Müasir dünya xəritəsində artıq 100-dən çox sülh parkı var.

Təsəvvür edin ki, siz "Beynəlxalq Təbiəti Mühafizə İttifaqı" beynəlxalq təşkilatının Gürcüstandan olan nümayəndəsisiniz. Məqsədiniz ölkələrin təcrübəsini öyrənmək, Gürcüstanın sərhəd zonasında ərazi seçmək və sülh parkı layihəsini hazırlamaqdır.

**Layihədə xüsusilə göstərməlisiniz:**

- Təbii mühit Gürcüstanın təhlükəsizliyinə və geosiyasi proseslərə necə təsir edir **(coğrafi təbəqə, əs.təs. 1, 2);**
- Dövlət Sülh Parkının yaradılması Gürcüstanın sərhəd zonasında yaşayan əhalinin gündəlik həyatına necə təsir edəcək və onların həyat keyfiyyəti necə dəyişəcək **(əhali və təsərrüfat, əs.təs. 1,2);**
- Sülh Parkının yaradılması Gürcüstanın yerli və qlobal səviyyədə davamlı inkişafına necə təsir edəcək **(davamlı inkişaf, əs.təs.1,2)?**

| **Hədəf anlayışı/anlayışları ilə bağlı əsas təsəvvürlər**<br><br>**Şagird dərk etməlidir ki:** | **Qiymətləndirmə meyarı**<br><br>**Şagird bacarır:** | **İşinizdə/işinizin təqdimatında xüsusilə göstərin:** |
|---|---|---|
| **Coğrafi təbəqə**<br>1. Coğrafi təbəqə bir sıra qanunauyğunluqlarla xarakterizə olunan geosferlərdən (litosfer, atmosfer, hidrosfer, biosfer) ibarətdir; bir coğrafi sahədə baş verən dəyişiklik başqa sahələrə də təsir edir;<br>2. İnsanların sayəsində digər sahələrə təsir göstərən noosfer (zəka sferası) yaranır.<br><br>**Əhali və təsərrüfat**<br>1. Təbii mühit əhaliyə və təsərrüfata təsir göstərir. Müxtəlif ölkədə təsərrüfatın bu və ya digər sahəsi aparıcıdır və bu da əməyin coğrafi bölgüsünə səbəb olur;<br>2. Əhali və təsərrüfat strukturu, bölgüsü və yerləşməsi vaxtda və məkanda dəyişkəndir;<br>3. Dövlət ölkədə baş verən sosial-iqtisadi proseslərə təsir göstərir və bu da onun inkişafı səviyyəsində öz əksini tapır.<br><br>**Davamlı inkişaf**<br>1. Yerli əməllər qlobal nəticələrə gətirib çıxara bilər;<br>2. Davamlı inkişaf məqsədlərinin (sosial, iqtisadi, ətraf mühitin mühafizəsi və firavanlıq) yerinə yetirilməsi gələcək nəsillərin firavanlığı üçün vacibdir. | **Coğrafi təbəqə**<br>• Konkret misallar əsasında coğrafi təbəqəyə daxil olan geosferlərin və noosferin qarşılıqlı əlaqəsini dərk etməyi **(əs.təs.1,2).**<br><br>**Əhali və təsərrüfat**<br>• Konkret ölkənin təbii mühitinin əhalinin yaşayış şəraitinə, təhlükəsizliyinə və həyat səviyyəsinə təsirini təhlil etməyi **(əs.təs.1,2);**<br>• Əhalinin təhlükəsizliyi və firavanlığı üçün dövlət tərəfindən həyata keçirilən tədbirlərin əhəmiyyətini təhlil etməyi **(əs.təs.3).**<br><br>**Davamlı inkişaf**<br>• Yerli və qlobal səviyyədə ölkənin davamlı inkişafı və gələcək nəsillərin firavanlığı üçün sülh parklarının yaradılmasının vacibliyini dərk etməyi **(əs.təs.1,2).** | • Təbii mühit Gürcüstanın təhlükəsizliyinə və geosiyasi proseslərə necə təsir edir **(coğrafi təbəqə, əs.təs. 1, 2);**<br>• Dövlət Sülh Parkının yaradılması Gürcüstanın sərhəd zonasında yaşayan əhalinin gündəlik həyatına necə təsir edəcək və onların həyat keyfiyyəti necə dəyişəcək **(əhali və təsərrüfat, əs.təs. 1,2)?**<br>• Sülh Parkının yaradılması Gürcüstanın yerli və qlobal səviyyədə davamlı inkişafına necə təsir edəcək **(davamlı inkişaf, əs.təs.1,2)?** |

**Kompleks tapşırığın həyata keçirilmə mərhələləri (fəaliyyətlər, resurslar, suallar)**

**I mərhələ – Kompleks tapşırığın şərti ilə tanışlıq**
**Resurslar/Təhlil ediləsi hallar (keyslər):**

1. **Dərslik – Coğrafiya XI sinif** Paraqraf 14. – Təhlükəsizlik, sülhün qorunması
2. Məktəb layihəsini necə yazaq – http://mastsavlebeli.ge/?p=22050
3. Təbiətin Mühafizəsinin Beynəlxalq İttifaqı – https://www.iucn.org/
4. Sülh parkı – Dövlətlərarası münaqişələrin həllinin davamlı yolu – https://sustainability.ge/peace-park/
5. Bütün dünyada 147 sülh parkı – http://peace.maripo.com/p_parks.htm
6. Sülh parkları – https://www.peaceparks.org/
7. Ümumdünya İrs siyahısı – https://whc.unesco.org/en/list/
8. İnteraktiv xəritə – https://www.visionofhumanity.org/maps/#/

**Resurs 2**
**Tövsiyə olunan fəaliyyət (Resurs 1-in əsasında yerinə yetirilir):**

- Layihəni necə yaratmaq olar?
- Layihəni hazırlayarkən nələrə diqqət etməlisiniz?
- Layihənin hazırlanması zamanı hansı addımlar atılmalıdır?

**Resurs 3,4**
**Tövsiyə olunan fəaliyyət (Resurs 3-ün əsasında yerinə yetirilir):**

- Sülh parkı nədir?
- Sülh parkı dövlətlərarası münaqişəni necə həll edə bilər?

**Resurs 5, 6 və 7**
**Tövsiyə olunan fəaliyyət (Resurs 4-ün əsasında yerinə yetirilir):**

- Sülh parklarının coğrafiyası necədir?
- Sülh parkları ölkələr arasında sülhün bərqərar olması prosesində nə kimi rolu yerinə yetirib?

**Resurs 8**
**Tövsiyə olunan fəaliyyət (Resurs 5-in əsasında yerinə yetirilir):**

Dünya ölkələrinin qlobal sülh indeksi göstəricisi ilə tanış olmaqda yardım edəcək.

**Kompleks tapşırığın şərtinin dərk edilməsinə yönəlmiş suallar:**

**Altməsələ – Dövlətlərarası dinc birgəyaşayış baxımından təbii mühit mühüm rol oynayır.**

- Sülh parklarının əhalinin məişət həyatına təsiri necədir?
- Dövlətlərarası dinc birgəyaşayış və ətraf mühitin mühafizəsi əhalinin firavanlığına necə təsir edir?

**Altməsələ – beynəlxalq əməkdaşlıq və milli qərarlar qlobal geosiyasi problemlərin həlli prosesində mühüm rol oynayır.**

- Əhalinin təhlükəsizliyinin qorunmasında dövlət qərarları hansı rol oynayır?
- Əhalinin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi bir-birinə necə bağlıdır?

**Kompleks tapşırıq**

- Öz sözlərinizlə formalaşdırın ki, bir neçə dərs üzərində işləməli olacağınız bu gün verilən tapşırıq nəyə aiddir?
- Bənzər forma və ya məzmunlu tapşırığı başqa vaxt yerinə yetirmisinizmi?

**II mərhələ – kompleks tapşırıq üzərində iş**
**Hədəf anlayışı – coğrafi təbəqə**
**Altanlayış** – noosfer, qoruq əraziləri
**Altməsələ –** "Yaşıl qurşaq", sülh parkı.

**Addım 1**

- Təbii mühit Gürcüstanın təhlükəsizliyinə və geosiyasi proseslərə necə təsir edir **(coğrafi təbəqə, əs.təs. 1, 2)?;**

**Fəaliyyət 1 – Hadisənin analizinin təhlili:**

Şagirdlər dərslikdə verilən Hadisənin analizi 5 ilə tanış olur (səh. 353) və suallara cavab verirlər:

1. Dövlətlərarası silahlı münaqişələrin yaranmasında coğrafi yer və təbii mühit nə kimi rol oynayır?
2. "Dəmir pərdə" termini nə deməkdir?

**Fəaliyyət 2 – Xəritə üzərində iş:**

Şagirdlər dərslikdə verilən xəritəni təhlil edir və suallara cavab verirlər.

Şək. 14.12 (Dərslik, səh. 335) və dünyanın fiziki xəritəsindən (Əlavə 1) istifadə edərək, onlar müəyyən etməlidirlər:

1. Avropanın "yaşıl qurşağının" hər bir hissəsi hansı ölkələrin ərazilərindən keçir və hansı coğrafi qurşaqları əhatə edir?
2. Avropanın "yaşıl qurşağının" hansı mədəni və ekoloji təyinatının olduğunu müzakirə edin və sülhün quruculuğu prosesində hansı rolu oynayıb?
3. İngilis hərbi tarixçisi və nəzəriyyəçisi Bezil Henri Lidel Hartın "Bütün müharibələrin məqsədi sülhdür" ifadəsini necə başa düşdüyünüzü müzakirə edin.

**Hədəf anlayışı – Əhali və təsərrüfat**
**Altanlayış** – əhalinin həyat səviyyəsi
**Altməsələ** – sülhün indeksi, əhalinin məşğulluğu, tərksilah, militarizasiya

**Addım 2**

- Dövlət Sülh Parkının yaradılması Gürcüstanın sərhəd zonasında yaşayan əhalinin gündəlik həyatına necə təsir edəcək və onların həyat keyfiyyəti necə dəyişəcək **(əhali və təsərrüfat, əs.təs. 1,2)?**

**Fəaliyyət 3 – Vəziyyət üzrə məsələ:**

Məlumatı oxuyun və suala cavab verin:

Norveçli sülh tədqiqatçısı Yohan Qaltunq mənfi və müsbət sülh anlayışlarını irəli sürmüşdür ki, buna əsasən də, mənfi sülh sadəcə olaraq zorakılığın qarşısının alınmasıdır, müsbət sülh isə – münaqişələrin ümumiyyətlə yaranmadığı ya da erkən mərhələdə həll olunduğu mexanizm və strukturların yaradılmasıdır.

Sual:

Sizcə, müasir dünyada hansı mənfi və ya müsbət sülh hökm sürür? Fikrinizi əsaslandırmaq üçün nümunələr gətirin.

**Fəaliyyət 4 – Hadisənin analizinin müzakirəsi və interaktiv xəritənin təhlili:**

Dərslikdə verilmiş Hadisənin analizi 1-i (səh. 332) yerinə yetirin, əlavə olunan suallara cavab verin və bunun əsasında https://www.visionofhumanity.org/maps/#/ internet saytındakı interaktiv xəritədən istifadə edərək təyin edin:

a. Dünyanın ən sülhsevər və sülhsevməyən on ölkəsi;
b. Gürcüstan hansı yerdədir, başqa hansı ölkələrdə oxşar göstərici var, region ölkələrinin indeksi ilə münasibətdə ölkəmizin indeksi necədir və sülh səviyyəsinə görə hansı qrupa düşür?
c. Müzakirə edin, sizcə, niyə hərbi xərclərin "ağırlıq mərkəzi" Avropa və Şimali Amerikadan Asiya qitəsinə doğru dəyişir?

**Fəaliyyət 5 – Problemlər ağacı:**

Dərslikdə verilən Hadisənin analizi 3 (səh. 342) və 4 (səh. 350) ilə tanış olun, müşayiət olunan suallara cavab verin və insanın münaqişəli vəziyyətlərin mənfi nəticələrindən necə yan keçə biləcəyini müzakirə edin.

Problemlər ağacını yaradın:



**Fəaliyyət 6 – "Ardıcıllıq zənciri" qrafik təşkilatçının hazırlanması:**

Sülh parklarının mövcudluğunun ətraf mühitə və ərazidə yaşayan insanların həyat və fəaliyyətlərinə necə təsir etdiyini izah edin və ardıcıllıq zəncirini yaradın.




**Hədəf anlayışı – Davamlı inkişaf**
**Altanlayış** – cəmiyyət, əhalinin təhlükəsizliyi və həyat səviyyəsi
**Altməsə** – geosiyasi problemlər, ayrılmış zona.

**Addım 3**

Sülh Parkının yaradılması Gürcüstanın yerli və qlobal səviyyədə davamlı inkişafına necə təsir edəcək **(davamlı inkişaf, əs.təs.1,2)?**

**Fəaliyyət 1 – Rol oyunu – Sülhün müdafiəçisi:**

Şagirdlər sülhün müdafiəçisi rolunu bölüşdürür və dünya üçün ismarıc (şüar) hazırlayırlar;
Şagirdlər dərslikdəki məlumatları, o cümlədən "Sülhün müdafiəçisi" haşiyəsini oxuyurlar (səh. 335 və 348) və suallara cavab verirlər:

a. Alman rahibi, professor, ilahiyyatçı və kilsə islahatçısı Martin Lüterin fikrincə, "Sülh bütün ədalətdən daha vacibdir". Bu fikirlə razısınızmı? Sizcə, Lüter niyə sülh və ədaləti müqayisə edirdi?
b. Qlobal geosiyasi problemlərin həlli prosesində beynəlxalq əməkdaşlıq hansı rol oynayır?
c. http://georgia.un.org/ ka/sdgs internet saytında davamlı inkişafın məqsədləri ilə tanış olun və onlardan hansının sülh və təhlükəsizlik problemi ilə bağlı olduğunu izah edin?
ç. Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün nə edə biləcəyinizi müzakirə edin?
d. BMT-nin keçmiş Baş Katibi Pan Gi Mun Beynəlxalq Sülh Gününə (21 sentyabr) həsr olunmuş çıxışında qeyd etmişdi ki, "bu, insanların müharibənin dəhşətləri və münaqişənin sülh yolu ilə həllinin zəruriliyi haqqında düşünməli olduğu dövrdür". Bu günə həsr olunmuş dünya ictimaiyyətinə ismarıcınız nədir?

**Fəaliyyət 2 – Problemin həlli:**

- Sizcə, Gürcüstanda və ona qonşu ölkələrdə sülh parklarının yaradılması nə dərəcədə vacibdir? Onları yaratmaq üçün ölkəmizin hansı resursları və imkanları olacaq? Belə parkları harada və nə üçün yaradardınız? Mövcud problemin həllində nə kimi rol oynayacaq?
- İnsan münaqişəli vəziyyətlərin yaratdığı mənfi nəticələrdən necə çəkinə bilər?
- Sülh parklarının demilitarizasiya zonaları ilə müqayisədə üstünlükləri hansılardır?

Venn diaqramı nümunəsi:



**Kompleks tapşırığı yerinə yetirərkən və təqdimat prosesində müəyyən şagirdlə fərdi iş üçün müəllim tərəfindən verilən suallar: (Baxın, Tövsiyə, səh. 34, Suallar səh. 33).**

## Hadisə 6. Hadisənin analizi

“Münaqişələr və mübahisələrlə həddən artıq yüklənmiş dünyada sülh gələcəyin təməl daşlarından biridir. Sülh parklarının yaradılması isə təkcə bizim regionda deyil, gələcəkdə, bütün dünyada bu prosesin tərkib hissəsidir” – Nelson Mandela

**Ekvador-Peru münaqişəsinin “yaşıl” sonu**

Ekvador və Peru arasında sərhəd mübahisəsi onilliklərdir ki, Kordilyera Del Kondor dağlıq bölgəsində davam edir. Biomüxtəlifliklə zəngin olan bu region XIX əsrdən mübahisə obyektinə çevrilib və uzun illər davam edən qarşıdurmadan sonra, 1995-ci ildə iki ölkə arasında mübahisə münaqişəyə çevrilib. ABŞ, Argentina, Braziliya və Çili sülh müqaviləsi bağlamağa çalışırdılar.

*Kordilyera Del Kondor*



Dövlətlər sərhədin işarələnməsi ilə bağlı razılığa gələ bilmədikdən sonra ABŞ-ın o zamankı prezidenti Bill Klinton şəxsən Ekvador və Peru liderlərini sərhəd zolağı ilə bağlı danışıqlar aparmağa və meşəlik ərazini qorumağa razı salmışdı. Həqiqətən də onlar bu ərazini təbiətin konservasiya zonası elan etdilər və həm Ekvador, həm də Peru orada konservasiya dəhlizi yaratdılar, 2004-cü ildə isə ərazini sülh parkına çevirdilər. Sonralar ekoloji qeyri-hökumət təşkilatlarının köməyi ilə onlar ümumi ekoloji idarəetmə sistemi yarada bildilər ki, bu da münaqişənin ekoloji cəhətdən dayanıqlı üsullarla həlli ilə yanaşı, dövlətlərarası mehriban qonşuluq münasibətlərini daha da möhkəmləndirdi. Hazırda Ekvador və Peru arasında ümumi sərhəddə yerləşən Kordilyera del Kondor dağ sisteminin ətrafındakı ərazi sülh parkının uğurlu nümunəsi hesab olunur.

**Mənbə:** Şagird kitabı, səh. 353

# 7. ƏLAVƏ OXU MATERİALI

# QLOBALLAŞMA VƏ QLOBAL PROBLEMLƏR

## Qloballaşma nədir?

Qloballaşma ictimai fəaliyyətin bütün sahələrini əhatə edən obyektiv, dəyişməz və tarixi-məntiqi prosesdir. Qloballaşmanın ümumi qəbul edilmiş tərifi yoxdur. Alimlərin bu məsələ ilə bağlı müxtəlif fikirləri var. Məsələn, ictimai elm nümayəndələri qloballaşmanın siyasi, sosial, ekoloji, tarixi, coğrafi və mədəni sahələrə təsirini müzakirə edirlər. İqtisadçılar qloballaşmada əmtəə, kapital və əmək bazarlarının beynəlxalq inteqrasiyasını nəzərdə tuturlar. Qeyd etmək lazımdır ki, "qloballaşma" termini əvvəlcə yalnız iqtisadi məna daşıyırdı. Sonralar daha geniş məna kəsb edərək "hüdudsuz dünya" ifadə edən anlayışa çevrildi.

Qloballaşma dünyanın iqtisadi, siyasi və sosial-mədəni inteqrasiya və birləşmə prosesidir. O, dünyanın "yaxınlaşmasına" töhfə verir, milli sərhədləri pozur, müxtəlif milli iqtisadiyyatları, mədəniyyətləri, texnologiyaları, idarəetməni, istehsalı bir-birinə yaxınlaşdırır və onların qarşılıqlı asılılıq dərəcəsini artırır. Sadə tərifə görə, qloballaşma bir ölkədə baş verən dəyişikliklərin digər dövlətlərdə əks olunması deməkdir ki, bu da onların qarşılıqlı asılılığının və bir-birinə bağlılığının nəticəsidir.




Qloballaşmanın inkişafının əsas səbəbləri

Qloballaşma prosesi daha çox iqtisadiyyat sahəsində özünü göstərdi. İqtisadi inteqrasiya qloballaşmanın əsas xarakterik xüsusiyyəti olsa da, onun sosial, mədəni, siyasi, qurum və digər mühüm istiqamətləri aydın şəkildə müəyyən edilmişdir. Müvafiq olaraq, qloballaşmanın 4 növü fərqləndirilir ki, onların məzmununu başa düşmək çox vacibdir, çünki bu gün dünya misli görünməmiş sürətlə inteqrasiyaya doğru irəliləyir.

**İqtisadi**
- **Qlobal əmək bölgüsü;**
- **Beynəlxalq iqtisadi təşkilatların yaranması (məs., IMF, WTO);**
- **Transmilli şirkətlərin yaranması (Məs., Toyota, Google, Samsung).**

**Sosial**
- **Müxtəlif ölkələrdə sosial normaların birləşdirilməsi;**
- **Müxtəlif ölkələrdə vətəndaş cəmiyyətinin formalaşdırılması;**

**Siyasi**
- **Dövlət suverenliyinin zəifləməsi;**
- **Beynəlxalq hərbi-siyasi təşkilatların (NATO, CSTO) rolunun gücləndirilməsi;**
- **Demokratiyanın qloballaşması.**

**Mədəni**
- **İnternetin inkişafı;**
- **Beynəlxalq kommunikasiya dilinin seçimi (ingilis);**
- **Zövqlərin və üstünlüklərin birləşdirilməsi (Koka-kola, instaqram)**
- **Başqa ölkələrin mədəniyyət və həyat tərzi ilə tanışlıq.**

**Qloballaşma növləri**

Qloballaşmanın əsas nəticəsi beynəlxalq əmək bölgüsü, kapitalın, əmək və müəssisə resurslarının planet üzrə miqrasiyası, qanunvericiliyin, iqtisadi və texnoloji proseslərin standartlaşdırılması, müxtəlif ölkələrin mədəniyyətlərinin yaxınlaşması və qaynaşmasıdır.

Qloballaşma mövzusunun populyarlığı XX əsrin 90-cı illərindən başlayır. Bir çox alimlər müasir qloballaşmanın və onun tarixi analoqlarının ümumi xüsusiyyətlərini tapmağa çalışmışlar, buna görə də qloballaşmanın mənşəyi haqqında fikirlər müxtəlifdir: tarixçilər bunu kapitalizmin inkişaf mərhələlərindən biri hesab edirlər; İqtisadçılar transmilli maliyyə bazarlarının yarandığı vaxtdan hesablamağa başlayırlar; politoloqlar əsas səbəb kimi demokratik təşkilatların yayılmasını hesab edirlər; mədəniyyətşünaslar qloballaşmanın təzahürünü mədəniyyətin qərbləşməsi, o cümlədən Amerikanın iqtisadi ekspansiyası ilə əlaqələndirirlər. Qloballaşma nəticəsində dünya ölkələri getdikcə bir-birinə bağlanır və ümumi qlobal mənzərə yaradır.

### Nümunə 1

Qloballaşmanın ilkin formaları qədim dünyada da mövcud olsa da, tarixi qloballaşma halları XIX əsrin II əsrində imperiya dövlətləri arasında qarşıdurma zamanı baş vermişdir. Yunan müstəmləkəçiliyini xatırlasaq, bu prosesi sərbəst şəkildə qloballaşma adlandıra bilərik. Yunanlar öz mədəniyyətlərini başqa ölkələrə yayır və tanıdırdılar. Həmçinin, əsrlər boyu tacirlər səyahət edərək qlobal kapital dövriyyəsini inkişaf etdirirdilər.

Qloballaşmaya misal olaraq Roma İmperiyasını, Parfiyanı, Xan sülaləsini göstərmək olar. “İpək Yolunun” “irəliləyişi” Xan sülaləsinin hakimiyyəti dövründə başlayıb. “İslamın Qızıl Dövrü” də diqqətəlayiqdir – müsəlman tacirləri məhsul və bilikləri qloballaşdıra bilmişlər. Monqol imperiyasında İpək yoluna böyük əhəmiyyət verilirdi.




Nəqliyyatın inkişafı və ticarət maneələrinin azaldılması ilə baş verən qloballaşmanın birinci dalğası 1870-ci ildən Birinci Dünya Müharibəsinin başlanmasına qədər davam etdi. Ticarətin inkişafı nəticəsində dünya gəlirlərində ixracın payı iki dəfə artaraq 8%-ə çatmışdı. Bu proseslər insanların kütləvi miqrasiyasına səbəb oldu. Dünya əhalisinin təxminən 10%-i başqa ölkələrdə daha yaxşı iş axtarırdı. Nəqliyyatın inkişafı və ticarət maneələrinin azaldılması ilə baş verən qloballaşmanın birinci dalğası 1870-ci ildən Birinci Dünya Müharibəsinin başlanmasına qədər davam etdi. Ticarətin inkişafı nəticəsində dünya gəlirlərində ixracın payı iki dəfə artaraq 8%-ə çatmışdır. Bu proseslər insanların kütləvi miqrasiyasına səbəb oldu. Dünya əhalisinin təxminən 10%-i daha yaxşı iş axtarmaq üçün başqa ölkələrə köçdü. 60 milyon insan Avropanı tərk edərək Şimali Amerikaya və Yeni Dünyanın digər hissələrinə köçdü. Eyni hal insanların sıx məskunlaş-

dığı Çin və Hindistanda da baş verdi, buradan insanlar daha az məskunlaşan Şri Lanka, Myanma, Tayland, Filippin və Vyetnam kimi ölkələrə köçdülər.

İkinci Dünya Müharibəsindən sonra qloballaşmanın ikinci dalğası başladı və təxminən 1950-80-ci illərə qədər davam etdi. Bu, əsasən, ticarət əlaqələrini bərpa edən Yaponiya, Avropa və Şimali Amerika ölkələrinin inteqrasiyasında özünü göstərdi. Bu dövrdə ölkələrin iqtisadi inkişafı dövrü yetişdi ki, bu da yüksək ixtisaslı işçi qüvvəsinin ticarətinin inkişafı səbəblərindən biri oldu. Lakin inkişaf etməkdə olan ölkələr əsasən yalnız xammalla ticarət edə bildikləri üçün bu inteqrasiya dalğasında geridə qaldılar.

1980-ci illərdə qloballaşmanın ən son dalğası nəqliyyat və kommunikasiya texnologiyasındakı irəliləyişlərin birləşməsindən irəli gəlirdi. İqtisadiyyatı gücləndirmək üçün xarici sərmayələri cəlb etməyə çalışan inkişaf etməkdə olan iri ölkələrin hərəkətləri mühüm rol oynadı.

Qloballaşma ümumilikdə ölkələrə və əhaliyə böyük faydalar gətirir. O, məhsuldarlığı artırır, bilik və yeni texnologiyaların yayılmasına kömək edir və istehlakçı seçimlərinin çeşidini təkmilləşdirir. Qloballaşma nəticəsində ölkələr, regionlar, qitələr bir-birinə o qədər sıx bağlandı ki, dünya "kiçik kənd" xüsusiyyətlərini aldı.

Qloballaşmanın təbiətinə qarşı çıxan müəyyən qrup insanlar var. Bu cür qruplar kifayət qədər güclü arqumentlər irəli sürürlər ki, bunlardan ən mühümü ölkələr arasında bərabərsizlik problemidir.

### Nümunə 2
### Qloballaşma nəzəriyyəsinin yaradıcıları

Qloballaşma nəzəriyyəsinin banisi britaniyalı sosioloq Martin Elbroudur. O, qloballaşma konsepsiyasını irəli sürən ilk alimlərdən biridir. Elbrounun fikrincə, "Qloballaşma dünya xalqlarının bir dünyada və ya qlobal cəmiyyətdə birləşdiyi bütün prosesləri əks etdirir".

Martin Elbrou Çin və onun gələcək qlobal dünyada rolu haqqında yeni fikir və mülahizələri çatdıran "Ortaq taleyi olan bir cəmiyyətdə Çinin rolu" kitabının müəllifidir.

Müasir qloballaşma alman sosioloqu və filosofu, Münhen Universitetinin və London İqtisadiyyat Məktəbinin professoru Ulrix Bekin tədqiqat obyektidir. Qloballaşmada bu, dünya bazarının siyasi fəaliyyəti məhdudlaşdırdığı və ya tamamilə dəyişdirdiyi fenomeni nəzərdə tutur. Bu mənada qloballaşmanın siyasi və iqtisadi aspektləri dünya bazarına tabedir. Bekə görə qloballaşma milli dövlətlərin və onların suverenliyinin transmilli şirkətlər tərəfindən əhatə olunduğu bir proses və ya proseslər məcmusudur.





## Qlobal problem nədir?

Qloballaşmanın təriflərində diqqət bu prosesin özünün mahiyyətinə deyil, onun bu və ya digər nəticələrinə yönəldilir. Müxtəlif ixtisasların nümayəndələri qloballaşmanın tərifində müvafiq aspektləri təqdim etməyə çalışırlar. Qloballaşma intizamlararası fenomendir və buna görə də onun ümumi tərifinin formalaşması bu prosesə iqtisadi, sosial, siyasi və ya digər nöqteyi-nəzərdən yanaşmağı tələb edir.

Qloballaşmadan danışarkən bəşəriyyətin üzləşdiyi ümumi problemlər nəzərə alınmalıdır. Bu baxımdan qloballaşma dünyanın müxtəlif regionlarında ümumi, məzmun xarakterli problemlərin (məsələn, ekoloji, qida, demoqrafik, miqrasiya, səhiyyə və s.) ortaya çıxması, dövlətlərin daimi ikitərəfli sosial-iqtisadi asılılığı və s. ümumi maraq sahələrinin yaradılması deməkdir.

Dünyada çoxtərəfli qloballaşma şəraitində bəşəriyyət qlobal problemlərlə üzləşir ki, onların həlli qlobal miqyasda əməkdaşlığın dərinləşdirilməsini, bütün ölkələrin və insanların birgə fəaliyyətini tələb edir. Bu, qloballaşma prosesinə daha da öz töhfəsini verəcək və buna görə də dönməz xarakter alacaq.

Qlobal problemlərə dünya birliyi və dövlətlərarası münasibətlər, təbiətlə insan münasibətləri, təbiətdən səmərəli istifadə və ətraf mühitin mühafizəsi, resurs təminatının birgə həlli və s. kimi aktual problemlər daxildir. Qlobal problemlər dörd əsas qrupa bölünür.

| SİYASİ | İQTİSADİ | SOSİAL | EKOLOJİ (ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ) |
|---|---|---|---|
| Müharibə və sülh;<br>Tərksilah;<br>Terrorizm;<br>Münaqişələr | Aşağı inkişaf səviyyəsi;<br>Ərzaq;<br>Həyat səviyyəsi;<br>Resursların tükənməsi. | Demoqrafik;<br>Sağlamlığın mühafizəsi;<br>Təhsil;<br>Etnik;<br>Mədəni. | Ətraf mühitdən istifadə;<br>Atmosferin, hidrosferin, troposferin mühafizəsi;<br>Dünya okeanlarının, sahil xətlərinin və dağlıq ərazilərinin istifadəsi və mühafizəsi;<br>Təbii və texnogen fəlakətlər. |

**Müasirliyin əsas qlobal problemləri**

Qlobal problemlər təbiətcə fərqlidir, lakin onların hamısı bəşəriyyətin coğrafi birliyi və onun xilası ideyası ilə proqnozlaşdırılır.

Qlobal problemlər arasında sıx əlaqə var və onlar bütöv bir "zəncir" təşkil edir. Bir problem olmadan digərini həll etmək mümkün deyil və s.

## Nümunə 3

Hər bir qlobal problem özünəməxsus məzmunu ilə fərqlənir, lakin bir-biri ilə sıx bağlıdır, məsələn: enerji və xammal problemi – ekoloji, ekoloji – demoqrafik, demoqrafik – ərzaq və sairə ilə. Bundan əlavə, onların hər biri, öz növbəsində, digər, nisbətən "kiçik" problemləri birləşdirir; Məsələn, səhralaşma, meşələrin qırılması, hidrosferin və atmosferin çirklənməsi və s. Demoqrafik problem çərçivəsində demoqrafik partlayış və demoqrafik böhran, nəzarətsiz urbanizasiya, qaçqın və əmək miqrasiyası və s. ayrılır.

BMT-yə üzv dövlətlər 25-27 sentyabr 2015-ci il tarixlərində Nyu-Yorkda (ABŞ) keçirilmiş Dayanıqlı İnkişaf Sammitində Dayanıqlı İnkişaf Məqsədlərini təsdiqləyiblər.

Yeni davamlı inkişaf fəaliyyət planına 17 məqsəd və 169 vəzifə daxildir. Sazişdə iştirak edən 193 ölkənin hamısı davamlı inkişaf məqsədlərinə çatmaq üçün növbəti 15 ildə islahatlar aparmalıdır. Dayanıqlı İnkişaf Məqsədləri bütün dünyaya, həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrə şamil edilən qlobal strategiyadır. Davamlı inkişafın məqsədləri bir-birindən asılı olmayaraq, birgə və razılaşdırılaraq həyata keçirilməlidir. Onlar bir-birini tamamlayır, birbaşa bağlıdır və davamlı inkişafın hər üç istiqamətini balanslaşdırır: iqtisadi artım, sosial inklüzivlik və ətraf mühitin mühafizəsi.







**Qlobal problemlər və davamlı inkişaf məqsədləri**

### Nümunə 4
### Dünya İqtisadi Forumu

Dünya İqtisadi Forumu (WEF) 24 yanvar 1971-ci ildə İsveçrənin Cenevrə Kanton Kolonidə alman mühəndis və iqtisadçı Klaus Şvab tərəfindən təsis edilmiş beynəlxalq qeyri-hökumət və lobbi təşkilatıdır.

Dünya İqtisadi Forumu müasir dövrün qlobal problemlərini, o cümlədən geosiyasi problemləri müzakirə edən ən nüfuzlu beynəlxalq təşkilatdır. Müxtəlif ölkələrdən 1000-ə yaxın iri şirkət və təşkilat forumun üzvüdür. Təşkilatın iclasları hər il dünyanın siyasi, iqtisadi və mədəni elitasının toplaşdığı İsveçrənin Davos kurortunda keçirilir.

Forum transmilli korporasiyalar, hökumətlər və vətəndaş cəmiyyəti təşkilatlarının koalisiyası tərəfindən ən yaxşı şəkildə idarə olunan, "Böyük Yüklənmə" və "Qlobal Transformasiya" kimi təşəbbüslərin nümunəsi olan qloballaşan dünya modelini təklif edir. Forum 2007-2008-ci il maliyyə böhranı və Covid-19 pandemiyası kimi qlobal qeyri-sabitlik dövrlərini proqram xarakterli səyləri gücləndirmək imkanları kimi görür.

WORLD ECONOMIC FORUM

https://www.weforum.org/

Dünya İqtisadi Forumu haqqında daha çox öyrənmək istəyirsinizsə, internet səhifəsinə daxil olun:

## XXI əsrin qlobal tendensiyaları hansılardır?

XXI əsrdə bəşəriyyət qloballaşma, rəqəmsallaşma, dünya iqtisadiyyatının informasiyalaşdırılması və inteqrasiyası, dini və etnik münaqişələr kimi geosiyasi transformasiyalarla xarakterizə olunan keyfiyyətcə yeni inkişaf mərhələsinə keçdi. Bu proseslər dövlətin fəaliyyətinin bütün aspektlərinə, beynəlxalq münasibətlərə, iqtisadi və sosial sferaya, təhlükəsizlik məsələlərinə, mədəniyyətə və ekologiyaya təsir göstərir.

XXI əsrin ən mühüm geosiyasi tendensiyaları arasında ayırırlar:

- Müasir qlobal problemlərin kəskinləşməsi (terror təhlükələrinin artması, regional münaqişələr zonasının genişlənməsi, separatizm, etno-dini ekstremizm, iqtisadi vəziyyətin kəskinləşməsi, ekoloji problemlər, ətraf mühitin deqradasiyası və s.) və mövcud dünyanın firavan, mütərəqqi azlığa (inkişaf etmiş ölkələr – Şimal) və aşağı sosial rifahın əksəriyyətinə (inkişaf etməkdə olan ölkələr – Cənub) bölünməsi kimi qloballaşmanın iki əsas nəticəsinin təzahürünü;
- Yeni hakimiyyət mərkəzlərinin yaranması və güclənməsi fonunda dünya iqtisadiyyatının strukturunun çoxqütblülük istiqamətində köklü dəyişməsini. Asiya-Sakit okean, Latın Amerikası regionlarının və Avropa İttifaqının rolu eyni zamanda artır;
- İqtisadi amillərin, ilk növbədə isə, enerjinin dünya siyasətinin formalaşmasına və enerjinin geosiyasi proseslərin əsas komponentlərindən birinə çevrilməsinə təsirinin kəskin artmasını; iqtisadi proseslərin dünya siyasətinin mərkəzinə keçməsini;
- Milli, etnik və konfessional münaqişələrin kəskinləşməsi və nəticədə onların praktiki həllində beynəlxalq təşkilatların rolunun artırılmasını;
- Əsas proseslərin qlobal kompüter şəbəkəsinə ötürüldüyü dünyanın geosiyasi mənzərəsinin belə xüsusi ölçüsünü yaradan məkanın virtuallaşması tendensiyasını.

Geosiyasətin yeni informasiya paradiqmasına görə, XXI əsrdə dövlətlər arasında münasibətlərin perspektivləri ilk növbədə virtual məkanda informasiya üstünlüyü ilə müəyyən edilir. Dünyada geosiyasi proseslərin inkişafının ən təsirli iştirakçıları dörd regiondur – Avropa, Asiya-Sakit okean, Latın Amerikası və Amerika Birləşmiş Ştatları.

Gürcüstan da digər ölkələr kimi qloballaşmanın ümumi məkanındadır və getdikcə geosiyasi vəziyyətindən asılı olaraq öz yerini tutur. Ölkəmiz dünyanın bir çox dövlətləri ilə iqtisadi və digər sahələrdə əməkdaşlıq edir.

# Siyasi və iqtisadi qloballaşma

## Siyasi qloballaşma nədir?

XXI əsrdə qloballaşma bütün dünyanı əhatə edib və bütün ərazilərə və dövlətlərə (Şimali Koreyadan başqa) yayılıb.

Müstəqil milli dövlətlər müasir siyasi həyatda mühüm və əsas rol oynayırlar. Onlar bizə dünya siyasətinin müəyyənedici subyektləri kimi görünür, bəziləri hətta "siyasi ab-hava" yaradırlar. Yalta və Potsdam konfranslarında İkinci Dünya Müharibəsinin qalib dövlətlərinin rəhbərləri "yeni" dünya nizamının prinsiplərini təsdiq etdilər. "Yeni" dünya nizamı quruldu, nəticədə dünya siyasi inkişafının mərkəzi Qərbi Avropadan kənara çıxdı və iki yeni siyasi təsir qütbü – ABŞ və Sovet İttifaqı yarandı. Onların arasındakı mübahisə "Soyuq müharibə" adlanan ikiqütblü dünya yaratdı.

Siyasi qloballaşma prosesində dünyada siyasi sabitliyi təmin edəcək beynəlxalq təşkilatların yaradılması zərurəti yarandı. Bu proses 1945-ci ildə, İkinci Dünya Müharibəsi başa çatdıqdan dərhal sonra başladı və bir sıra beynəlxalq təşkilatlar yaradıldı: Birləşmiş Millətlər Təşkilatı, NATO, Avropa İttifaqı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və s. Beynəlxalq təşkilatlar dünyada heç bir zorakılıq olmadan sülh mühiti yaratmağa çalışırlar.

Siyasi qloballaşma dünyada sülhün və firavanlığın qorunmasının qayğısına qalan beynəlxalq təşkilatların köməyi ilə baş verən prosesdir.

Siyasi qloballaşmanın ən yaxşı nümunəsi üzv dövlətlərinin siyasi düşüncəsi, qanunu olan Avropa İttifaqıdır. Avropa İttifaqının ideologiyasına görə, Avropa vahid birlikdir, özünün dil və mədəni fərqlərindən asılı olmayaraq. Təşkilata üzv ölkələr "güc birlikdədir" anlayışını qəbul edir və buna görə də bir-birinin tərəqqisinə və möhkəmlənməsinə mane olmur. Bundan əlavə, bu ölkələrin azadlıqları da var, suverenlikləri də. Əksinə, Avropa İttifaqına daxil olmaq onlara dünyanın siyasi və iqtisadi liderlərinə çevrilməyə imkan verdi.

XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq, xüsusən də "perestroyka" (yenidənqurma) nəticəsində Sovet İttifaqının yeni hökumətinin yeritdiyi kursda vəziyyət dəyişdi – sosial sistem dağıldı və "soyuq müharibə" bitdi.



**Şək. 12.1. 1995-ci ildə ABŞ prezidenti Ronald Reyqanla SSRİ-nin ilk və sonuncu prezidenti Mixail Qorbaçovun görüşü baş tutdu və onların razılaşdırılmış kursu nəticəsində dünyada mühüm dəyişikliklər baş verdi.**

XX əsrin 90-cı illərindən başlayaraq dünyada qloballaşma və inteqrasiya prosesləri geniş vüsət almağa başlayıb ki, bu da dövlətlərin və xalqların yaxınlaşmasına, onların ümumi firavanlığına töhfə verib. Müasir dünyada yeni siyasi intizam qurulur və o, hələ də formalaşma mərhələsindədir. Bəzən onu birqütblü dünya adlandırırlar və bu yeganə qütbü fövqəldövlət – ABŞ təmsil edir; bununla belə, belə bir fikir də var ki, bugünkü dünya çoxqütblüdür – bir neçə güclü mərkəzlə (ABŞ, Avropa İttifaqı, Rusiya, Çin, Yaponiya).

Siyasi qloballaşmanın müsbət cəhətlərindən biri də ixrac və idxalın artmasına və kapitalın hərəkətinə şərait yaradan azad ticarətdir.

Müasir dünyada qlobal siyasət milli dövlətlərin suverenliyinə müəyyən təsir göstərir. Siyasi qloballaşma müasir dünya nizamını, formalaşmış milli dövlətçilik formalarını və beynəlxalq siyasi əlaqələri dəyişdirir. Qlobal siyasət daxili və xarici, daxili və beynəlxalq, ərazi və qeyri-ərazi siyasət arasında ənənəvi münasibətləri dəyişir. Dünyanın bir yerində qəbul edilən siyasi qərarlar və hərəkətlər tez bir zamanda dünyanın qalan hissəsinə də təsir edir. Siyasi mərkəzlər və onların tədbirləri müasir kommunikasiya vasitələrindən istifadə etməklə mürəkkəb birgə qərarlar, razılaşmalar və siyasi qarşılıqlı fəaliyyətlər sisteminə çevrilə bilər. Buna uyğun olaraq “qlobal idarəetmə” (Global Governance) kimi bir fenomen meydana çıxdı.

Qloballaşma dövründə siyasi və iqtisadi qərarların qəbulu prosesində “Böyük Yeddilik” və “Böyük İyirmilik” xüsusi rol oynayır.

Böyük Yeddilik (G7) dünyanın yeddi aparıcı ölkəsinin – Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya, Böyük Britaniya və ABŞ-ın qeyri-rəsmi birliyidir. Qrup 1975-ci ildə Kanadanın bir il sonra qoşulduğu 6 dövlət tərəfindən dünyanın qabaqcıl demokratik ölkələrinə ümumi firavanlıq naminə iqtisadi siyasətləri müzakirə etmək imkanı vermək məqsədi ilə yaradılmışdır. Avropa İttifaqı Böyük Yeddiliyin işində 1977-ci ildən iştirak edir.

Böyük Yeddilik 1998-2014-cü illərdə Böyük Səkkizlik (G8) adlanırdı, çünki Rusiya da onun üzvü idi. 2014-cü ildə Krımın ilhaqı ilə əlaqədar Rusiya qrupdan çıxarılıb. Qrupa üzv dövlətlərin və hökumətlərin başçıları hər il dünyanın əsas siyasi və iqtisadi problemlərini müzakirə etdiyi sammitdə bir araya gəlir və onların həlli üçün birgə tədbirlər planlaşdırırlar.

Böyük Yeddiliyin sammitinin daimi ofisi və ya katibliyi yoxdur. Sammitin fəaliyyətinə hər il dəyişən sədr ölkə rəhbərlik edir. Sədr dövlət qrupunun işi üçün lazımi resurslar yaradır və onun prioritetlərini müəyyən edir.

Böyük Yeddiliyin özünəməxsusluğu onun ortaq dəyərlərinə – demokratiya, insan hüquqları və əsas azadlıqlar, azad bazar prinsipləri və beynəlxalq hüquqa hörmət əsasında qurulur və bu da o deməkdir ki, üzv ölkələr hətta mövqeləri kəskin şəkildə fərqlənəndə belə, bütün məsələləri müzakirə edə bilərlər.

Ənənəvi olaraq Böyük Yeddiliyin sammitində üzv dövlətlərlə yanaşı, beynəlxalq təşkilatların rəhbərləri də toplaşır. Bununla belə, sədrlik edən ölkənin dəvəti ilə digər dövlətlər də sammitin işində iştirak edirlər.

Böyük Yeddiliyin və onun illik sammitlərinin də qrupu “keçmiş dövrün artefaktı” adlandıran tənqidçiləri var. Buna baxmayaraq, 2002-ci ildən bəri fəaliyyəti 27 milyon insanın həyatını xilas edən QİÇS, Malyariya və Vərəmlə Mübarizə Qlobal Fondu da daxil olmaqla, Böyük Yeddiliyin

əldə etdiyi bəzi əhəmiyyətli uğurlar var. Həmçinin Paris iqlim sazişinin imzalanması da onun nailiyyəti sayıla bilər.

Böyük Yeddiliyin sammiti əksər hallarda ətraf mühit fəallarının rəhbərlik etdiyi etirazlarla keçirilir. Onlar istəyirlər ki, dünya liderləri, məsələn, iqlim dəyişikliyi kimi mühüm məsələlərə diqqət yetirsinlər.

Böyük Yeddiliyə adı və funksiyalarına görə, 1999-cu ildə qurulan Böyük İyirmilik bənzəyir. 2009-cu ilin maliyyə böhranından sonra ən yüksək səviyyədə qəbul edilmiş qərara əsasən, Böyük İyirmilik aparıcı ölkələrin maliyyə nazirləri və mərkəzi bank rəhbərlərinin toplaşdığı dünyanın əsas strateji iqtisadi forumudur.

Böyük İyirmilik dünyanın iqtisadi cəhətdən qabaqcıl və sürətlə inkişaf edən ölkələrini birləşdirir. Bura dünya ÜDM-nin 85%-i, ticarətin 80%-i və əhalinin 2/3 hissəsi daxildir.

### Nümunə 1

Keçmiş investisiya bankiri və Prinston Universitetinin iqtisadiyyat üzrə fəlsəfə doktoru Maykl O'Salivan kitabında müəyyən fəaliyyət planı təklif edir – "Qloballaşmadan sonra nə baş verəcək" (The Leveling: What's Next After Globalization). Müəllif çoxqütblü dünyanın qurulmasının tərəfdarı olsa da, beynəlxalq qurumların buna hələ hazır olmadığını da anlayır. O, aşağı iqtisadi artımdan və həddən artıq borclardan narahatdır, buna görə də hamını "risklə bağlı qlobal razılaşmaya" çağırır.

"Biz artıq qloballaşmanı arxada qoymuşuq, buna görə də onunla vidalaşmalı və çoxqütblü dünyanın formalaşmasının qayğısına qalmalıyıq. Yeni dünyada ən azı 3 aparıcı region olacaq: ABŞ, Avropa İttifaqı və Çinin Mərkəzi Asiya bölgəsi, bunlar da siyasətə, azadlığa, müharibəyə, texnologiya və cəmiyyətə getdikcə çox fərqli yanaşmalar tətbiq edəcəklər. Rusiya, Böyük Britaniya, Avstraliya və Yaponiya kimi orta dövlətlər dünyada öz yerlərini bərqərar etmək üçün əllərindən gələni edəcəklər, kiçik və inkişaf etmiş ölkələr isə Skandinaviya və Baltikyanı ölkələr kimi yeni koalisiyalar yaradacaqlar. XX əsrin qurumları – Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Dünya Ticarət Təşkilatı keçmişdə qalacaq".

## İqtisadi qloballaşma nədir?

İqtisadi qloballaşma istehsalın, məhsulların, xidmətlərin, texnologiyanın, informasiyanın, əmək və kapitalın beynəlxalq inteqrasiyasına yönəlmiş bir tendensiyadır. Qlobal iqtisadiyyat vahid və bölünməzdir və bununla da milli iqtisadiyyatlar və onların qarşılıqlı əlaqələri sistemi olan beynəlxalq iqtisadiyyatdan fərqlənir.

Dünya iqtisadiyyatında qloballaşma getdikcə daha geniş miqyas alır. İqtisadi qloballaşma prosesində bir-biri ilə ticarət və çoxtərəfli sazişlər vasitəsilə günü-gündən yeni inkişaf mərhələsinə keçən müxtəlif ölkələr iştirak edir. İqtisadi qloballaşma dünyanı yeni səviyyəyə qaldırdı. Bu-

günkü reallığı nəzərə alsaq, iqtisadi qloballaşma alternativ prosesdir. Məhz bu fakt onun hər bir insanın həyatında nə qədər vacib olduğunu göstərir.

İnkişaf etmiş ölkələr iqtisadi qloballaşma prosesində mühüm rol oynayırlar, çünki beynəlxalq iqtisadi mübadilələrin qaydalarını məhz onlar müəyyən edirlər.

İqtisadi qloballaşma zamanı təkcə dünya bazarında deyil, həm də maliyyə, ticarət, kommunikasiya və texnoloji sistemlərdə, eləcə də ənənəvi milli, mədəni, etnik və sosial sərhədləri aşan qanunlarda qlobal inteqrasiya getdikcə artır. İqtisadi qloballaşmanın qaydalarını ticarət müqavilələri, beynəlxalq hüquq və üstünlük təşkil edən ölkələr yaratdı.

**Mobil telefon brendlərinin coğrafiyası iqtisadi qloballaşmanın bariz nümunəsidir.**




İqtisadi qloballaşma əsasən üç sahədə özünü göstərir: istehsal, ticarət və maliyyə münasibətlərində. İstehsalın qloballaşması ilk növbədə transmilli korporasiyaların (TEC) sürətli inkişafı ilə ifadə olunur. Bir-biri ilə az-çox bağlı olan ölkələrdən dünya iqtisadi birliyi milli elementlərin vahid dünya iqtisadi orqanizminin tərkib hissələri olduğu vahid, bütöv iqtisadi sistemə çevrilmişdir.

İqtisadi qloballaşmanın səbəbləri, vasitələri və növləri

**İqtisadiyyatın qloballaşması**

**Səbəblər:**
- istehsal qüvvələrinin keyfiyyət xüsusiyyətləri;
- mikroprosessorların və yeni rabitə vasitələrinin yaranması;
- nəqliyyat texnologiyasında inqilab.

**Vasitələr:**
- ticarətin liberallaşdırılması;
- xarici investisiyalarla bağlı qaydaların liberallaşdırılması;
- beynəlxalq əmək bölgüsünün növbəti davamı.

**Növlər:**
- qlobal bazar;
- qlobal sənaye.

**Qlobal iqtisadiyyatın mənfəəti**

- Qlobal problemlərin həlli üçün beynəlxalq əməkdaşlıq;
- Transmilli korporasiyaların təsirinin gücləndirilməsi;
- Elmi-texniki nailiyyətlərin təkmilləşdirilməsi və istehsal texnoloji proseslərinin beynəlmiləlləşdirilməsinin dərinləşdirilməsi;
- Beynəlxalq əmək miqrasiyasının miqyasının artması;
- Qlobal infrastrukturun yaradılması;
- Məhsul və xidmət mübadiləsinin beynəlmiləlləşdirilməsinin dərinləşdirilməsi;
- Kapitalın beynəlmilləşməsinin artırılması;
- İstehsal qüvvələrinin qloballaşması;
- İnkişaf etmiş beynəlxalq nəqliyyat infrastrukturunun yaradılması;
- Ətraf mühitə təsirin qlobal problemlərini həll etmək üçün istehsal və istehlakın beynəlxalq əməkdaşlığı.

Elm və texnologiyanın inkişafı rabitə və nəqliyyat üçün maneələri çox azaldıb. İnformasiya inqilabı və kommunikasiya texnologiyalarının güclü və sürətli inkişafı sayəsində ötən əsrin son onilliklərində iqtisadi həyatın beynəlmiləlləşməsi xeyli sürətlənmiş və intensivləşmişdir. Peyklərin köməyi ilə dünyanın istənilən nöqtəsində abunəçilər bir-biri ilə mobil telefon, telefaks və ya internet vasitəsilə əlaqə saxlaya bilirlər. Bu ən son telekommunikasiya və informasiya texnologiyaları "fövqəlmilli körpülər" yaratmışdır ki, bunun sayəsində istənilən informasiya fiziki maneələri və milli sərhədləri asanlıqla keçə bilər. Qlobal "kibermәkan" formalaşdı.

Müasir telekommunikasiya sistemləri bizə ən qısa müddətdə istənilən məsafədən lazımi məlumatları əldə etməyə, həmçinin beynəlxalq kapital qoyuluşunun, istehsal kooperasiyasının və marketinqinin təşkilini sadələşdirən qərarlar qəbul etməyə imkan verir.

İqtisadi qloballaşma müasir həyatın müəyyənedici amilidir. İqtisadi həyatın beynəlmiləlləşməsi prosesi uzun müddətdir ki, davam edir, lakin son illərdə bu sahədə sürətli dəyişikliklər dünya iqtisadiyyatında yeni paradiqma yaradıb, beynəlxalq iqtisadi münasibətlərə yeni məzmun əlavə edib. Bir tərəfdən dünya səhnəsində yeni bazarlar yaranıb, digər tərəfdən isə qlobal miqyasda davam edən inteqrasiya prosesləri ayrı-ayrı ölkələr və regional birliklər arasında əvvəllər mövcud olan sərhədləri tədricən silib. Qloballaşma malların, xidmətlərin, kapitalın və texnologiyanın qarşılıqlı faydalı mübadiləsinə şərait yaradıb. Demək olar ki, dünya hamının qazanc əldə etməyə çalışdığı bir "böyük şəhərə" çevrilib. Bu, ümumiyyətlə, qloballaşma və digər məsələlərlə yanaşı, dünya iqtisadi məkanında yer almaq üçün ölkələri və regionları rəqabətqabiliyyətli məhsul və xidmətlərin istehsalını təmin etməyə məcbur edən iqtisadi inteqrasiya fəlsəfəsidir.

Dünya ölkələrinin əksər milli iqtisadiyyatlarının qarşılıqlı asılılığı onları az-çox muxtar iqtisadi strukturlardan qlobal iqtisadi orqanizmin tərkib elementlərinə çevirmişdir.

Müasir dünya dövlətlərinin məsələsi beynəlxalq bazarda dinamikliyi qorumaqla iqtisadi qloballaşmanın ədalətini təbliğ etmək, azadlığı və məsuliyyəti gücləndirmək, iqtisadi qloballaşmanın çətinliklərini daha yaxşı başa düşmək, qloballaşma prosesində lazımi şəkildə iştirak etmək və müxtəlif ölkələrlə qarşılıqlı əlaqədə inkişaf tempini sürətləndirməkdir və bununla da son nəticədə, əhalinin güzəranı yaxşılaşacaq.

# 8. QİYMƏTLƏNDİRMƏ

Müasir təhsil məkanında effektiv və nailiyyətli tədris üçün şagirdlərin motivasiyalarının yüksəldilməsi önəmlidir ki, bunda çox böyük rolu şagirdlərin obyektiv qiymətləndirilməsi, qiymətləndirməyə olan hərtərəfli yanaşma, iş prosesində qiymətləndirmə rubrikalarının tətbiqi təqdim edir. Şagirdin qiymətləndirməsi müəllimin əsas və önəmli fəaliyyətlərndən biridir. Tədqiqatçıların fikrincə (Muis və Reynolds, 2005), müəllimin vaxtının üçdə biri qiymətləndirməyə sərf olunur.

Şagirdin qiymətləndirilməsi şagirdlərin dərs materialını necə mənimsədiklərini, onların güclü və zəif tərəflərini başa düşməyə imkan verir. Qiymətləndirmə vasitəsilə dərs prosesini düzgünmü planlaşdırırıq və dərs fəallıqlarını şagirdlərin irəliləyişi və ya geridə qalmalarını nəzərə almaqla tərtib edirikmi?

Bu gün ümumtəhsil məktəblərində iki cür qiymətləndirmə – müəyyənləşdirici və inkişafetdirici qiymətləndirmə istifadə olunur. Müəyyənləşdirici qiymətləndirmə şagirdin fənnin tədris planlarının nəticələrinə əsasən nailiyyət səviyyəsini təyin edir. Şagird onballıq sistemlə qiymətləndirilir, ən aşağı bal 1, ən yüksək bal isə – 10 – dur. İnkişafetdirici qiymətləndirmə hər bir şagirdin inkişaf dinamikasını təyin edir və tədris keyfiyyətinin yaxşılaşdırılmasına istiqamətlənir.

Sinif qiymətləndirməsi Milli Tədris Planının birinci hissəsinin 7-ci fəslində müəyyən edilən qiymətləndirmə prinsiplərinə, məqsədlərinə və məsələlərinə uyğun olmalıdır.

Tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına dəstək vermək üçün inkişafetdirici qiymətləndirməyə üstünlük verilməlidir. İnkişafetdirici qiymətləndirmə ötən biliyinin nəticələri ilə münasibətdə şagirdi qiymətləndirir, fərdi irəliləyişi ölçür və bu yolla da şagirdə biliyini mərhələlərlə quraşdırmaq imkanını verir.

Şagirdin özü inkişafetdirici qiymətləndirmə cəlb olunmalıdır. Təlim prosesinin qiymətləndirilməsi şagirdə müstəqil təlim vərdiş-bacarıqlarını aşılatdıracaq, təlim strategiyalarının mənimsənilməsində yardım edəcək, imkan verəcəkdir ki, öz irəliləyişinə və nailiyyətinə düşüncəli şəkildə dəstək verə bilsin. Qiymətləndirməyə cəlb olunmanın əsas məqsədi şagirdin dərs prosesini dərk etməsidir ki, bu da ona düşünülmüş və müstəqil şəkildə bu prosesləri idarə etməyi öyrədəcədir.

## Yekunlaşdırıcı (inkişafetdirici və müəyyənləşdirici) qiymətləndirmə

Yekunlaşdırıcı qiymətləndirmə ölçməlidir ki, şagird hədəf anlayışlarına nə dərəcədə sahibdir və ya bunlardan nə dərəcədə funksional istifadə edir. Anlayışların mənimsənilmə səviyyəsini qiymətləndirmək üçün b.a. Solo taksonomiyasından istifadə edilir (müşahidə olunan dərs nəticələrinin struktur taksonomiyası – ingil. SOLO – Structure of Observed Learning Outcomes) və bu da qiymətləndirmə kriterilərinin hazırlanması üçün platformanı təqdim edir. Solo taksonomiyası şagirdlərin nailiyyətlərini 5 səviyyəyə əsasən ölçür.

Bu səviyyələrdir:

| |
|---|
| **SOLO 1: Prestruktur səviyyəsi**<br>Şagird, ümumiyyətlə, məsələni dərk etməmişdir. Qeyri-müvafiq, qeyri-relevant məlumatdan istifadə edir və ya ümumiyyətlə, məsələdən kənara çıxmışdır. |
| **SOLO 2: Unistruktur səviyyəsi**<br>Şagird yalnız bir aspekti təhlil etməyi bacarır və sadə, açıq-aydın əlaqələri qura bilir. Şagird terminologiyadan istifadə edə bilir, şifahi ötürür (yadına salır), sadə təlimatları/alqoritmləri yerinə yetirir: parafraz şəklinə salır, tapır, adlandırır və ya sadalayır. |
| **SOLO 3: Multistruktur səviyyəsi**<br>Şagird ayrı-ayrılıqda bir neçə aspekti təhlil edir, bir-biri ilə əlaqə xaricində. Sadalaya, təsvir edə, çeşidlərə ayıra, kombinə edə bilir; metodlardan, strukturdan istifadə edir; prosedurları yerinə yetirir və s. |
| **SOLO 4: Nisbi səviyyəsi**<br>Şagird bir neçə aspekt arasında əlaqəni, eləcə də bu aspektlərin bir-birinə nə qədər uyğun olduğunu dərk edə bilir və bütövü yaradır. Onun düşündükləri strukturlaşdırılmış və belə ki, şagirdin müqayisə etmək, əlaqələndirmək, analiz etmək, nəzəriyyədən istifadə etmək, səbəblər və nəticələr cəhətindən məsələni izah etmək qabiliyyəti var. |
| **SOLO 5: Genişləndirilmiş mücərrədlik səviyyəsi**<br>Şagird veriləndən/təklif ediləndən kənarda strukturu ayırmağı bacarır, bir çox müxtəlif cəhətdən/nəzərdən strukturu qavrayır və ideyaları yeni sahəyə keçirir. Ümumiləşdirməyi, fərziyyəni yürütməyi, tənqid və ya nəzəriyyəni formalaşdırmağı bacarır. |

Solo taksonomiyasının müsbət tərəflərindən biri odur ki, səviyyəni müəyyən etmək müəllimlər üçün asan olacaq və şagirdlərə dərs prosesinin aparılmasında yardım edəcəkdir.

Yekunlaşdırıcı qiymətləndirmə üçün kompleks tapşırıqlardan istifadə edilir və bunların yerinə yetirilməsi standartla müəyyən edilən biliyin və bacarıqların inteqrativ və funksional istifadəsini tələb edir.

## Yekunlaşdırıcı qiymətləndirmə üçün tipik tapşırıqlar

Aşağıda standartla nəzərdə tutulmuş tipik yekunlaşdırıcı tapşırıqların siyahısını təklif edirik. Hansı tapşırığı/tapşırıqları seçəcəyi müəllimdən asılıdır.

- Layihə (Layihə "Torpağın eroziyası və tənəzzülü ilə necə mübarizə aparaq?" kimi tədqiqat məsələsinə aid ola bilər. Tədqiqat nəticələri müxtəlif növdə təqdim oluna bilərlər (prezentasiya, yazılı hesabat və ya esse).
- Coğrafi informasiyanın müxtəlif mənbələrinə istinad etməklə qrafiklərin, cədvəllərin, diaqramların hazırlanması.
- Esse (şagirdlər problemli və ya aktual məsələ üzrə esse yazırlar, məs.: "Planetimizin demoqrafik portreti 100 ildən sonra necə ola bilər?");

- Səyyar tədqiqat (tədqiqat işi sinif otağından kənarda keçirilir, məsələn, bu zaman şagirdlər müəllimlə birlikdə təbiət qoynuna çıxır və ya hər hansı bir müəssisəyə gedirlər. Burada onlar növbəti məsələləri öyrənirlər: istehsalat növü və buraxılmış məhsul, yaşıl kənd təsərrüfatı və s.).

Coğrafiyada əsas şagirdin coğrafi biliyi və onun düşünərək istifadəsi, əsas coğrafi bacarıqların əldə edilməsi və davamlı inkişaf üçün dəyərlərin və yanaşmaların inkişafı qiymətləndirilməlidir. Müxtəlif qiymətləndirmə üsulları təbii şəkildə istifadə olunur ki, şagirdlər öz bacarıqlarını ifadə edə bilsinlər (bax. əlavə ədəbiyyatda, "Coğrafi bacarıqlar").

Şagirdlər barədə bu dəyərli məlumatın çox hissəsi gündəlik müşahidə prosesində yığılır, əsasən də effektli sorğu və diskussiya zamanı. Bu cür müşahidələr şagirdlərin nəyi bildikləri, güclü tərəfləri, nəyi təkmilləşdirəsi olduqları barədə qərar qəbul etmək üçün vacibdir ki, qoyulmuş məqsədlərə çatmaq üçün müvafiq tədris strategiyaları seçilsin. Yuxarıda sadalanlara şagirdin iş prosesində onu müşahidə etməklə, həmçinin onun verdiyi cavablara əsaslanaraq, sinif diskussiyasında iştirak etməklə, şagirdin işinə müəyyənləşdirici qiymət verməklə və effektli, keyfiyyətli əks-əlaqə ilə, şagirdləri özünüqiymətləndirməsi və bir-birini qiymətləndirməsi ilə nail olmaq olar.

Şagirdin nailiyyətləri barədə dəyərli məlumatı müxtəlif sinif aktivliklərinə qoşulan zaman şagirdi müşahidə etməklə və qiymətləndirmə nəticəsində toplamaq olar. Bu aktivliklər ibarətdir: birinci və ikinci mənbələrdən məlumatın toplanılması, sahəni müşahidə, sadə müşahidələr nəticəsində mümkün nəticələri proqnozlaşdırmaq, qanunauyğunluqlar təyin etmək, iş vərəqlərini doldurmaq, şifahi təqdimat, yazı işi, konkret və tematik xəritələr üzrə iş, sinif testləri, xəritələr qurmaq və təhlil etmək, qrafiklərdən istifadə etmək və interpretasiya, elektron media vasitələrdən məlumat toplamaq, müstəqil coğrafi tədqiqat aparmaq və müşahidə nəticələrini layihə şəklində təqdim etmək.

Müxtəlif çətinlikli tapşırıqlardan istifadə etmək müəllimə müxtəlif vəziyyətlərdə fərqli imkanlara malik şagirdlərin coğrafi biliyini/düşüncə qabiliyyətini daha dəqiq qiymətləndirməyə imkan verir.

İnkişafetdirici qiymətləndirmə prosedurları müəllimə şagirdin nailiyyətləri barədə dəyərli məlumat verir və onların proqresinə təsir edir. Lakin, orta, semestr tapşırıqları kimi yekun tapşırıqlar yalnız qiymət yazmaq üçün deyil, həm də şagirdin nailiyyətlərini qiymətləndirməyə xidmət etməlidir.

Onlar inkişafetdirici qiymətləndirmənin elementlərindən də ibarət olmalıdır ki, şagirdləri həvəsləndirə bilək, öz işlərini refleksiya etsinlər, və eyni zamanda müəllimə tədrisin uğurlu olmasını qiymətləndirməyə və onu daha da yaxşılaşdırmaq üçün məqsədlər qoymağa kömək etsin.

Şagirdin proqresini təsvir edən sənəd şagirdin portfoliosunda yerləşdirilə bilər. Bu sadə bir sənəddən ibarət ola bilər və şagirdin səyini, xəritə üzərində işini, düzəltdiyi modelin şəklini, gəzdiyi tədqiqat yerləri barədə yazıları və şəkilləri eksperimentləri ifadə edən sənədləri, iş vərəqi şəklində şagirdin yazıları, və ya internet kimi ikinci mənbələrdən tədqiqat yazıları təsdiqləyə bilər. Buna baxmayaraq portfoliolar qiymətləndirmə üçün yaxşı vasitədir, məktəblər üçün portfellərin xüsusi bir standartlaşdırılmış tələbləri yoxdur.

## SOLO TAKSONOMİYASI RUBRİKASININ ÜMUMİ NÜMUNƏSİ

### Rubrikanın təcrübədə istifadəsi üçün tövsiyələr

Birinci dörd səviyyə (prestruktur, unistruktur, multistruktur, nisbi) bütün anlayışlarla müqayisədə praktiki olaraq identikdir, beşinci mücərrədlik səviyyəsi isə bütün hədəf anlayışları üçün ümumidir.

Fənn çərçivəsində rubrikanın istifadəsi bütün hədəf anlayışları ilə münasibətdə mümkündür.

Müəllim inkişafetdirici qiymətləndirmə şərhini yalnız şagirdin hansı səviyyədə olduğu və yoxladığı hədəf anlayışı qrafasında yazır.

Bu rubrika testlərin yoxlanılması üçün deyil, inkişafetdirici qiymətləndirmə üçün nəzərdə tutulmuşdur və burada diqqət "təsvir et-izah et-qiymətləndir" terminlərinə yönəlir.

